Qəşəm İSABƏYLİ

I cild

Qəşəm İSABƏYLİ

əsərləri toplusu

uşaqlar və yeniyetmələr üçün

2 CİLDDƏ

I cild

şeirlər və poemalar

Qəşəm İsabəyli

ƏSƏRLƏRİ TOPLUSU

(uşaqlar və yeniyetmələr üçün)

2 cilddə

I cild

(şeirlər və poemalar)

Bakı
Şirvannəşr
2022

Kitaba ön söz

Günay Qarayeva

filologiya üzrə fəlsəfə doktoru, dosent.

Redaktoru – **Nadir Məmmədli**

filologiya elmləri doktoru, professor.

"Əkil-Bəkil" poemasına ön söz

Məmməd İsmayıl

Türkiyənin Çanaqqala

18 Mart Universitetinin professoru.

"Nənəm təkdi" poemasına ön söz

Zahid Xəlil

filologiya elmləri doktoru, professor.

Rəssamları – **Ədalət Həsən, Həsənağa Həsən**

Qəşəm İsabəyli

ƏSƏRLƏRİ TOPLUSU

(Uşaqlar və yeniyetmələr üçün)

2 cilddə

I cild

(şeirlər və poemalar)

Bakı-Şirvannəşr-2022

704 səh.

Beynəlxalq Andersen Şərəf Diplomu (İsveçrə-2014) və Azərbaycan Mədəniyyət Nazirliyinin "Qızıl Kəlmə" mükafatı (2015) laureatı yazıçı Q.İsabəylinin bu kitabına uşaqlar və yeniyetmələr üçün yaradıcılığı boyu yazdığı şeirlər və poemalar daxil edilmişdir.

83.3. Az (2)

İ----------

054

ISBN 978-9952-8377-6-6

© Q.İsabəyli, 2022

Balaca dünyanın böyük həqiqətləri

XX əsrin sonu XXI əsrin əvvəlləri uşaq ədəbiyyatımızda öz dəsti-xətti, orijinal, obrazlı düşüncə tərzi, folklor üslubuna, təhkiyəsinə bağlı, yığcam, çevik, yumorlu dili ilə seçilən Qəşəm İsabəylinin sadə, tutumlu poeziyası, folklor örnəklərinə dayalı nəzm və nəsr əsərləri, hekayə, nağıl və povestləri kiçik yaşlı uşaqlarla yanaşı, yeniyetmələrin də zövqünü oxşayan maraqlı nümunələrdir.

Qəşəm İsabəyli ədəbi aləmə keçən əsrin 70-ci illərində gəlmişdir. Həmin dövrdə ədəbiyyata gələn, sonralar müasir uşaq ədəbiyyatımızda öz üslubları ilə seçilən eyni nəslin nümayəndələri – R.Yusifoğlu, A.Əlizadə, Ə.Əlioğlu, Ə.Quluzadə kimi yeni yaradıcı qüvvələr xalq ədəbiyyatından, folklor örnəklərindən, uşaq ədəbiyyatımızın təcrübə və ənənələrindən yararlanmaqla yanaşı, rus və Avropa ədəbiyyatını da mütaliə edir və elə bu səbəbdəndir ki, onların yaradıcılıqlarının poetik kökləri daha əhatəli məzmun alırdı.

Keçən əsrin 70-ci illərindən sadə, yığcam şeirləri ilə müxtəlif mətbu orqanlarda görünən Qəşəm İsabəylinin "Balaca-bapbalaca" adlı ilk şeirlər kitabı 1982-ci ildə çap olunmuşdur. Onun şeirlərində sadə deyim tərzi, səmimilik, axıcılıq, çeviklik, oynaqlıq, fikri heç bir qəlibə salmadan sərbəst ifadə etmək ustalığı, yığcamlıq, yumor hissi ilk nəzərə çarpan cəhətlərdən idi. Bu, şairin "Torağaylar" adlı ilk mətbu (Ölkə səviyyəsində – G.Q) şeirindən başlayaraq bütün yaradıcılığından keçən əsas xüsusiyyətdir.

Vətən, ana, torpaq, təbiət, ayrı-ayrı fəsillər haqqında şeirlərin üstünlük təşkil etdiyi bu yaradıcılıqda mahiyyətə varmaq, müəyyən məfhum haqqında ətraflı bilgilər vermək, sadə, yığcam formada uşağın anlaya biləcəyi tərzdə fikri ifadə etmək ustalığı aparıcıdır. Qəşəm İsabəylinin şeirləri dil baxımından uşaqların qavrama bacarığına, hiss və duyum qabiliyyətinə uyar şeirlərdir. Burada yalnız dil xüsusiyyətləri deyil, eyni zamanda hər hansısa bir məfhum və yaxud predmet haqqında uşaqda təsəvvür yaradarkən onun fəlsəfi məzmununu açmaq, yeri gəldikcə sözün leksik mənası ilə fəlsəfi, mənəvi-əxlaqi mahiyyətini sintezləşdirmək baxımından da əhəmiyyətli və orijinaldır.

İki hecadır "Ana",
İki hecadır "Ata",
İki hecadır "Vətən".
Bəs nədən –
İki analı olmur,
İki atalı olmur?!
Bəs nədən,
İki paradır Vətən?!

Müəllif sadə, yığcam şəkildə predmetlər, məfhumlar arasında dialektik vəhdəti, zəncirvari bağlantını elə ustalıqla qurur ki, uşağı istər-istəməz düşünməyə sövq edir. Sözlərin bir-birilə uzlaşması, ritmiklik, oynaq ahəng, misralar arasında incə bağlantı uşaq təfəkkürünə uyğun sadə formada ifadə olunur. Qısa, yığcam misralarla uşaq ruhuna, düşüncəsinə uyğun təbii, canlı təsvirlər qurmaq, sadə deyim tərzi ilk baxışda bu yaradıcılığı şərtləndirən başlıca

amillərdəndir.

–Ay külək, nə əsirsən?
–Əsməsəm, olmaram mən.
–Olmağının xeyri var?
–Xeyri var ki, varam mən!

–Qışda nə xeyrin var, hə?
–Qışda yağış, qaram mən.
–Yazda bə?
–Ağacları
Oyadan nübaram mən.

–Yayda nəsən, ay dəli?
–Yaydamı?!
Baharam mən.
–Payızda bəs?
–Payızda
Aşıb-daşan varam mən,–
Bağça dolu xəzələm,
Budaq dolu varam mən... [1]

"Külək" şeirində məfhum haqqında yaradılan təsəvvür onun əhəmiyyətinin, gərəkliliyinin sadə formada fəlsəfi məzmununu açır. Müsahib kimi küləklə qurulan dialoq "qışda yağış, qar", "yazda ağacları oyadan nübar", "payızda aşıb-daşan var, budaq dolu bar" olan küləyin funksiyası, zəruriliyi haqqında informasiya verir, diqqəti zəncirvari şəkildə bir-birilə bağlı olan təbiət hadisələrnin

[1] **Qəşəm İsabəyli. Ay külək, nə əsirsən. Bakı, Şirvannəşr,2002, səh.3**

əhəmiyyətini əsaslandırmağa yönəldir. Bunlar yalnız təsviri yolla verilmir, güclü müşahidədən yaranan təsvir, təəssüratın məntiqi ümumiləşməsinə çevrilir. Bu cəhətdən şairin "Balaca-bapbalaca", "Torağaylar", "Külək", "Ay qış", "Payız", "Bulu-bulu....", "Daş", "Abdul əmi", "Xoş gördük" və s. şeirləri maraqlı nümunələrdir.

Ay qış, nə tez gedirsən,
Yağdırmadan qar bizə?!
Bəs nə gətirəcəkdir
Gələndə bahar bizə?!

Qış uşaqların ən çox sevdikləri fəsillərdəndir. Uşaqların hər biri bu fəsli qartopu oynamaq, qar adamı düzəltmək, xizəklə sürüşmək və s. kimi təbiət əyləncəsindən yararlanmağa, zövq almağa çalışır.

Varlıqda mövcud olanları, bir-birilə əlaqəli hadisələrin mahiyyətini sadə formada açmaq, uşaqlara dərk etdirmək Qəşəm İsabəyli şeirlərində əsas aparıcı xüsusiyyətlərdəndir. "Ay qış" şeirində qar yağdırmadan keçən qış fəslini təsvirə gətirməklə müəllif uşağın diqqətini fərqli istiqamətə yönəldir, baharda torpağın barsız, bərəkətsiz olacağına işarə edir, onun təsəvvürlərini genişləndirir. Bu üsul demək olar ki, şairin bir çox şeirlərində aparıcıdır. Onun yaradıcılığında quru, çılpaq təsvir yoxdur. Məfhumun, predmetin, əşyanın görünüşü, zahiri effekti yox, daxili mahiyyəti, məzmunu və leksik mənanı uşaq təfəkkürünə uyğun səciyyələndirmək, tərtibat verməklə təqdimi əsasdır.

Böldüm hecaya
"Vətən"i – "Və - Tən",

Nə deməkdi "Və",
Nə deməkdi "Tən"?

Bağlayıcıdır "Və",
Dərslikdə var,
Min fikri, sözü
Açar, bağlayar.

Bəs "Tən"?
"Tən – bədən",
"Tən –düz",
"Tən – yarı" –
Hansı uyardı
Bu mənaların?!

Əlbəttə "Yar"ı,
"Yarı", yəni "Tən",
Eləysə onda
Nnədir bəs "Vətən"?

...Vətən, yəni biz –
Bir qəlbdə – canı...
Güneyli,
Quzeyli
Azərbaycanım!

Şair sözün alt qatlarına enir, misra-misra, bölgü-bölgü onu açır, mənalandırır. Bu cəhət onun "Vətən –yəni biz..", "Bəs nədən", "Çörək" və b. şeirləri üçün də xarakterikdir.

Qəşəm İsabəyli üslubunda söz oynatmaq, onu yerli-yerində işlətmək bacarığı, sözlə sərbəst davranmaq və leksikonumuzda az-az işlədilən sözlərə yeni ruh, can vermək ustalığı var. Şair Məmməd İsmayıl şairin obrazlı düşüncəsinin poetik imkanlarından danışarkən bu məqamlara diqqəti yönəldir: "...Fikrin uyarlı, yerində işlədilən sözlərlə əmin-arxayın deyimi. Sözü necə deyərlər, əyib bükmək, istədiyin axara salmaq bacarığı... Əslində sənətkarlıq sirri deyilən bir şey varsa, o elə budur. Qəlbindən keçən qeyri-adi, çılğın fikirlərin boyuna uyğun söz və forma tapmaq bacarığı"[2].

Şair şeirlərini çox zaman dialoq, mükalimə şəklində qurur. Müsahib kimi müəllim, öyrədici və öyrənən qarşılaşdırılır. Sual-cavablar, hiss-həyəcan, təəccüb, heyrət hissləri ritmik, oynaq ahənglə müşahidə olunur. Uşaqların təbiət hadisələri, görüntüləri, ulduz, bulud, ay, külək və s. məfhumlarla bağlı sorğularına çox zaman ətraflı, izahlı, yumoristik cavablar şeirlərdə oynaq ahəng yaradır. Bu cəhət şairin "Külək", "O", "Çəngəl-biçaq", "Bəs", "Ot... zəmi...", "Mübarək", "Kefdi babam", "Döyüşçü" və s. şeirlərində aparıcıdır.

–Ay ana hey, mübarək!
–Ay bala, nə?
–Başmağın!

–Ay nənə, hey, mübarək!
–Ay bala, nə?

---

[2] Məmməd İsmayıl. İlhamın ifadə imkanları. ("Əkil-Bəkil" kitabına giriş. Bakı, "İşıq", 1990), səh.5

–Yaşmağın!

–Ay baba, hey, mübarək!
–Ay bala, nə?
–Coşmağın![3]

Qəşəm İsabəylinin həm poeziyasında, həm də nəsrində yumor hissi güclüdür. Onun "Konsert", "Yatmaq deyil Şəmşəminki", "Zeynəb cığalçılıq edir","Şəhərli oğlan", "Qonaq", "Ay nənəli", "Nənəmgilə gəlmişəm", "Nənəmlə dost olmuşam", "Toplan və sərçə" və s. şeirlərində, ayrı-ayrı hekayə və povestlərində aparıcı olan bu xüsusiyyət situasiyanı, obrazı və eləcə də, uşaqların daxili aləmini açmaq, hadisəni sətiraltı şəkildə ifadə etmək yönümündə diqqət kəsb edir.

Ümumiyyətlə, şairin şeirləri təsvirçilikdən, quru, çılpaq tərənnümdən tamamən uzaqdır. Onun şeirlərində məqsəd uşaqlara təbliğ olunanın əsas mahiyyətini açmaq, onları düşündürmək, bilgilərini möhkəmləndirmək məqsədi daşıyır. Bu baxımdan "Bərəkət", "Çörək", "Vətən" və s. şeirləri xarakterikdir.

Gün yuvalandı, durma,
Yer havalandı, durma...

...Əz daşı, kəltəni əz,
Əz, bala, yer təni əz.

Əzməsən, əzər dəni,
Torpağa səp zər dəni.

---

[3] ***Qəşəm İsabəyli. Leyləyin intiqamı.Bakı, Şirvannəşr, 2015, səh.19***

Yerə bərəkət ensin,
Təndirin tüstülənsin.

Holavarları xatırladan bu nümunədə uşaqlar yalnız əməyə səslənmir, görülən işin dinamikası, ardıcıllığı izlənilir, sərf olunan zəhmətin nəticəsi şirin, səmimi, canlı, sadə formada ifadə olunur. İş prosesindəki ağırlıq, gərginlik oynaq, ritmik ahəngin içərisində əridilir.

Qəşəm İsabəylinin həm poeziyası, həm də nəsr nümunələri milli xammaldır, qarışığı olmayan xammal. Əlavə, özgə təsirlər, yapma misralar, qondarma, milli ruha uyğun olmayan, onunla uzlaşmayan məqamlar bu yaradıcılıqda demək olar ki, yoxdur. Qəşəm İsabəyli folklor örnəklərinə, xalq ədəbiyyatına, yaddaşa mənən və ruhən bağlı sənətkarlardandır. İstər poeziya, istərsə də, nəsr nümunələrində onun yaradıcılığının mayası folklor üslubuna köklənir. Bu yaradıcılıqda xalqın söz xəzinəsindən, mifoloji mətn və motivlərdən, şifahi xalq ədəbiyyatımızın arxaik folklor janrlarından, andlar, dualar, alqış və qarğışlardan tutmuş sayaçı sözlər, holavarlar, atalar sözləri, məsəllər, bayatılar və s. ustalıqla poetik misralara hopdurulduğunun şahidi oluruq. Poeziyasında bu bağlantı müasir məişət, ünsiyyət, davranış və münasibətlərlə çulğaşır, özü də bir yaddaş nümunəsinə çevrilir. Şairin "Əkil-Bəkil", "Nənəm təkdi", "Şamaxı – Şam nağılı" poemaları bu cəhətdən maraqlı nümunələrdəndir. Müəllif bəzən nağıllarımızdan hamımıza yaxşı tanış olan qəhrəman tiplərindən, mifoloji mətn, əfsanə və rəvayətlərdən yararlanaraq dekonstruktiv sujet qurur, onu müasir günümüz, cəmiyyətimizlə əlaqələndirir. Onun yaradıcılığında folklordan istifadə

metodları müxtəlif və çoxşaxəlidir. Bütün poemalarında bu və ya digər dərəcədə rast gəlinən bu bağlantı zahiri effekt, müvəqqəti xarakter daşımır, bütün komponentləri ilə iştirakçıya çevrilir. Çox zaman folklor xammal şəklində bu yaradıcılıqda yer alır, mifoloji mətn və motivlərə, əfsanə və rəvayətlərə birbaşa istinad olunur. Digər tərəfdən isə, fikri-hissi qoşulma nəzərə çarpır. Qəşəm İsabəylinin bu baxımdan maraqlı əsərlərindən biri "Əkil-Bəkil" poemasıdır. İki hissədən ibarət olan poema 1989-cu ildə "Ən yaxşı uşaq kitabı" I Respublika müsabiqəsinin qalibi olmuş, ikinci mükafata layiq görülmüş və poeziya üçün son dərəcə böyük tirajla, 25 min nüsxəylə nəşr edilmişdir. Müəllif dəfələrlə poema üzərində işləmiş, cilalamış və təkmilləşdirmişdir. Poema sərhədyanı kəndlərin birində yaşayan Əkil-Bəkilin uşaqlığından başlayaraq yeniyetmə Əkil-Bəkilin əsgərlik çağı və qəhrəmanlıqlarını əks etdirir. Qəhrəman və personajların adı folklorlordan, şifahi xalq ədəbiyyatımızdan bizə tanışdır.

Adım – Əkil-Bəkildi,
Boyunuzca boyum var.
Quş deyiləm, oğlanam,
Dam dolusu toyum var!

Qəşəm İsabəyli yaradıcılığında diqqəti cəlb edən cəhətlərdən biri odur ki, onun kiçik qəhrəmanları müstəqil, təcrübəli, ayıq-sayıq, düşüncəli, cəsur uşaqlardır. Poemada 13 yaşlı Əkil yaşının az olmasına baxmayaraq dərslərində əlaçı, ağıllı, çevik, diribaş oğlandır. Müəllif kiçik qəhrəmanını hərtərəfli şəkildə təqdim edir. Dərslərində,

idman yarışlarında birinci olan, yaşıdlarından fərqlənən Əkilin hərəkətləri uşaqlarda gözəl sifətlər, əxlaqi keyfiyyətlər aşılayır.

Altıncı sinifdə oxuyan Əkil-Bəkil sərhəddi qanunsuz keçən, özünü şikəst adam kimi göstərən kişinin hərəkətlərindən şübhələnərək onu aldadıb sərhəd zastavasına gətirir. Aparılan sorğu-sualdan həmin adamın casus olduğu üzə çıxır. Əkil-Bəkilin ayıq-sayıqlığı və diribaşlığı sayəsində sərhədçilər şübhəli şəxsi zərəsizləşdirirlər. Əkilin qəhrəmanlığı tez bir zamanda təhsil aldığı məktəbə və eləcə də hər yerə yayılır. Göstərdiyi qəhrəmanlığa görə "Sərhəd əlaçısı" döş nişanı ilə təltif olunur.

Poemanın "Keşikdə" adlanan II hissəsində ordu sıralarına çağrılan və sərhəddə xidmətə başlayan Əkil yenə də öz şəxsi keyfiyyətləri, qəhrəmanlığı ilə seçilir. Əkil-Bəkil obrazı oxucuya bütün çətinliklərdən, ağır sınaqlardan keçməyi bacaran, yaşına uyğun olmayan qeyri-adi qəhrəmanlıqları ilə seçilən nağıl personajlarını xatırladır.

Poemanın bu hissəsinin ən maraqlı bölmələrindən biri "Bu iki parça olan, sənin köksündür, Vətən" bölməsidir. Poemada tarixin yaddaşına daş atan şair ardı-arası kəsilməyən suallar, həmin sorğular əsasında yaranan düşüncələri dilə gətirdikcə, uşaq kimliyi, milli mənsubiyyəti haqqında maraqlı fikirlərlə qarşılaşır. Oğuzlar kimdir, türklərin mənşəyi, ikiyə bölünmüş Vətən, Araz haqqında düşüncələr və s. Burada Əkil-Bəkilin qəhrəmanlıqları fonunda ikiyə bölünmüş Azərbaycanın dərdi, ağrıları əks olunur. Müəllif xalqımızın düçar olduğu bəlaları, tarixi keçmişimizi poemanın süjeti ilə uyğunlaşdırır və hadisələrin axarında bir sıra tarixi, ictimai-siyasi məsələlər qa-

bardılır. Sərhəd mövzusuna müraciətin mahiyyəti bu bölmədə açılır. Yazıçı Ələviyyə Babayeva "Əkil-Bəkil" poemasının məzmun, ifadə gözəlliyi və sənətkarlıq məziyyətlərindən danışarkən qeyd edirdi: "Nağılvari "Əkil-Bəkil" poemasında bu günümüzün nisgilli əhvalatları ümumi süjet xətti ilə çox təbii çarpazlaşır. Vətən məhəbbəti, arzuolunmaz sərhəd cəfakeşliyi, sərhəddin o tayında qalan doğmalar, adı qəsdlə tarixdən silinən, gizlədilən ikinci vətən torpağı nisgili çox təbii nağıllaşdırılmışdır.."[4].

Tikanlı məftilləri
Görcək,
Qəlbim yanıbdır.
Pas tutmuş balta kimi
Sinəmə saplanıbdır.

Uzanır çay boyunca,
Gah da çayı bölür tən.
Bu iki parça olan
Sənin köksündür,VƏTƏN!

"Fikirlə hissin bəhrəsi"ndən (M.İsmayıl) yaranan bu poemada Əkil-Bəkilin qarşılaşdığı hadisələr və düşüncələri fonunda Vətənin, Azərbaycanın tarixi yaddaşı vərəqlənir, xalqımızın qonaqpərvərliyi, səxavəti müqabilində yaşadığı məhrumiyyətlər, acılar ümumiləşdirilir.

Q.İsabəylinin maraqlı, ibrətamiz poemalarından biri "olduqca orijinal üslubda qələmə alınmış" (Zahid Xəlil) "Nənəm təkdi" əsəridir. Poemada kənddə tək-tənha yaşa-

[4] **Ə.B. İstedad özü öz yolunu tapır. "Ədəbiyyat" qəz. 10 yanvar, 1997**

yan nənənin gündəlik qayğıları, ocağa, torpağa bağlılığı, nisgili, övladlarından, nəvələrindən ayrı yaşantıları, problemləri canlandırılmışdır. Müəllif "qışda dizdən palçığı", "yayda qara şoran"lı Xəlsə kəndini oynaq, ritmik misraların ahəngdar düzümü ilə təqdim edir.

Nənəm təkdi Xəlsədə,
Üçcə göz otaqda tək.
Qapısında təndiri,
Süfrəsində duz-çörək.

Poemanın qəhrəmanı kənddə tək-tənha yaşayan, gündəlik qayğıları, təsərrüfat işləri ilə gününü gecə edən nənədir. Müəllifin canlandırdığı bu obraz öz halal zəhməti, ruzusu ilə ocağının istisinə isinən, onu sönməyə qoymayan, bərəkət, yaddaş simvolu olan hər birimizə tanış nənələrin ümumiləşmiş obrazıdır. Obrazın dili, hərəkətləri, jest və davranışları, xalqın tarixini, adət-ənənələrini, keçmişilə mənəvi bağları əks etdirir. Kənddə, öz doğma yuvasında tək-tənha yaşayan nənə bəzən təklik və kimsəsizlikdən usansa da, sınmır, kövrəlsə də, giley-güzar etsə də, özünə təskinlik verir, ocağa, torpağa bağlılığı itirmir.

–Allah məni oxşadıb
Özünə son çağımda.
O da təkdi, mən də tək
Dünyanın qucağında

Poema "Nənəm deyir", "Nənəm çörək göndərib", "Nənəm atıb evini", "Nənəm obaşdan durub", "Nənəm yır-yığış etdi", "Nənəmgilə gəlmişəm", "Nənəm mət ha-

zırlayıb", "Nənəm məktub yollayıb", "Nənəm satıb evini" kimi nənənin hiss və duyğularını, yaşantı və qayğılarını əks etdirən bölmələrdən ibarətdir. Nənənin dilindən söylənilənlər yalnız giley-güzar, şikayət deyil, bir tərəfdən yurda, ocağa övlad laqeydliyini, biganəliyini göstərirsə, digər tərəfdən uşaqlarda doğma torpağa, doğulduqları məkana, anaya məhəbbət hissləri, diqqət, qayğı aşılayır. Poemada atalar sözləri və məsəllərdən, alqış və qarğışlardan istifadə danışıq dilinin üslubi keyfiyyətlərini, şirinliyini şərtləndirən başlıca amildir. Əsərdə xeyli sayda dialekt sözlərinin işlədilməsi, xalq danışıq dilində işlədilən söz və ifadələr poemanın dilini daha cazibədar və oxunaqlı edir. "Qac", "ağac-uğac", "məhəccər", "Şax-şəvəl", "kösöv", "gimgə", "kalafa", "gəz", "çəm-xəm", "gərmə", "kiriş", "hörükləmək", "minbudaq", "təzyə" və s.

Nənənin dilində işlədilən alqış və qarğışlar, dualar dilimizin potensial imkanlarını, hiss və həyəcana, emosiyaya bağlı texniki imkanları üzə çıxarır.

Xuda – Allah...
Xudahifiz –
Allah səni saxlasın!
Ay bala,
Düşmənini
Qara yer qucaqlasın!

Göyünə doğsun günəş,
Yoluna şeh çilənsin.
Səni istəməyənin
Gözünə yaş bələnsin

Folklora, xalq ədəbiyyatına bəzən birbaşa, bəzən də fikri-hissi qoşulmada müəllif çox zaman yaradıcı şəkildə, fantaziyasına uyğun olaraq mövcud rəvayət və əsatirlərlə yanaşı, məqsədə uyğun mənalandırmalara əsaslanaraq yeni əfsanələr yarada bilir. "Şamaxı – Şam nağılı" poeması bu baxımdan maraqlı nümunələrdəndir. Müəllif fantaziyasının məhsulu olan poemada Şam adlı igid oğlandan bəhs olunur. Şamın dünyaya gəlməsi, igidlikdə, halallıqda ad çıxarması, qəhrəmanlığı bir tərəfdən xalq nağıllarından gələn motivlərlə səsləşirsə, digər tərəfdən klassik məsnəviləri xatırladan süjet özünəməxsusluğuna malikdir. Poemanın nağıl dilinə bənzər təhkiyəsi, üslubu, lakonik, çevik ifadə imkanları hadisələrin sürəkli cəryanını şərtləndirir. Poemada ritmikliyi, oynaqlığı yaradan heca növbələşməsidir.

Əsasən üçlük, dördlük, altılıq və yeddiliyin imkanlarından yaradıcı şəkildə bəhrələnən şair şeirlərində olduğu kimi bu poemada da misralar arasında ölçülüb-biçilmiş normativləri pozaraq hadisələrin gedişatında bir çeviklik, dinamiklik yaradır. Heca bölgüsünün pozulması üsluba nəinki xələl gətirir, şairin sənətində orijinallıq yaradır.

Şam nağıllardakı qəhrəman obrazları xatırladır. Xeyirxah, igid Şam, hiyləgər, paxıl Çuğulun qurbanına çevrilir. Düşmən tərəfindən baltalanan atının qisasını alaraq onu qucaqlayıb hönkür-hönkür ağlayan Şam Çuğul tərəfindən arxadan balta ilə vurulur. Özündə qüvvə taparaq düşməninə qalib gəlsə də özü də məhv olur. Oğlunun öldüyünü görən ananın fəryadı müəllif fantaziyasını və əsas məqsədini reallaşdırır.

–Nə görürəm, ay Allah,
Yuxu olaydı barı!
Baxdı... oğlu can verir...
Qışqırdı:
–Şaaa-mm!
Aaaa-xx...u...u...u...
Şam...ax...u...

Bir şamdan alışar
Minlərlə şam axı!
Beləcə ad oldu,
Beləcə yurd oldu
Şamaxı!

Şairin yaradıcılığı qafiyə sistemi baxımından da zəngindir. Onun şeir və poemalarında daxili və qulaq qafiyələrindən geniş istifadə olunub. "Yay-hay-haray", "saatam-yatam", "iş-görməmiş", "qapılar-var", "bulaşıq-çəngəl-qaşıq" və s.

Qəşəm İsabəylinin uşaqlar və yeniyetmələr üçün müxtəlif janrlarda yazdığı şeir, poema, hekayə, nağıl, povest-nağılları müasir uşaq ədəbiyyatımızın inkişafında və zənginləşməsində xüsusi əhəmiyyətə malikdir. Orijinal üsluba, cazibədar dil və ifadə imkanlarına malik bu yaradıcılıq fikri sərbəst, heç bir qəlibə salmadan ifadə etmək ustalığı baxımından nə qədər yenidirsə, xalq ədəbiyyatına, folklor üslubuna malik dil və ifadə imkanları baxımından da bir o qədər orijinaldır.

Onun həm poeziyası, həm də nəsr əsərləri ilk növbədə müasirliyi, ənənəyə, yaddaşa ruhi, mənəvi-psixoloji

yönümdən bağlılığı ilə seçilir. Müşahidə qabiliyyətinin güclülüyü, ən adi fakt və hadisəni böyük mövzuya çevirmək ustalığı onun əsərlərində əsas yaradıcılıq keyfiyyəti kimi nəzərə çarpır.

Adi süjet daxilində geniş mətləblər qoymaq, ictimai-sosial problemləri qabartmaq, uşağa kiçik dünyanın gözü ilə deyil, bir fərd, şəxsiyyət kimi yanaşmaq, canlı və görümlü təsvirlər, folklor örnəklərindən birbaşa və ya dolayısı ilə istifadə etməklə ənənəvi süjeti, motivi bədiiləşdirərək yeni mövzuya çevirmək bacarığı onun yaradıcığını şərtləndirən başlıca amillərdir. Şairin təsvirdən çox müəyyən anlayış, predmet və yaxud əşyanın mahiyyətini açan torpaq, vətən, təbiətlə bağlı şeirləri, hekayə və nağılları, yarı realist, yarı fantastik nağıl-povestləri uşaq ədəbiyyatımızda yeni bir səhifədir.

Günay Qarayeva
filologiya üzrə fəlsəfə doktoru, dosent

Șeirbar



Kütəyi eşidirsən, baba



***G*ül**

***N*ənəm xalçaya gül əkib,**

Xalçada – güllərin ləki...

***T*ək**

***Q*apını küləkdi döyən,**

Çöldə qalıb – təkdi, deyən?!

***S*ərçə**

***S*ərçə dimdikləyir qarı,**

Nə itirib, nə axtarır?

***K*üncüt**

***S*ərçənin gözü cütdü –**
Elə bil ki, küncütdü.

At

***A*t atlanır çəpərdən,**
Şıllağa qalxır hərdən.





Bacım

Bacım məni uşaq sayır,
Hey ağzımı yamsılayır.

Əsmə, külək

Əsmə, külək, əsmə, dur,
Çiçəklərim bar tutur.

Qoyun... dəvə...

Qoyuna bax – ot qırpır,
Dəvəyə bax – çır-çırpı.

Yağış

Yağışa bax, yağışa,
Yağır – qalmayır qışa.

Payız

Payıza bax, payıza,–
Bir bax ağlağan qıza.

*Ş*ax-şax

*Q*urdun qulağı şaxdı,
Elə bil ki şax-şaxdı.

*4*0

*Q*ırxayaq – ayağı 40...
Qırxbuğum – qulağı 40.

Aida

*Y*uxusu – quş yuxusu,
Yeməyi-içməyi – su.

*Q*ış

*G*ünəş doğsa da, hava soyuqdu,
Yarpaq səsi yox, quş səsi yoxdu.

*B*ülbül

*C*əmi üç hərfdi – b-ü-l...
İki hecadı – bül-bül.





***A*tlı Qəşəmşəm**

Atı çöldən tapıb gəlirəm,
Dördəmə çapıb gəlirəm!

***P*ayız**

Ağaclara bax – yeldən uçunur,
Buludlara bax – yağış xurcunu…

***A*ğaclar**

Batdı Günəş, yağdı qar–
Üşüyəcək ağaclar.

***Q*ış**

Külək ulayır it kimi,
Şimşək çaxır kibrit kimi.

***Ç*öl**

Hava sakit, bulud ağır,
Kol-kos nazik... yağış yağır.

*Q*artopu

*A*llah qartopu oynayır,
Bizi yaxına qoymayır.

*A*tam

*A*tam deyir ki, bərəkətdi qar,
Kimin qarı var – bağça-barı var!

*B*eçə

*B*ax, o banlayan bizim beçədir,
Yazıq bilməyir yarı-gecədir.

*G*ünəş

*A*l Günəş batdı getdi,
Ayı oyatdı getdi.

*K*or... kar...

*K*or qulağıyla görür,
Kar eşidir gözüylə.





*Q*uzu... köşək...

*Q*uzular daraşıb döşə[5],
Marça-marçla əmir köşək.

*S*ərçə

*S*ərçə təpəni dağ bilir,
Kol-kosluğu bağ bilir.

*Q*orxu

–*Q*apını açıq qoydun,
Külək hirsləndi, baba.
Elə çırpdı – diksindim.

*A*y quş

*A*y quş,
Nə oturmusan
Körpə budağın üstdə,–
Yazıqdı, sındırarsan?!

[5] ***Döş – təpənin, dağın yamacı.***

*A*y qar

*A*y qar, daha yağdın,
Yağdın... üzün ağdı.

*D*əh-dəh

*A*t sürürüəm – dəh-dəh...
Anam deyir: “Bəh-bəh!”

*D*əcəl yuxu

–*A*y bala, dur!
–Yuxu qoymur.

Su

*D*urdum, suyu oyatdım,
Üzümə dəydi – yatdı.

Külək – daraq

*K*ülək darayır havanı,
Vurub deşibdir tavanı.





*A*c gəzirəm

*Ə*limdə ağac gəzirəm,
Yeməyimi sərçə yeyib, –
Ac gəzirəm!

*Y*ay

*A*ğacların budağında barı var,
Başı üstdə –
Sərçə-sığırçın bazarı var.

*S*oyuq

*Q*ar iyi gəlir havadan,
Ağaclar küsüşüb durub.
–Qar... qar... – qarıldayır qarğa,
Sərçələr büzüşüb durub.

*A*ğaclar

*A*ğaclar bar gətirib – yorulub:
–Bircə qış tez gələydi, –
Dincələydik.

*N*ə olsun

*N*ə olsun bacımdı Zeynəb,
Nə olsun çox istəyirəm!
Səhv işini görən kimi
Üzünə deyirəm!

*S*ərçə və qış

*Ç*imirdi
Sərçə torpaqda,
Buluddan baxırdı yağış...
Birdən elə döndü hava –
Göyün üzünü aldı qış.

*A*bdul

*B*ax,
Abdula bax,
Evə qayıdır,
Necə gedibsə,
Elə qayıdır, –
Əli səbətli,
Dili söhbətli.





*B*iz kimik

–*G*öy nədir?
–Dayağımız!
–Yer nədir?
–Ayağımız!
–Biz kimik?
–Sabahımız.

*B*axma ki...

*B*axma ki,
Səkkizdi yaşı
Ağzından qocalıb Şəmşəm,
Üç cüt bir tək dişi qalıb.
Çömçəylə dəyib arası,
Qazanda bişmişi qalıb!

*P*işik balaları

*İ*ki pişik balası –
Bir-birindən balaca.
Biri miyoldayan tək,
O biri söyləyir – “Can!”.

*C*ığal yuxu

Mən durmuşam,
Gözüm yatır.
“Dur!” deyirəm.
Deyir: “Sən dur,
Özüm yatım!”

*Ç*aydan

Dəli olmuşdu çaydan–
Qaynayırdı, daşırdı.
Gah odla dalaşırdı,
Gah suyla dalaşırdı.

*F*ərari

–***N***ə deməkdi “fərari”,
Deyə bilərsən, ata?!
–Əsgərlikdən yayınıb,
Döyüşdən qaçan əsgər.
–Bizdə də fərari var, –
“Qarabağ tarixi”ndə
Dərsdən qaçır uşaqlar.





Ərköyün

– Baba can, ayaqların
Nə yaman ərköyündü, –
Çəkmələrimi verdim,
Geyinmir.

Alver

–Ay baba, alver eyləyək?
–Nə alver?
–İstəyirsən
Dərsdə birinci olum?!
–Hansı baba istəməz?!
–İt alacaqsan mənə?!

Zeynəb və çaqqallar

Ulaşır çöldə çaqqallar,
Evdə Zeynəbi qorxuzur.
Çaqqala "xox" gəlmək üçün,
Bir də görürsən ki, Zeynəb
Gah itin şəklini çəkir,
Gah yazığı gəlir – pozur.

*B*abamın üzü...

*E*lə qocalıb ki, babam,
Dili danışmır daha.
Namaza oturanda,
Üzünü tutur Allaha, –
Babamın üzü danışır.

*A*y qış

–*A*y qış, mənə bar gətir!
Qış əsdi, coşdu, daşdı! –
Qar gətirdi.
–Ay yaz, mənə qar gətir!
Yaz əsdi, coşdu, daşdı! –
Bar gətirdi.

*T*ülkü

*Q*uyruğunu belinə
Dolayıb tülkü yatır.
Yatır xırda gözləri,
Yatır dik qulaqları,
Tükü yatır...





*S*içan... pişik...

–*A*y pişik,
Yeri, get, yat!
–Siçan yatmayıb axı!
–Ay siçan,
Yeri, get, yat!
–Pişik yatmayıb axı!

*B*aba

–*B*aşmağımı qoymuşam
Yatağının yanına, –
Qorxma,
Üşüməyəcək
Ayaqların sübhəcən!

*Ü*ç söz

*Ş*əm-şəmin lüğətində
Üç sevimli sözü var –
Yatmaq...
Yemək...
Deyinmək!

*N*ənəm

*N*ənəm deyir:
–Bura gəl,
İynəmi sapla!
Başını az qat
Dəftər-kitabla.

*C*ığal Günəş

*Z*eynəbi yuxusundan
Durğuzanda hər səhər,
Qardaşına ilk sözü
Bu olur ancaq:
–Nə cığaldı bu Günəş,
Niyə tez çıxır axı,
Niyə yatmır doyunca?!

*A*y pişik...

–*A*y pişik, miyoldama,
Çəkilib yana dursan!
–Ay it, mırıldama, keç,
Pişiyi qorxudursan!





*X*oş gördük...

*Ş*əm-şəm əbrişimlərə
“Şam” deyir,
“Küknar” deyir.
Qucaqlayıb alçanı:
–Xoş gördük, ay nar! – deyir.

*K*ülək və qurd

*Q*urdun başına fırlanıb,
Qurd kimi ulayır külək:
–Qorxma,
Yanında durmuşam.
Bu yandan da qurd ulayır:
–Qorxmaq nədi,
Qudurmuşam?!

*B*irdən

*D*əyişik düşdü birdən
Dovşan ilə yerkökü;
Yerkökünün dişində
Getdi dovşanın tükü.

*Q*ar

*Q*ar düşüb, –
Təkcə qalıb
Evimizin damında... –
Yazığı gəlir adamın da.

*N*əzakət

*M*ənim adım Nəzakətdi,
Amma “Nazzı” deyirlər.
Dərsə getmək istəyirəm,
“Yaşın azdı!” deyirlər.

*A*y baba

–*A*y baba,
Cücə olmuşam!
–Qanadların hanı bəs?
–Şap... şap... şap...
–Ayaqların hanı bəs?
–Tap... tap... tap...
–Səsin hanı?
–Cik... cik... cik...





*A*y ata

–*M*ənə dolmamış bulud,
Yağılmamış qar gətir!
–Hardan?!
–Ata deyilsən,
Axtar... gətir?!

*D*ərs

–*Y*erdə bir topa
Sərçə durubsa,
Qoçaqsan, daş at,
Uçurt, göydə say.
–Adam daş atar
Sərçəyə, ata?!

*D*aşlar

*B*ir maşın daş gətirdilər
Həyətimizə.
Yerə töküldükcə
Bağırışırdılar:
–Hasar olmaq istəmirik!

*H*ərdən

*H*ərdən külək oluram,
Əsim, –
Yarpaq sevinsin.
Hərdən yağış oluram,
Yağım, –
Torpaq sevinsin.

*D*əcəl

*M*ənim dəcəl qələmim
Oyun çıxardır, oyun, –
“At” yerinə “ot” yazır,
“Oyun” yerinə “qoyun”.

*P*inti maşın

*P*alçıq içindədi maşın,
Səhərəcən kirli yatıb, –
Ay baba,
Yazığm gəlir –
Gör necə fikirli yatıb?!





*A*y qış

–*A*y qış,
Nə tez gedirsən,
Yağdırmadın qar bizə?!
Bəs nə gətirəcəkdir
Gələndə bahar bizə?!

*X*əstə

*H*açandı mürgüləyir
Ulağımız axurda.
Hərdən başını qaldırıb,
Anqırır xırda-xırda.

*E*ylədim

*A*yağımı at eylədim,
Yüyəni[6] üçqat eylədim –
Dördələmə çapıb gedib,
Mən babamı
Şad eylədim!

[6] ***Atın başına keçirilən, dəmir ağızlıq və cilovdan (qayış və ya ip hissəsi) ibarət qoşqu ləvazimatı.***

Qış

Günəş hələ beşikdədi,
Hələ yatmaq qalır ona.
Gözü açılmır yuxudan,
Külək layla çalır ona.

Günəş

–*N*iyə çıxırsan, Günəş?
–Oynayasan-güləsən.
–Niyə batırsan, Günəş?
–Yatasan-dincələsən!

*Q*ar - süd...

*Q*ar dənəsi buluddan
Ayrılıb küt-küt düşür–
Pap... pap...

Sanki camışımızın
Əmcəyindən süd düşür–
Pap... pap...





Çərkəz babam

Babam quşu uçurdur ki,
Vursun göyün üzündə.
Babam bir ovçudur ki,
Quş yayınmaz gözündən.

Mən

Çığırıb eləməyirəm,
Birdən havaya güc düşər!
Bərkdən gülməyirəm də ki... –
Sığırçınlar ürküşər!

Allah

«Allah» sözünü
Hecaya böləndə,
Babasının əlini
Tutdu Qəşəmşəm:
– Neylədiyindi, kişi,
Bəs demirdin –
“Allah təkdi.” ?!

*M*ən...

*H*ay-küy
Salmayıram daha,
Ürküdər səsim sərçəni.
Balasına dən verəndə,
Dimdiyi saxlamaz dəni!

*U*lağın səsi...

*U*lağın anqırışı
Özünə xoş gəlmədi.
Ha anqırdı,
Ağnadı,
Səsi heç düzəlmədi.

*Q*uzu

*B*uz kimi soyuqdu hava,
Quzuya bax, arxa girib...
–Ay quzu, ağzın üşüyər,
Dayan,
Gedim çay gətirim!





*A*y qış

–*A*y qış,
Nə tez gedirsən,
Yağdırmadın qar bizə?!
Bəs nə gətirəcəkdir
Gələndə bahar bizə?!

*Ə*lin üsyanı

–*M*ən ələm, əl,
Ay Qəşəmşəm,
Baş deyiləm – fikirləşəm...
Qoynuna qoymusan məni,
Niyə qoymursan işləyəm?!

*B*əs

–*A*ğacın balası var?
–Var. –
Budağındakı bar.
–Babam niyə dərdi bəs,
Bazara göndərdi bəs?!

*K*işilər

–*K*işilər uşaq olur, baba?
–Olur da sözdü?!
–Necə?
–Anası yadına düşəndə.

*D*ana

*D*ananın quyruğundan
Yapışdım zəli kimi.
Dana şıllağa qalxdı,
Böyürdü dəli kimi.

*M*ənim dostlarım

*T*ək qalsam da evimizdə,
Darıxmıram,
Gör nə qədər yoldaşım var –
İki gözüm,
İki qaşım,
Cüt qulağım,
Burnum-başım...





*B*abamın şapıları

*C*ığal uşaqdı sanki –
Burun-buruna qoyub
Çəkmələrim.
Bir cüt əsgər kimidi
Atamın ayaqqabıları.
Babamın şapıları
Elə dayanıb,
Elə bil harasa gedəcək.

*B*ulud

*B*ulud yağdı qarını,
Büzdü dodaqlarını:
–Yun kimi yüngül oldum, –
Pərdə kimi – tül oldum.

*Y*aşma

*Y*aşma bağlarının
Gillicədi torpağı,
Balaca yağış bəs eləyir,
Bizi evə həps eləyir!

*D*ostum

*G*ah it olur, gah pişik,
Gah alabaş, gah ayı,
Gah danışır, gah susur,
Gah gülür, gah ağlayır.

*B*əs

–*A*y baba, qardaşın yoxdu?
–Oğlum, nəvəm nəyimdi bəs?!

–Ay ata, qardaşın yoxdu?
–Atam, oğlum nəyimdi bəs?!

–Bəs mənim qardaşım, ata?!
–Baban, atan nəyindi bəs?!

*B*aaa...

*G*öy guruldadı,
Çığırıb,
Üstümə qaçdı Zeynəb:
–Baaa...





*C*ığa

*D*arayıram, – biz-biz durur,
Bağlayıram – yatmır yana,
Saçlarım düşüb acığa...
Vallah,
Sizi qırxdıracam,
Sizdən mənə çıxmaz cığa.

*B*ibim

*Y*ekəlib, kökəlib bibim,
Çətin tərpədir özünü.
Deyirəm: “Arığla bir az”...
Mənə bərəldir gözünü.

*B*aba, qaç

–*A*y baba, gəlirəm atla,
Demirəm ha, zarafatla!
–Qarğı-qamışdır ki, atın!?
–Qarğı-qamış deyil... atdı.
–Bəs niyə kişnəmir?
–Hiiii... hi... hi...

*A*y baba

–*X*əbərin var, ay baba,
Küləklə dost olmuşam?!
Papağımı başımdan
Götürüb aparmadı!
–Nə deyirəm, ay bala,
Sağ olsun!

*A*y qar

*A*y qar, yaman gecikmisən,
Sən artıq qar deyilsən!
Yük kimi düşürsən yerə,
Bərəkət-bar deyilsən!
Yağırsan, – kimə xeyrin var,
Torpağa var deyilsən?!

*D*əniz

*D*əniz dalğalanır ki,
Balıqlar darıxmasın, –
Bezib sakit sulardan,
Çay yuxarı qalxmasın.





*B*ahar

*E*vimizin damında qar qalmadı –
Yağdı getdi, –
Boz buludlar qalmadı.
Bircə gündə gölə döndü gölməçə,
Beşcə gündə dizə çıxdı çöl-çəmən.

*B*iz də...

–*Q*ış yuxusuna gedib
Ayılar mağarada.
Biz də üşüyə-üşüyə
Məktəbə gedirik...

*A*y babalı

–*A*y babalı, bir bizə gəl,
Yollarına göz dikmişəm!
–Ay Anarım,
Yaz gecikib,
Mən də bir az gecikmişəm.
Gözüm üstdə olsun gərək,
Torpağa toxum əkmişəm!

*Q*ar... külək... ağaclar...

*Q*ar elə yağır ki, elə,
Deyirsən, əriyən deyil.
Külək elə əsir, sanki
Dayanıb, kiriyən deyil.
Çıl-çılpaq ağaclara bax,
–Diriyəm-diriyəm, – deyir.

*Q*uş

*N*əzrinin əlinə
Arı qonmuşdu,
Çığırdı: “Baxın ey,
Nə gözəl quşdu!”

*B*u nədi

– *B*u nədi, Qəşəmşəm,
Bir tay ayaqqabın
Günçıxana baxır,
Bir tayı da Günbatana...
–Yol gəlib yorulublar,
Qoy dincəlsinlər, ana!





*Q*ış

*Y*ağdı...
Amma yağış yağdı,
Yağammadı qarı – qış.
Qar üzünə həsrət qoydu
Bu il uşaqları qış.

*T*ənbəl

*Y*astıq başımı sığallayır,
Yorğan bədənimi.
İkisinin də fikri
Yatırmaqdı məni.

*H*esab dərsi

– *Ə*llərin neçədir, Şəmşəm?
–Yəqin ki,
İki...
–Ayağın neçədir, Şəmşəm?
–Dörd.
–At olmusan?!
–İməkləyirəm.

*A*nam...

*A*nam deyir: “Yaz gəlib,
Qazları salma hinə”.
Atam deyir: “Bir azdan
Dağlara düşər binə”.
Babam deyir: “Vaxtdı, day
Çıxmaq olar səpinə”.

*D*ovşan

*B*abam başımı qırxıb,
Dovşana tay edib məni, –
Qulaqlarım çöldə qalıb.

*K*üləyi eşidirsən, baba

*S*əhərin gözü açılandan
İçini çəkir külək – fıyyy...
–Nə olub, Qəşəmşəm,
Fikrə getmisən?!
–Küləyi eşidirsən, baba?!
–Nədi ki?
–Üşüyür...





*S*aat

–*B*u saat niyə ağır işləyir?
–“Ağır” nəyə deyirsən?
–Boyum uzanmır axı!

*Ş*əmşəmin evi

–*N*ə fikrə getmisən,
Şəmşəm?
–Evimi uçurtdun, ana!
–Evin hanı?!
–Fikrimdə tikmişdim.

*B*ala sərçə

*A*lma ağacının
Alt budağından atılıb,
Düşdü üst budağa,
Ordan da yan budağa:
–Dinclik yoxdu ki, mənə,
Gah o dağa
Uçub qonuram,
Gah bu dağa!

*B*iz niyə kasıbıq

–*A*y nənə,
Biz niyə kasıbıq,
Ay nənə, –
Bir gün tapıb yeyəndə,
Üç gün ac qalırıq?!

–Biz niyə, ay bala,
Millət kasıbdı?!
–Millət nədi, ay nənə?
–Beş-on nəfərdən yana –
Hamı!

İki qohum

–*A*y babalı, küləklə sən,
Yaxın qohumsan, deyəsən?!
–Hansı küləklə, ay bala?!
–Lap elə Xəzriylə deyək!
–Bakılı deyilik məgər?!
–Mən də bilirdim elədi.
–Nədən bilirdin, ay bala?!
–Tez-tez əsib-coşmağından?!





*B*udağ və küləkBudağ

Gövdədən qopub,
Tappadan dəydi yerə:
–Anaaa!
–Sənə demədim,
Küləklə oynama!

*M*ən

–*M*ən kiməm?
–Şəmşəm.
–Şəmşəm nədir?
–Şəm.[7]
–Şəm nə?
–Qəşəmdi.
–Qəşəm nə?!
–Ayaqları – kürsüdü,
Barmaqları –
Qarışqa sürüsüdü,
–Gözləri –
Ağ balıq kürüsüdü.

[7] *Şəm – şam.*

Şirni-quş

Yeyib şirni-quşunu,
Zeynəb ağladı birdən.
–Nə oldu, Zeynəb, sənə,
Niyə ağlayırsan, hə?

–Ağzıma hirslənmişəm,
Yaman acgözdü ağzım!
Yedi şirni-quşumu,
Yox oldu birdən yazıq!

Üç dost

Üç dostuq bir otaqda, –
Qələm, Pozan, bir də mən...
Lovğalıq eyləmirəm,
Güclüyəm hər birindən.

Qələmim nə bilir ki? –
Yazmağı bilir ancaq.
Pozanım nə bilir ki? –
Pozmağı bilir ancaq.
Mənsə hər ikisini.





*H*anı

–*A*y baba, saçların hanı?
–Başındakı saç nədi bəs?!
–Ay baba, dişlərin hanı?
– Ağzındakı diş nədi bəs?!

–Ayağının gücü hanı?
–Yollarda, izlərdə qalıb.
–Bəs canın, ürəyin necə?!
–Söhbətdə, sözlərdə qalıb.

*N*ə xəbərdi...

–***Q***əşəmşəm, neyləyirsən,
Dərsini öyrənmisən?!
–Ay baba, nə xəbərdi,
Yeməyimi yeyirəm?!

–Həəə...
Nə oldu, ay bala,
Yəqin yeyib doymusan?!
–Ay baba, nə xəbərdi,
Həzm eləyirəm?!

*B*abamın dünyası

*G*ecənin
Hansı vaxtı oyansa,
Pərdəni çəkib,
Çölə baxır babam.
–Neylədindi, baba?!
–Baxıram, görüm,
Dünya yerindədimi!

*Z*əif

–*M*əktəbimiz çox zəifdi,
Ata!
–Zəif nəyə deyirsən?
–Uşaqlar dərsdən qaçır.

*B*otanika bağında

*Q*abağımdan tülkü keçdi,
Qovdum tutam,
Tutammadım.
Necə hirsləndimsə, gecə
Səhərəcən yatammadım!





Nənəm

Nənəm təkdi kəndimizdə,
Üçcə göz otaqda tək –
Qapısında təndiri,
Süfrəsində – duz-çörək.

–Allaha oxşamışam, –
Deyir ki, – son çağımda –
O da Təkdi, mən də – tək
Dünyanın qucağında.

Yaz gəlir

Yaz çıxıb qışdan, gəlir,
Qardan,
Yağışdan gəlir,
Torpaqdan, daşdan gəlir,
Yaz gəlir.

Arı düşür dalıyca,
Gül bitirir balıyca,
Kəpənəyin xalıyca
Yaz gəlir.

Əllərimiz

Bu,
Babamın əlidi, –
Palıd qabığı kimi.
Bu,
Atamın əlidi, –
Alma budağı kimi.
Bu da
Mənim əlimdi, –
Kərə yağı kimi.

Zeynəbin şikayəti

Atamın bərkdi qucağı,
Babamın qucağı yumşaq.
Qardaşım paxıllıq edir:
–Düş yerə ordan,
Ay uşaq!

–Niyə düşüm?
–Düş deyirəm!
–Düşüm,
Sən gəlib minəsən?!





*S*ərçənin arzusu

*S*ərçə atılıb-düşüb,
Təpikləyir təpəni.
–Nə yemisən, sərçəcik,
Qızışdırıbdır səni?!

–Arzu eyləmişəm ki, –
Vurub dağıdım bu dağı.
Yerində salım tut bağı.
Gecəni gündüz eləyim,
Yeyib-içib,
Ömrümü yüz eləyim.

*V*edrə və ayı

*V*edrə yırtıldı getdi,
Atdılar pəncərədən.
Bunu görüb bir Ayı,
Çıxıb gəldi dərədən.

Kefdəyik də, gün batıb,
İşlər bütün xarabdı, –
Hava qaralan kimi
Tappatap-tap-tarapdı.

*A*y ata

–*Y*az gələndən çöldəsən,
Yuxun da yox doyunca,
Ay ata, belə olmaz,
Özünü üzmə bunca!

–Əkin-dirrik çağıdır,
Nə əkdin, –
O, sənindi.
Yaxşı əkinçi, oğlum,
Evdə yatmayır indi!

*T*oplan və sərçə

–***A*** sərçə cik-cik,
Buyur, qonaq ol!
–Yox, yox, istəməz,
Doymuşam, sağ ol!

–Əldən qapardı
Dişim dəyəni,
Tut çıxıb deyə,
Bəyənmir məni!





Yuxu

*D*ovşanın
Dovşan yuxusu var,–
Kələm görür, kök görür.
Şirin şir yuxusu var,–
Ovunu kök görür.
Qarışqa nə görsə,
Özündən böyük görür.

Pəncərədən baxıram

*A*nam da gedib işə,
Atam da gedib işə,
Nənəmin də qarışıb
Başı biş-düşə.
Pəncərədən baxıram –
Darıxıram...

Gəzir...

*A*rılar gül üstə gəzir,
Mığmığlar xəstə gəzir.

Çiskin

–Yağış yağıb...
–Yağış nədi, çiskindi bu?!
–Çiskin yağış deyil?
–Deyil!
–Nədir ki, bəs?
–Su dumanı –
Yağmağa yoxdur gümanı!

Mübarək

–Ay ana, hey, mübarək!
–Ay bala, nə?
–Başmağın!

–Ay nənə, hey, mübarək!
–Ay bala, nə?
–Yaşmağın!

–Ay baba, hey, mübarək!
–Ay bala, nə?
–Coşmağın!





Zeynəb və milçəklər

Qardaşım
Qəşəmşəm mənə:
“Zeynəb – şirin qızdı” deyir,
Milçəklər eşidib gəlib,
Elə bilib yeməliyəm,
O ki, var məni dişləyib.–
Qırmızı turpa dönmüşəm!

Əl dedi

Sağ əlini sinəsi boyu
Qaldırdı Qəşəmşəm:
–Yaman yordum səni!
–Gecə yatanda, – əl dedi–
Ürəyinin üstünə qoyarsan, –
Məni, – bəsimdi.

Qarışqa

Qarışqa çıxıb yarışa,
Qaçıb gedir üzü qışa.

Gecə

Biz yıxılıb yatırıq,
Yazıq gecə tək qalır.
Darıxmayır, görəsən,
Qorxmayır, görəsən?!

*Q*onaq

Zeynəb

Tez-tez qonaq gedir
Babasını yoluxmağa, –
Saçlarının ağına,
Bığlarının adda-budda
Qarasına baxmağa.

*L*eyləklər

Payız elə gizli gəlib,
Yuvasını boş qoyub leyləklər,
Tez-tələsik uçublar,
Sərçəyə
“Gözün üstündə olsun, balaca!”
Deməyi də unudublar.





İldırım

–Nə yaxşı ki,
Evimiz var, ata,
Yoxsa başımıza
Düşərdi ildırım!

Sanki

Boz bulud – narın yağış,
Qara Bulud – şıdırğı...
Sanki sərçə sürüsünə
Şığıyır dəstə qırğı.

Zeynəb

Zeynəb bizə gələn kimi
Süpürgədən yapışır...
–Neylədiyindi, ay bala?
–Belə ev olar, baba,
Zir-zibil aşıb-daşır?!

Babam - nənəm, atam - anam, bir də mən



*B*abamın yaşı

–*N*eçə yaşın var, çinar?
–Köklərimdən soruş, gəl!
–Ay çinarın kökləri,
Siz bilərsiniz məgər?

–Biz nə deyək, yaxşısı
Tap beli,
Beldən soruş.
–Ay bel, sən nə deyirsən?
–Tap əli,
Əldən soruş.

Tapdım əli...
Buy, bu ki,
Babamın əlləriymiş!
Çinarın başı üstə
Bir əsrin illəriymiş!





*Q*oy Allahdan soruşsun

–*N*amaz qılırsan, baba?!
–Allahü Əkbər!..
–Məni də öyrət...
–Allahü Əkbər!..

–Bu kişiyə nə olub,
Cavab vermir mənə heç?!
–Baban Allahla danışır,
Mane olma, belə keç!

–Allahla danışır babam?!
Ay nənə, de, soruşsun,
Niyə Abdul babamı
Cavan öldürüb Allah?!

*B*abamın evi

*B*abamın evi var şəhərdə,
Qapısı açılar səhərdən.
Gələn kim, gedən kim, qalan kim –
Poçtalyon, süd satan və həkim.
Özgənin evidir elə bil,
Babamın evisə heç deyil!
Bir qonşu gəlib çay aparır,
Biri də qənd, bıçaq aparır.
Birisi çörəyə çatmayıb,
Biri lap darıxır, yatmayıb.
Evində görərsən hamını,
Kim bilmir duzunun tamını?!
–Oğru bəs gələrsə – deyirəm–
Ay kişi, neylərsən?! – deyirəm.
–Qorxma sən, açıqsa qapılar,
Kilidli qapılar çapılar!
Babamın evi var şəhərdə,
Qapısı açıqdır səhərdən.





*B*abamın varı

*B*abamın miniyi atdı,
Oylağı eldi-elatdı.

Yaylağı var Şahdağında,
Qışlağı – Kür qırağında...

Qoyunları sürü-sürü
Yalı-yamacı götürüb.

Onun varı – elin varı,
Əkiz doğar hər doğarı.

Qəhrəmandı, tanı babam,
Yurdumun çobanı babam.

*D*ostumun babası

*B*ir babası var – xəsis,
Bağında nə yol, nə iz...
Qaratikan koludur
Dörd tərəfi bağının.
Qoruyur çiçəyini,
Gülünü, yarpağını.

Sərçə səksə, inan ki,
Bircə anda sıpçınıb[8],
Vurub daşla, kəsəklə
Sındıracaq qıçını.

Külək qalxıb, yel əssə,
Ürəyinə xal düşər.
Əlacı olsa, bəlkə
Buludlarla döyüşər.

Deyirik ki, ay kişi,
Hərənin öz payı var...

[8] ***Sıpçınmaq – sıçramaq***





Deyir:
–Keçməz, deməli,
Mən becərim, sən apar?!

Sonra mülayimləşər:
–Balalarım, dəyməyin,
Hələ göydü, səfradı –
Öd kimidi, dəyməyib.

Bir babadır, lap xəsis,
Bağında nə yol, nə iz...

*Y*oxsa...

Hamı babadan qoçaq
Mənim babamdır ancaq!

Qolları var – tunc kimi,
Dəryazı – qılınc kimi.

Danışar – üzü gülər,
Bircə hovur mürgülər.

Oyanar səhər-səhər,
Quşdan erkən hər səhər.

Ot çalar xotma-xotma,
Yoruldum da deməz day.

Söz desən, tez anlayar,
Nə küsər, nə danlayar.

Yoxsa ki, day kim kimi,
Mənim də nənəm kimi?!





*B*abam cinlərin toyunda

*B*abamın bir söhbəti
Yadıma düşdü birdən:
–Yay gecəsiydi,
Bala,
Gəlirdim Kürdəmirdən.

Göz-gözü görmürdü ki,
Baxasan, – necə yoldu.
Muradxandan keçəndə
Diksinən kimi oldum!

Dörd yanım da kövşəndi[9],
Nəsə birdən üşəndim[10].

Qəfil qoca bir qarı
Tutdu atın yalından.
İt tək zingildəyirdi
Bir uşaq da dalında.

---

[9] Kövşən – taxılı biçilmiş yer.
[10] Üşənmək – diksinib-qorxmaq.

Düzdü, danışırdı o,
Görməyirdim başını.
Hiss edirdim üzümdə
Onun qurd baxışını!

–Ay oğul, toyumuz var,
Duş, əyləş, çörək kəsək.
Dedim, vallah, darıxar
Anam, – indi getməsəm!

–Yox ey, hara gedirsən,
Adətimizdi, oğlum?!
Düş, əyləş, çörək kəsək,
Nəyimiz pisdi, oğlum?!

Qır-saqqız oldu, axır
Məni saldı yəhərdən.
Atı çəkib bağladım,
Bimirəm, nə təhər mən!

Bir yanda vur-çatlasın,
Tar susur, saz dinirdi.
Bir yanda aş buğlanır,
Kabab tüstülənirdi.





Məni zorla çəkdilər
Məclisin gur yerinə.
Baxdım, – iştaha gəldim,
Kabab tikələrinə!

“Bismillah!” deyə birdən
Əl uzatdım kababa.
Vay, bu nədi, İlahi...
Adamlar necoldu ba?..

Necə yıxılmışamsa,
Getmişəm lap özümdən.
Birdən isti bir nəfəs
Hiss elədim üzümdə.

Bir azca qurcalandım,
Göz açdım... – səhər idi.
Başım üstə dayanan
Baxdım ki, kəhərimdi[11].

Tez belinə sıçrayıb,
Çapdım Xəlsəyəcən düz.

[11] ***Kəhər – açıq-şabalıdı rəngdə at.***

Rahatlığım olmadı
Bircə ay gecə-gündüz.

Biri dedi, qorxmusan,
Ya da at yıxıb səni!
Biri dedi, cin imiş,
Sevin, buraxıb səni!

Qəlbində insanlara
Sonsuz kin olacaqdı.
Bir tikə ət yesəydin,
Dönüb cin olacaqdın!





*N*ənəmlə dost olmuşam

*N*ənəmlə dost olmuşam,
Babam bilməyir ancaq.
Mən ona “can!” deyirəm,
O da mənə deyir “can!”.

–Canım-gözüm, “can” nədi,
Qarın doymaz ki, “can”dan!
Mən bişirib-düşürüm,
Sən də döşə bu yandan.

Toyuğun döş ətini
Atır mənim qabıma.
Babam öz kasasında
Ha gəzir, tapmayır, a…

–Arvad, döş ətini ver,
Ağzım ləzzətli olsun!
–A kişi, erkəkdi bu,
Döş əti ətli olsun?!

Odur, yağlı başı var,
Vermişəm, çək dişinə!

Vallah, çaşıb qalmışam,
Qoca, sənin işinə!

Nə var belə, səhərdən
Döş əti, bud deyirsən?!
Olma mənim nəvəmə
Paxıllıq eləyirsən?!

Babam “Bismillah!” deyib,
Qaşığını götürür.
Yeyib: “İlahi, şükür!”–
Dərindən köks ötürür!

Sonra da şaqqa-şuqla
Təsbehini çevirir.
Nənəm göz vurur:
–Bax ey, dostuma! –
Acıq verir!

Nənəmlə dost olmuşam,
Babam bilməyir ancaq.
Mən ona “can!” deyirəm,
O da mənə deyir “can!”.





“*Q*ızıl”

Babam “Qızıl” inəyi
Yedəkləyib, dedi:
–Sür!
Özgənin qismətiymiş,
Bala, “Qızıl”, görünür.

–Bazar olsun, ay kişi! –
Nənəm daldan su atdı.
Gün təzə çırtlayanda
Mal bazarına çatdıq.

Bir yanda mübahisə,
Bir yanda şit zarafat,
Bir yanda mal böyürür,
Bir yanda kişnəyir at.

Biri camış gətirib
Buynuzu dibdən sınıq.
Çəp dəllal yerə döyür
Qəzəblə əsasını!

Biri topal ulağı
Al qırmızı çullayıb.
Tükü tökülmüş qoçu
Biri bərk sığallayır.

Qarabağ atlarına
Yedirirlər kişmişi.
Birdən bizə yan aldı
Bığı burma bir kişi:

–Düz bir ildi süd deyir,
Yağ deyir arvad mənə.
Ağsaqqal,
Xeyirləşək,
Bu inəyi sat mənə!

–Ürəyində qoymasın
Allah arzunu, qardaş!
İnək qurbandı sənə,
Minciyəzin ola kaş!

–Əşşi, qoy oturmuşuq,
Bunun minlik nəyi var?!





Nə yaxşı yaraşığı,
Nə yaxşı bəzəyi var!

Buna diş qoydurmağa
Pul hanı, görmürmüsən?!
Mırığ olub getmişəm,
“A” da deyəmmirəm mən!

Budu bunun yelini[12],
Bir əlcə çəndirdi ki[13]?!
Dədəm vay!
Quyruğa bax,
Çürümüş kəndirdi ki!

Böyrü-böyründən keçir,
Çıxıb cərgə-ceyindən.
Bircə ay da sığasan,
Süd çıxmaz əmcəyindən!

Qarğa da xəlvətləyib,
Belinə bir dağ salıb!

---

[12] ***Yelin –*** m***əməli heyvanlarda süd yığılan (süd vəziləri və məmələri yerləşən) orqan.***

[13] ***Çəndir – heyvanın qarın boşluğunun üstündəki əski parçası kimi ət***

Bu rəngdə keçə hanı,
Yerinə yamaq salım?!

Buynuzunu demirəm,
Şaxta vurmuş tağdı lap!
Görkəmi də, maşallah,
Xalis balqabaqdı lap!

Mən kefimdən almıram,
Nəyi var bu qocanın?!
Alıram ki, yazıqsan,
Kəsim, qurtarsın canın!

Şeşəbuynuz[14] inək ver,
Mincə manat pul verim!
Sənə də yaxşı düşməz,
Görən deyər “dul” verir!

–Xeyirləşək?
–Ya Allah!
–Altı yüz.
–Yüz çıx.

[14]Şeşəbuynuz – dikbuynuz, itibuynuz.





–Olsun!
–Ay ağsaqqal, gözün tox,
Alnın da açıq olsun!

Halalca qazanmışam,
Al bu pulları, sağ ye!
–Tut, – halal qazanmışam,
Ağız dadıyla sağ – ye.

Kişi inəyi tutdu:
–Gəl gedək, ceyranım, gəl!
–Bıy, – dedim, – ay kişi, bəs
“Qoca” deyirdin əvvəl?!

–Nə istəsəm, deyərəm,
Xətrimdi – xəyalımdı.
Bayaq alırdım, bala,
İndi halal malımdı!

*B*abamın ölümünə

*B*abamın aftavası
Düşüb hörmətdən yaman,–
Didərgin salınıbdır
Həyətdən, kənddən yaman.

Zənbili qət təzədi,
Əlinə götürən yox.
Malı qalıb arada,
Örüşə ötürən yox.

Dəryazını keçən yaz
Asdığıdı eləcə.
Güzəmini[15] yel didən
Yasdığıdı eləcə.

Pencəyi mıxdan düşüb,
Kürt düşüb üstdə fərə.
Papağını uşaqlar
Keçiriblər çəpərə.



[15] *Güzəm – yayın ikinci yarısında qoyundan qırxılan yun.*



Siçan yeyib çustunu[16],
Qaloşunu it cırıb...
Sözümü qoymur deyəm,
Məni boğur hıçqırıq.

Kişiyə çox görərdik
Çolpanın qənədini.[17]
Ağzım quruyaydı kaş,
Yeyəndə döş ətini!

Basırdım, doldururdum, –
Tutmurdu ovurdlarım.
Canıma çıxmayaydı
Hinduşkanın budları.

Ağlamaqdan quruyub
Nənəmin göz yaşları...
Elə səndən danışır,
Ay kişi,
Yoldaşların!

---

[16] ***Çust – keçmişdə dabansız, yüngül və gündəlik geyilən ayaqqabı.***
[17] ***Qənəd – "qanad" mənasında.***

Babamın aftavası
Düşüb hörmətdən yaman,–
Didərgin salınıbdır
Həyətdən,
Kənddən yaman.

Zənbili qət təzədi,
Əlinə götürən yox.
Malı qalıb arada,
Örüşə ötürən yox...





*S*ən gəl

*N*ənəm yazır:
–Gəl bizə!
–Gəlmərəm day, gəlmərəm!
–Burda qar çıxır dizə!
–Gəlmərəm day, gəlmərəm!

Xal salma ürəyimə,
Kimə deyirsən, kimə?!
Ay nənəli, incimə,
Gəlmərəm day, gəlmərəm!

Məni çox istəyirsən?!
Adıma “can!” deyirsən?!
Sən niyə gəlməyirsən?!
Gəlmərəm day, gəlmərəm!

*G*özün aydın

*A*y nənə, gözün aydın,
Yaxşı ötürdün qışı!
Ay nənə, gözün aydın,
Yelinləyib[18] camışın!

Toyuqların kürt düşüb,
Gözün aydın, ay nənə!
Əmim köçüb yurd düşüb,
Gözün aydın, ay nənə!

Beçələrin banlayır,
Özlərini tanıyıb!
Gəlin verər kəsməyə,
Yoxsa qoz tək sanıyıb?!

Deyir, it gətirmisən,
Həftədə bir yol hürür.
Qonaqlar da razıdır, –
Qapıyacan ötürür.



[18] Yelinləmək – boğaz olmaq, "hamilə" olmaq.



Nəvələrin yığışıb,
Saçlarından ağ çəkir.
Gözün aydın, ay nənə,
Söhbətindən yağ çəkir!

*A*y nənəli

*“A*y nənəli, hardasan,
Alma gətir, gəl bizə.
Ba-a-x, Bakıya gələndə,
Gələrsən əvvəl bizə!
Alça gətir, tut gətir,
Bir az da armud gətir.

Yorulub elərsən, ha,
Özünə vermə zəhmət,–
Nə gətirsən az gətir,
Hərəsindən bir səbət!

Gəlib Gilas nənəm də,
Haçandı ki, bizdədi.
Gəl, səni gözləyirəm,
Gözlərim yol üstədi.

Ay nənəli, hardasan,
Alma gətir, gəl bizə.
Ba-a-x, Bakıya gələndə
Gələrsən əvvəl bizə!





*N*ənə, mübarək olsun

*N*ənə, mübarək olsun,
Yetmişinə girmisən!
Nənə, gözlərin aydın,
Deyir, it gətirmisən!

Ayaq çəkər qapından
Qonşunun it-pişiyi.
Rahat aparar yuxu
Daha Elnur kişini.

Ağız dadıyla sağ ye,
Bala verib camışın!
Xeyirli olsun yazın,
Dalından dəydin qışın!

Göz dolusu görəsən, –
Nəvən məktəbə gedir.
Allaha şükür,
Nənə,
Armudun bar gətirib!

Ağacını əkəndə,
Yadımdadı dediyin:
“Nəvəm-nəticəm yeyər,
Bəsdi mənə yediyim!”.

Dananı da satmısan,
Pulunu çinlə saxla.
Bir şalvarlıq da mənə
Sandıq içində saxla!

Nənə, mübarək olsun,
Yetmişinə girmisən!
Sevin, ürəkdən sevin,
Ay günlər keçirtmisən!

Saçlarına həna qoy,
Bilinməsin ağlığı!
Bircə istəyimiz var, –
O da ki, can sağlığın!





*N*ənəyə məktub

*S*ənə məktub yazıram,
Oturmuşam, gecədi.–
Nə var, nə yox,
Ay nənə,
Kefin-halın necədi?

Qaranquşlar gəlibmi,
Kür necə, daşmayır ki?!
Elnur əmoğlu qızıb,
Coşub dalaşmayır ki?!

Cuqqu dostum neyləyir,
İncitmir ki, babamı?!
Yerişini, işini
Tərif edirmi hamı?

Görən məni görəndə,
Tanıya biləcəkmi?!
Şıllaq atıb, anqırıb,
Yanıma gələcəkmi?!

O leylək ki, daşladıq,
Uçub getdi, ay nənə!
İndi də fikri-zikri
Dinclik verməyir mənə!

Toplanım nə yeyirsə,
Ver yesin, incitmə gəl,
Kişi kimi söz verib –
Hürəcək axır-əvvəl!

Camış çox anqırırdı,
Tapdımı öz ərini?
Qırt toyuq böyütdümü
Körpə cücələrini?

Babam küsürmü yenə,
Uşaq kimi payından,
Gecə yer istəyirmi,
Ay nənə, çarpayından?!

Həkim babam Rəcəbin
Cibləri aptekdimi?!
Ay nənə,





Şura xala
İndiyəcən təkdimi?!

Şəmi ov eləyirmi,
Paşa bostan əkibmi?!
Bələdiyyə Xəlsəyə
Şose yolu çəkibmi?!

Sənə məktub yazıram,
Oturmuşam, gecədi,
Nə var, nə yox,
Nənə can,
Kefin-halın necədi?!

*N*ənəmin cavabı

*O*ğul bala,
Necəsən,
Kefin-halın necədi?!
Sən görən cücələrim
İndi xoruz-beçədi!

Baban çolpa kəsdirir,
Yeməyir döş ətini.
Deyir,
Anar aparıb
Ağzımın ləzzətini!

Yazın, tətilə gəlsin,
Verək yenə baş-başa, –
Yay günü samovara
Dəm tutaq – xoruldaşaq.

Bellədiyin torpağı
İkiləyibdir əmin.
Bu il bara düşübdür
Sancdığın nar qələmi!





Bibin çal-çəpər çəkib,
İplə bərk-bərk sarıdı.
Tapşırdı: “Əl vurmayın,
Anarın nübarıdı!”

Əkdiyin söyüdlərin
Hərəsi bir ağacdı…
Ay bala, bu Toplanın
Ha yeyir, yenə acdı!

Leləyin də qayıtdı,
Gəldi öz yuvasına…
Şəmi də ov eyləyir,
Bala, əlhavasına!

Cuqqu dostun, maşallah,
Bir yekə eşşək olub…
Gözün aydın, Xəlsəyə
Çəkilib şose yolu.

Quşəppəyi, cincilim,
Yemlik, qanqal çıxıb, gəl!
Gəl, nənə qurban sənə,
Nənə bərk darıxıb, gəl!

*B*ülbül – oyuncaq

*–N*ənə, bülbül almışam,
Gör nə kiçikdir, kiçik.
İstəyirsən oxudum –
Cik... cik... cik...

Elə bilir ki, yazdı,
Hey oxuyur həvəslə.
Qəfəsə salmıram ki,
Darıxar dar qəfəsdə.

Çörəyi dimdikləyir,
İçir şirin çayımdan.
Gecə –
Mənimlə birgə
Yatır da çarpayımda.

Üzüm yeyib, gözləri,
Görürsən, nə qaradı?!
Bibim deyir:
–Ver mənə!
Vermərəm... nə karadı.





Qovmuşam qapımızdan
Qızılpipik xoruzu.
Amma balaca məstan
Məni yaman qorxuzur!

Nənə, bülbülümə bax,
Gör nə kiçikdir, kiçik.
İstəyirsən oxudum –
Cik... cik... cik...

*M*ənimdir nənə

–*A*y ata, sən bir
Bunlara bax, bax,
Gülməyim gəlir, –
Uşaq ki, uşaq!

Bu deyir ki, bəs
Nənə mənimdir!
O da deyir:
–Kəs,
Nənə mənimdir!

Soruş, görübmü
Bir işi onlar?!
Çil xoruz kimi
Döyüşür onlar!

Batıb qan-tərə
Hirslə, acıqla,
İndi pişik tək
Tutaşacaqlar!





Ola bilmərəm
Mən onlara tay,
Mənimdir nənə,
Sən də bil, ata!

*N*ənəm...

*N*ənəm deyir:
–Bir yığın
İşi-gücü var yazın...
Atam beli saplayır,
Dayım döyür dəryazı.

Nal kəsir,
Nal düzəldir
Qardaşım Tofiq ata,
Çöl qalxıb adam boyu,
Biçilmək istəyir day!

İkiləyin torpağı[19],
Dayanmayaq boş-bekar...
Yer əkilmək istəyir,
Gəlin gedək, adamlar!



[19] ***İkiləyin torpağı – ikincə dəfə belləyin deməkdi.***



İnanma

Mən tərsəm, desə,
Nəvəm də şərdi...
İnanma,
Nənəm
Dəymə-düşərdi.

Anam deyinsə:
– Yağış yağacaq...
Nənəm özünə
Götürür ancaq.

–Demək sonra da
Ev bulanacaq?!
Qonaqsa getmək
Bilməyir ancaq?!

Hirslənər, coşar,
Kükrəyər, qızar:
–Getməyəcəm lap
Acığınıza!

Görürsən nə tərs,
Necə də şərdi...
Özü məndən də
Dəymə-düşərdi.





*N*ənəmgilə gəlmişəm

*N*ənəmgilə gəlmişəm,
Yaman sevinir arvad.
Deyir:
–Ay gül-bənövşə,
Siz də açın qol-qanad!

Bibim qızı Xəlsədə
Qalıb, dincəlir bu yay.
Hələ dedim, gəlsənə,
Mənlə gedək Qubaya.

Nənəmin bir bağı var,
Boldu tutu, ənciri.
İçində çardağı var,
Gəl, uzan, al dincini!

Yaxşı nənədir nənəm,
Amma hirslənir hərdən, –
İcazə vermir mənə,
Gedim gəzim şəhərdə.

Deyir, nə bağ, nə meşə,
Otur – bura döşənib!
Qoymur gedəm Qəçreşə,
Gəzim Qızbənövşəni!

Desəm, məni gəl burax...
Deyər, düşmədik işə?!
Elə bil ki, mən bura
Oturmağa gəlmişəm!





A çil xoruz…

A çil xoruz, bəsdi day,
Bəsdi saldın hay-haray.
Sən də bil ey, gəlsənə,
Nənəm gəlib Xəlsədən!

Anam yer salıb yatır,
Yaman yorulub arvad.
Məni çağırdı:
–Anar,
Bala, gəl qucumda yat.

Nənəm yatır yataqda,
Oturmuşam mən ancaq.
Öpürəm üz-gözündən,
Görən haçan duracaq?!

*N*ənəmin əlləri

*N*ənəmin əlləri –
Quru... bar ağacı,
Çiçəyə bürüyər
Ərişi, arğacı[20].

Darayı[21] darayır,
Toxuyur kirgidi –
Bu – dəvə, bu – cüyür...
Bu da ki, kirpidi.

Rəngbərəng gülləri
Kilimə vurur o.
Bir anda gör neçə
İlmə vurur o.

Bir nənəm var mənim,
Əli – bar ağacı –
Daş üstə ot olur,
İp üstə gül açır.



---

[20]Əriş, arğac – xalça, palaz toxumaq üçün hanada hündürünə və eninə iplər çəkilir. Hündürə çəkilən ip əriş, enə çəkilən arğac adlanır.
[21] Üzü qeyri-şəffaf... parça.



*A*nam

Anam təzə don geyib,
Hörüb saçını təzə.
Ay ata, bax, anama,
Gör nə yaraşır bəzək?!

Aralı dur, ay kişi,
Saçına əl vurma, gəl!
Qoy bir öpüm-oxşayım
Özüm hamıdan əvvəl!

Al bu da gözmuncuğu,
Ay mehriban, ay əziz!
Yoxsa sənə göz dəyər,
Neyləyərik onda biz?!

*O*t çalır atam

*O*t çalır atam,
Xotmalayıram.
Seçib,
Ayırıb,
Gül toplayıram.

Bir-bir yığmışam,
Bircə qucaqdı.
Anam neçə gün
Saxlayacaqdır.

Yaz otlarında
Torpaq ətri var,
Bir çəngəsindən
Bir quzu doyar.

Ot çalır atam,
Xotmalayıram.
Seçib,
Ayırıb,
Gül toplayıram.





Yazıq gül-çiçək,
Necə ki, sağdı.
Çöl otlarıyçün
Darıxacaqdır!

Əmim qızı

Əmim qızını
Görürsən, nənə,
Oturub-durub
Sataşır mənə?!

Sən də eşit, bil,
Sən də dayı,
Hey,
Kimi görürsə,
Pıçıldayır hey!

Əmdostum gəlir –
Pıç-pıç-pıç-pıç-pıç...
Həm dostum gəlir –
Pıç-pıç-pıç-pıç-pıç...

Məni görəndə
Küncə qısılıb,
O an da kəsir
Pıçıltısını.





Deyirəm, ay qız,
Neyləmişəm mən,
Sənə yamanlıq
Eyləmişəm mən?!

Nə olar, nənə,
De, bu nə işdi,
Bərkdən danışsın,
Mən də eşidim?!

*B*ir az insafın olsun

–*A*y balamın balası,
Gün də gözünə düşdü,
Xoruzlar da verdi ban,
Durmaq vaxtı yetişdi.

–Ay anamın anası,
Bir az insafın olsun,
Qoy səni qucaqlayıb,
Körpə nəvən uyusun!

–Ay oğlum, sünbül oğlum,
Durdu Paşa,
Bahadur...
Dərsə gecikərsən, ha,
Sən də bir ayağa dur!

–Ay anam, ay mehriban,
Bir az insafın olsun,
Qoy sığınıb köksünə,
Körpə balan uyusun!





–Qoca pişiyimiz də
Durdu, yoxdu xəbərin.
Oyan,
Kişi qırığı,
Oyan, qoçaq əsgərim!

–Ay atam, ay sevdiyim,
Bir az insafın olsun,
Qoy sənin də yanında
Oğul balan uyusun!

Gün günorta olanda,
Durdu yuxudan Eldar,–
Gecikmişdi...
Ağladı...
Deyin, kimdi günahkar?!

*Ş*axqulaq[22]

*İ*ncimişəm, küsmüşəm,
Barışmaram daha mən, –
Anam gedib tarlaya,
Qalmışam tək-tənha mən!

Pəncərəni örtmüşəm,
Bağlamışam qapını,
Oxuyuram bacımın
Şəkilli kitabını!

Qulağıma səs dəyir,
Boylanıram səsə hey.
Qapımızı səhərdən
Cırmaqlayır nəsə hey!

Nənəm acıqlanardı
Bacıma ki, bura bax,
Bir də küssən, çağırram,
Səni yeyər Şaxqulaq!



[22] ***Şaxqulaq – canavar***



Uzanıram yatmağa,
Yuxum gəlməyir nəsə.
Birdən gəldi Şaxqulaq,
Neyləyərəm, görəsən?!

*H*amı getdi gəzməyə

*N*ə olsun ki,
Ay xala,
Hər nə desəm var evdə,
Hamı getdi gəzməyə,
Məni qoydular evdə!

Durub baxırdım indi
Kür boyu yal-yamaca.
Getdi qonağımız da,
Darıxıram yamanca!

Qaz yanır, çay dəmdədir,
Qızdırılıb payım da.
Yatmaq istəsəm əgər,
Hazırdı çarpayım da.

Toyuqlar qaqqıldaşır,
Xoruz banlayır hərdən.
Qonşuda bir pişik də
Miyoldayır səhərdən!





“Sus!” demişəm, susmayıb,
Bayaqdan min yol azı!
Görünür mənim kimi
Tək qalıbdır o yazıq!

Nə olsun ki,
Ay xala,
Hər nə desəm var evdə,
Hamı getdi gəzməyə,
Məni qoydular evdə!

*U*şağam-nəyəm...

*U*şağam, mənə
Yol göstərir, yol,
Elə hey deyir:
“Ehtiyatlı ol!”.

Verməz qonşuya
Aparım qabı,
Deyər: “Bulanar
Ağ ayaqqabın!”.

Bir təzə paltar
Alıb – bəyənsəm,
Min yol tapşırar
Bir yol geyinsəm:

–Bağçada çoxdur
Qaratikan – kol,
Qələmə[23] vermə,
Ehtiyatlı ol.

[23] ***Qələm – burda “tikan” mənasında***





Axır ki, mənə
Ürəyi qızıb,
Dedi:
–Al, apar
Evə qarpızı!

Amma tapşırıq
Verdi də bol-bol:
–Sındırarsan, ha,
Ehtiyatlı ol!

Yolda ayağım
Toxundu daşa,
Qarpızla o daş
Gəldi baş-başa.

Dedim, neyləyim,
Düşdü qırıldı,
Dar bir dalandan
Tez aşırıldı.

Məni min dəfə
Danladı azı:

–De, “dalan” nədi?!
Dedim:
–Boğazım!”.

Uşağam, mənə
Yol göstərir, yol,
Elə hey deyir:
“Ehtiyatlı ol!”.





*A*vtobusda

*Ə*mi yerini verdi
Məni görən tək durub...
–Ay əmisi, əyləşin,
Uşaq deyil, oddu bu!

–Bu nə sözdü, deyirsən,
Nə olsun ki, anacan,
Oynayıram, qaçıram
Səhərdən axşamacan!

Avtobus ki, ev deyil,
Heç yana çatmır əlim,
Əmi yer verib mənə,
Sağ olsun, qoy dincəlim!

Yatmaq deyil Şəmşəminki



*Y*atmaq deyil Şəmşəminki

*Y*atmaq deyil Şəmşəminki,
Yuxuyla oynamaqdı.
Haçan görürsən ki, yatır...
Baxırsan ki...
Oyaqdı.

Kəşf eləyibdir yuxunun
Qaydasını – çəmini, –
Gah Şəmşəm minir yorğanı,
Gah yorğan Şəmşəmini.

Biz bilirik balınc olar
Baş altda, – hər yanda biz.
Ayağı altda görürük
Şəmşəmin, – yatanda biz.

Bir də baxırsan ki, qoçaq
Göz-qulaqdan yayınıb...–
Görürsən xorultu gəlir
Altından çarpayının.





Yatmaq deyil Şəmşəminki,
Yuxuyla oynamaqdı.
Haçan görürsən ki, yatır...
Baxırsan ki...
Oyaqdı.

*Q*onşumuz

*G*örmür elə bil,
Yoxdu xəbəri,
Oynayır, gülür,
Səhərdən bəri.

–Bəsdi, – deyirəm, –
Dərsini öyrən!
Deyir:
–Get, bala,
Özünə öyrət!

Bir də sözümü
Qoyma ağızda.
Top atıram lap
Otağımızda!..

Gülür, danışır,
Kəsib kirimir...
Dərs oxuyuram,
Başıma girmir.





*S*amur at minir

*İ*şində ayıqdı Samur,
Axşamdan çullayıb[24] atı.
Səfər edəcək deyəsən,
Yemləyib, sulayıb atı.

Bir tikə də özü yedi,
Sonra da “tərpənim!” dedi.

Açıb gətirdi kəhəri,
Belinə qoydu yəhəri.

Quşqunu[25] yerindən aldı,
Tez atın başına saldı.

Yüyəni qapdı götürdü,
Quyruq altına ötürdü.

Tapqırı[26] astaca çəkdi,
Atın qarnını sıxmasın.

---

[24] Çul – at, ulağ və s. belinə salınan qıl və ya yundan toxunuş örtük.
[25] Quşqun – yəhərə birləşik, atın quyruğunun altına keçirilən qayış.
[26] Tapqır – yəhərə birləşik, atın qarnı altından keçən qayış.

Düyünlədi yal-birçəyin,
Toz-torpaq dizə çıxmasın!

Minib şax dayandı atda,
Baxırsan, – kefi yüzdədi.
Döşəkcə – yəhərin altda,
Tərlik[27] – yəhərin üstədi.

Qırmanc çəkdi, kəhər çaşdı,
Quşqun düşdü, yəhər aşdı.

At götrülüb bayaq getdi,
Dördəmə – dördayaq getdi.

Fikrə-xəyala dalmışam,
Axı yəhərdəydi Samur.

Lap düzü çaşıb qalmışam,
Yəhərdə...
Yerdəydi Samur?!



[27] ***Tərlik – yəhərin altından atın belinə qoyulan keçə (keçə – yunu döyüb basmaqla hazırlanan sıx qalın parça).***



*T*ərləmə ha, tərləmə[28]

*A*y mənim tərlan, balam,
Gəl bizi salma qəmə,–
Sənə göz dikmişik biz,
Tərləmə ha, tərləmə.

Qolunu asta yellə,
Addımını asta bas.
Tərləmə ha, tərləmə,
Bala,
Sən Həzrət Abbas!

Getmə hamamxanaya,
Budur aftafa-ləyən.
Bircə durma yerindən,
Yuyum əl-üzünü mən!

Çaydanı qaynatmışam,
Aşı vurmuşam dəmə.

---

[28] Bu mövzunu mənə hərb elmimizin böyük və yorulmaz tədqiqatçısı, yazıçı dostum Şəmistan Nəzirli verib.

Çənəni asta işlət,
Düyünü bərk çeynəmə!

Birdən ağzın ağrıyar,
Şax belimi əyərsən.
Dilim-ağzım qurusun,
Qəfildən tərləyərsən!

Mən səni böyütmüşəm
Güldən-çiçəkdən incə,–
Başıma daş düşəydi,
Bala, sən tərləyincə!





O

–O nədir?
–Ulduz.
–Ata, dər, yeyim.
–Yeməzsən...
–Niyə?
–Yeməli deyil.

–O nədir?
–Bulud.
–Əl uzadıb, tut.
–Tutsam, dayanmaz,
Od vursam, yanmaz.
Yerin barıdı –
Su buxarıdı.

–O nədir?
–Aydı.
–Gedək Aya biz,
Ordan boylanaq
Bu dünyaya biz.

*N*ərmin

*D*eyirlər, Nərminə bax,
Nənədir elə bil ki!
Deyirəm, özüdür lap,
Nərmin-mərmin deyil ki!
Qos-qocayam, nəyəm mən,
Nənəyəm-nənəyəm mən.

Bu, mənim ləçəyimdi,
Bu mənim pencəyimdi.

Bu donum – tumanımdı,
Bu da xəstə canımdı.

Hıq-hıq-hıqqıldayıram,
Nıq-nıq-nıqqıldayıram!





*Q*arınqulu

*Ü*ç pay qarabaşağı
Birnəfəsə yemişəm.
Bir boşqab da qatığı
Bəhsə-bəhsə yemişəm.

Yıxılıb çarpayıya,
Daş kimi qalmışam mən.
Elə bil birdən-birə
Yüz il qocalmışam mən –

Nıs-nıs nısıldayıram,
Fıs-fıs fısıldayıram.

*O*rtaq...

–*A*y baba, oturub-durub
Minnət qoyursan mənə!
–Nə minnətdi görəsən?!
–“Adımız ortaqdı!” –
Deyirsən.

–Bahooo...
Nə tez çıxdın ortaqlıqdan?!
–Ay baba, adın nədi?
– Qəşəm.
– Bəs mənim?..
– Qəşəm.
–Ortaq onda olardıq ki,
Sən “Qə” olardın,
Mən də – “Şəm”.





*T*oplan

–*S*özümə baxmır,
Ay baba,
Çeçələ barmağım –
Gah qara qarğa kimi
Girib eşələnir burnumda,
Gah soxur özünü qulağıma!

–Bah,
Toplanımdı ki, lap, –
Qarnı doyan kimi,
Gah çəpərimə çırpır özünü,
Gah bostanıma - bağıma!

*Z*eynəb cığalçılıq edir

*Z*eynəb cığalçılıq edir,
Guya bizə acıq edir.

Yeməyi vaxtında yemir,
Yeməyən vaxtlarda yeyir.

Durmağın vaxtında durmur,
Durmayan vaxtlarda durur.

Yatmağın vaxtında yatmır,
Yatmayan vaxtlarda yatır.

Üstünü örtürsən – açır,
Üstünü açırsan – örtür.

Guya bizə acıq edir,
Zeynəb cığalçılıq edir.





*K*imi çox istəyirsən

–*A*nanı çox istəyirsən,
Atanı çox?
–Hamıdan çox deyirsən?
–Bəli.
–Müəlliməmi!

–Niyə müəlliməni,
Niyə bəs ananı yox?!
–Anamın saçı qısadı,
Əlləri də yep-yekə!

Müəlliməmin saçı
Həm uzundu,
Həm də ki,
Əli sığır əlimə!

*M*əni yıxana bir bax

*N*ə var,
“Mən-mən!” deyirsən,
Qızıb-coşma, bir utan!
Güləşmək istəyirsən,
Buyur, bu şər, bu meydan!

Belimə girdin axır,
Niyə lal durmusan, hə?!
Sən Allah, gör, kim yıxır
Məni,
Qudurmusan, hə?!

Qoy bir qalxım ayağa,
Cavab verərəm sənə!
Qoy bir qalxım ayağa,
Göstərərəm sənə!

Qəfil boynumu əydin,
Ağrısından çığırdım!
Badalaq gəlməyəydin,
Görüm necə yıxırdın?!





Güləşə gedirəm mən,
Xəbərin yox, ay yazıq!
Fəndə salmadım ki, sən
Şikəst olardın azı!

Əlimi boşla bir an,
Salım üstümdən səni!
Qurban ol ki, qonaqsan,
Hopp atardım mən səni!

*S*öhbətcil

*Y*aman söhbətcildi Şəmşəm,
Sözdən ağzı yığışmır heç.
Yaxandan tutub sallanar–
Hünər eylə – yanından keç.

Səhər durandan – dır... dır... dır...
Səs-küylə ev dolub-daşır.

Oksigen tükənib gedir,
Yerində karbon hökm edir.

Elə basdırıqdı hava,
Nəfəs almaq olmayır, a...





*Y*el baba...

*H*avaya bax, – soyudu...
Yel babanın toyudu.

Yel baba yellənəcək,
Yellənib şellənəcək.

Açılacaq qolları,
Süpürəcək yolları.

Ocaq çatırdadacaq,
Buludları sağacaq.

Qar ki, gəldi buluddan,
Yel baba çıxdı yaddan.

Şaxta baba buyursun,
Gəlib sırada dursun.

Ətəyindən sallanaq,
Halay vurub, hallanaq.

Halayçıyıq, halayçı,
Şaxta babadı sayçı.

Şaxta baba, buyur, gəl,
Say bizi, sana vur, gəl.

Dəstə tutub yeriyək,
Qarı yerdən kürüyək.

“Şaxta baba” deyirlər,
Sən ki, qardansan, baba.
Hamının babasısan,
Özün hardansan, baba?!

Tutdu onu öpüşə,
Öpdü o ki, var onu.
Öpdü-öpdü, əritdi
Axır uşaqlar onu!





*Q*ur... qur.. qur...

*A*nar məktəbə ac gəlib,
Qarnı cur-cur curuldayır.
Sənubər deyir:
–Oy, aman,
Qurbağa var, –
Quruldayır!

Rəşad deyir:
–Hanı? Hanı?...
Göstərin, onu bizləyim!
Vüsalə deyir:
–Budur, ey,
Anar cibində gizləyib!

Bəxtiyar deyir:
–Bəri ver,
Kəsim səsini!...
–Qur-qur-qur...
–Yox, deyəsən, atam canı,
Bu qurbağa qudurubdur!..

Zəng vurulur, hamı susur,
Qur-qur susmayır, qaç, gəlir!...
Müəllimə gülür:
–Deyən,
Anar bu gün də ac gəlib?!





*N*iyə bəs...

–*A*y ata, atımız acıb.
–Nədən bilirsən, ay bala?!
–Beş dəfə kişnəyib azı!
–Atın kişnəməkdi işi,
Ağrıyıb eləməz dişi!

–Niyə bəs Zeynəb ağlayıb,
Səhər bezdirəndə bizi,
Anam basır qucağına, –
Marça-marçla əmizdirir?!

*Ş*əhərli oğlan

Deyirəm: –Balıq görmüsən torda?
Deyir: –Görmüşəm – televizorda.

–Bəs bulaq necə, suyu buz bulaq?
–Görmüşəm, – deyir – kinoda ancaq.

–Araz dərindi, yoxsa Kür? – dedim. –
Hansı hansından böyükdür? – dedim.

Dayandı, baxdı üzümə mat-mat...
Dedi: –Müəllim keçməyib heç vaxt!





Ərköyün

Baxın ona – birincidir,
Gəl ki, hamını incidir.

Deyir, ana, su tök gülə,
Köynəyimi tap, ütülə.

Tez ol, nənə,
Süz çayımı,
Yır-yığış et çarpayımı.

Ayaqqabım hanı, deyin?!
Gəzin...
Tapın...
Təmizləyin!

Çöl-bayırı qar bürüyüb,
Alın beli, tez kürüyün!

İndi yola düşməliyəm,
Küləklə döyüşməliyəm.

Çantamı kim götürəcək,
Məktəbə kim ötürəcək?!

Baxın ona, birincidir.
Gəl ki, hamını incidir!





*E*ldar

*Y*aman dəcəldi Eldar,
Azıb yolunu azğın.
Bircə pişikləri var,
Gündə döyür yazığı.

Tutub daşa, axır ki,
Bülbülü qovdu bağdan.
Vurub yuvasını da
Saldı yaşıl budaqdan.

Sığırçını, sərçəni
Salıb gözümçıxdıya...
A quşcuğazlar, daha
Çıxın gedin, çıxdı yay...

Uşaqlar oynayanda,
Eldar uzaqdan baxır.
Quşları sevməyəni
Kim sevəcəkdir axı?!

*Y*avan çörək...

*Ş*əmşəm kababı xoşlayır,
Kabab atasıdır onun.
Plovu xoşlayır Şəmşəm,
Plov anasıdır onun.

Atasından küsən kimi,
Anasından küsən kimi,
Atır özünü üstümə:
–İncidim, baba, onlardan!

–Hə-ə-ə... bala, ayda-ildə bir
Yavan çörək də pis deyil!





*B*izim küçük

*M*ən düzü mat qalmışam
Bu küçüyün halına –
Səhər dərsə gedirəm,
Düşür mənim dalıma.

İçəridə oxuyur,
Yazır, nəğmə deyirik,
Fasilədə oynayır,
Qoğal-moğal yeyirik.

İt olanda nə olar,
İtdə olmaz qanacaq?!
Oturub astanada,
Məni gözləyir ancaq.

Bir də görürsən cumub,
Qızları ürküdür o.
Bəlkə nənəm dalımca
Salıb…–
Məni güdür o?!

Deyirəm, it oğlu it,
Sən məni azca yandır,
Yat qal həyətimizdə,
Hür, başını dolandır!

Qardaş, heç kim saxlamaz,
Vallah, belə əfəli,
Sanki it olduğunu
Unudub birdəfəlik!





*K*onsert

*E*lnur bizə bu gecə
Konsert verib sübhəcən.

Ah... səsə, nəfəsə bax,
Həvəsə, həvəsə bax!

Birdən qalxırdı zilə,
Səs düşürdü mənzilə.

Birdən enir-enirdi,
Zümzüməylə dinirdi.

Enişə-qalxışa bax,
Səsdə yaza-qışa bax!

Nə kaman, nə tar, canım,
Tar-kaman işidir bu?!

Bircə özün görəydin,
Deyərdin, – kişidir bu!

Səs bizə nə edibsə,
Yuxudan kal durmuşuq.
Süfrənin qırağında
Mürgülü oturmuşuq.

Nənəm tez-tez əsnəyir,
Babam bığını eşir.
Hərdən “vay, dədəm!” deyə,
Şaqqa-şuqla gərnəşir.

Sağ ol səni, ay Elnur,
Ömrün yetişsin yüzə!–

Pul verib, xərc çəkmədən,
Konsert vermisən bizə!

Dostum, özünü qoru,
Dostum, səsini qoru!

Hələ çox kef verəcək
Bizə bu xorxa-xorun!





*K*üsə-küs

*Y*ay girəndən küsə-küsdü. –
Ayaqqabım
Ayağımdan küsüb,
Kepkam – başımdan.

Köynəyim
Canımdan küsüb,
Şalvarım – yanımdan.

–Barışın! – Deyirəm,
Çığırışırlar:
–Bəsdi də, Qəşəmşəm...
Qoysana dincələk!

*U*y... daaad...

*S*abun köpüyündən
Üzümə saqqal qoyub,
Girdim nəvələrimin otağına.
–Uy... daaad, – Qəşəmşəm
İçini çəkdi, –
Nə yaman qocalmısan, baba,
Tanıya bilmədim səni?!

Başını qaldırıb
Zeynəb də baxdı,
Dili yoxdu hələ danışmağa,
“Loqos”a gedir, –
Ana dilində dil açmağa.

O da qardaşı deyəni dedi –
Gözləriylə:
–Uy... daaad...
Nə yaman qocalmısan, baba!





***N*ə yaxşı...**

–Nə yaxşı darağın var,
Ay babalı, sat mənə?!
–Başıma lağ eləmə!

–Gəl qaçışa çıxaq biz,
Ay babalı, çat mənə!
–Yaşıma lağ eləmə.

–Uzaqlara baxanda
Gözünü nə qıyırsan?!
–Baxışıma lağ eləmə.

*A*rılarla dəyib aram

*S*əhərin gözü açılmamışdan
Alır başımın üstünü babam:
–Qəşəmşəm, sabahın xeyir!
–Sabahın xeyir, baba.
–Aç.
–Gözümü?
–Ağzını.
–Nə boyda?
–Bir qaşıqlıq. –
Bal qoyur dilimin üstünə. –
Bağla darvazalarını.

Düzdü balı yeyirəm,
Arıların dalıyca
Ağzıma gələni də
Deyirəm!





*B*izim it

*K*üsmüşdü sanki məndən,
Yal tökürdüm, yemirdi.
Nə olmuşdu, görəsən,
Hürmək də istəmirdi?!

Yatırdı xorxa-xorla,
Bir dura, bir otura!
Arılar elə bil ki,
Layla çalırdı ona!

Səhər tezdən oyandım,
Gördüm yoxdu yerində.
Gəzdim, tapdım axır ki,
Qonşunun çəpərində.

Ondan bir az aralı
Küçüklər çömbəlib ki!
Bu nədir,
Sağsağanlar
Yoluxmağa gəlib ki!

Quyruğundan yapışdım,
Tərpənmədi yerindən.
Səslədim, oyanmadı,
Yaş vardı gözlərində!

Getdim dərsə...
Gələndə,
Gördüm yoxdu itimiz...
Üç gündü qardaşımla
Axtarıb gəzirik biz!





*B*alaca müəllim

*B*ircə ay deyil
Dərsə gedir o,
Bizə “Əlifba”
Öyrədir o:

–Ay ata,
“A” yaz…
Yox... yox…
Düz deyil.
Əvvəl qələmi
Tutmağıca bil.

Ondan sonrasa
Asandır dalı.
Özündə olsa
Fikrin-xəyalın.

“A” 3 ağacdı…
Həəə… elə…
Yaşa!

Biri ortada,
İkisi baş-başa.

“N” necə?!
Dayan,
Vermə ələ güc.
Onun özü də
Üç ağacdır, üç.

“Ana” sözündə,
Söylə görüm, bir,
Bu ağacların
Sayı neçədir?

Bircə ay deyil
Dərsə gedir o.
Bizə “Əlifba”
Öyrədir o.





*K*üçük və çaqqal

*H*ava elə qaraldı,
Qorxu düşdü
Küçüyün canına.
Boylanıb baxdı
O yan-bu yanına.–

Gördü yata bilməyəcək.
Nə fikirləşdisə, birdən
Ayı balası kimi bağırdı.
O dəqiqə kəndin itləri
Bir-birinə qarışdı.

Küçük gülümsəyib,
Başını qoydu
Pəncəsinin üstünə:
–Çaqqal girə bilməz kəndə,
Rahat yataram mən də!

*B*abamın qarğışı

*S*əhərdən deyinir babam:
–Ayağı sınsın dəqiqənin,
Yolu yumrulansın saatın,
Boynu altında qalsın günlərin,
Toz kimi yox olur həyatım!

–Ay baba?!
–Can!
–Kimdi qarğış elədiyin?!
–Zaman!
–Zaman kimdi?
–Bu gün,
Bu saat...
Bu an...

–Heç nə başa düşmürəm!
–Ay Qəşəmşəm,
Günlər tez keçir yaman,
Tez keçir yaman,
Bimirsən vaxtın hansı çağıdı.





Həftənin başı olmamış,
Görürsən ayağıdı!

Ona görə də qarğış eləyirəm!
–Mənə qarğış eləmə, ay baba?!
–Niyə sənə?!
–Balaca qalım, deyirsən?!

Ən böyük canlı

–Ən böyük canlı hansıdır?

–Fil!

–Düz deyil.

–Kərgədan.

–Bu da bir yalan.

–Balina.

–Əsla!

–Olmadı ki!

–Su.

–Suuuuu?!





*B*əs

–*K*üləyin ayağı var?

–Yoxdu!

–Necə qaçır bəs?!

–Küləyin qanadı var?

–Yoxdu!

–Necə uçur bəs?!

–Küləyin gözləri var?

–Yoxdu!

– Necə görür bəs?!

–Küləyin əlləri var?

–Yox...

–Kepkamı götürür bəs!

*B*ibim oğlu Muuhammməd

*A*tası oruc tutub,
Namaz qılandı,
Odur ki,
Ərəbcə qoyub adını –
Muuhammməd.
Özü də hazırlaşır
Oruc tutub,
Namaz qılmağa.

Bizə gələn kimi də
Soyunub, tökür paltarını, –
Lüt oturur.

–Neyləyirsən, Məhəmməd?
–Məhəmməd yox, Muuhammməd!
–Neyləyirsən, Muuhammməd...
–Necə neyləyirəm,
Batıb bulansın,
Deyirsən, paltarım?!





Ən ağır söz

–***B***ir kilo dəmir ağırdı,
Bir kilo pambıq?
–Uraaa... tapdım!
–De!
–Dəmir!...
Hirslə baxdı üzümə babam:
–Səni dərsə aparıb-gətirəndə
Yandırdığım benzinə dəyməz!
–Cavabım?
–Savadın!
–Savadıma nə gəlib, ay kişi?!
–Ağzında kilo deyirsən, –
Kilonun kilodan nə fərqi?!
–Yüz faiz?!
–Yüz!
–Onda niyə bəs
“Ayaqqabım dəmir kimi ağırdı?!
Pambıq kimi yüngüldü papağım,”
Deyirsən, baba?!

*B*u ki, “Azadlıq!” demir

*Z*əng eşiyə vurulan kimi,
Sinfimiz dönür qaynar qazana.
Bir dəstə uşaq imkan vermir
Oxuyana, yazana.

Birdən sıçrayıb, tuturlar Kamalı,–
Başından elə basırlar,
Hinduşka pipiyi kimi qızarır!

Sonra da biri çiynindən,
Biri ayağından yapışıb,
Sinif boyu sürüyürlər.

–Buraxın! – Dözə bilmirəm, –
Görmürsünüz qıpqırmızı
Qızarıb sifəti?!

Onlar məndən də bərk çığırır:
–Sən kimsən?!
Kim verib sənə bu cəsarəti,
Olmaya müxalifətsən?!





–Nə müxalifət?!
–Bizdən ədalət tələb eləyirsən?!
–Yazıqdı axı!

–Biz polis nəfəriyik,
Bu da nümayişçidi!
İcazəsiz çıxıb küçəyə,
Dərsini verməliyik!

–Bu ki, “Azadlıq!” demir!
–Görmürsən ağzını yummuşuq?!

*M*ənim dostum

6 yaşlı Vahid Rəşid oğlu Şərafəddinov, hovuza düşüb boğulan 3 yaşlı qızı xilas etmişdi.

Bir gün hovuz başında
Atılırdıq, düşürdük,
Qaçırdıq, oynayırdıq,
Gülürdük, gülüşürdük.

Birdən büdrədi bir qız, –
Aşdı, düşdü hovuza,
Hamı qaçdı, əl verən
Tapılmadı bu qıza!

Bircə dostum yüyürdü
Tez hovuzun başına, –
Cəld əlini uzatdı
Balaca yoldaşına.





İki

İki nəfər gedirdi,
Biri bel idi.
İki yağış yağırdı,
Biri sel idi.
İki külək əsirdi,
Biri yel idi.

Yel seli götürdü getdi,
Sel beli götürdü getdi,
Qaldı tək-tənha üç tək –
Adam,
Yağış
Və külək...

Cumbulu

Cuma-cuma, Cumbulu,
Keç hücuma, Cumbulu!

Bu top sənindi, vur, vur!
Durma sən indi, vur, vur!
Cuma-cuma, Cumbulu,
Keç hücuma, Cumbulu!

Nənəm baxır, möhkəm ol,
Küsər axı, möhkəm ol!
Cuma-cuma, Cumbulu,
Keç hücuma, Cumbulu!

Qol vursan oyunda sən,
Baban İsa qoyun kəsər!
Cuma-cuma, Cumbulu,
Keç hücuma, Cumbulu!





*C*əmilə

Özü bilməyir
Adını hələ,
Bütün kənd bilir,
Adı – Cəmilə.

“Ana” sözünə
Yatmayır dili,
Əl-qol oynadıb,
Ağlamaq bilir.

Gülüm, çiçəyim,
Balam Cəmilə!
Yat, dincəl, böyü,
Lay-lay, Cəmilə!

Balaca - bapbalaca



*B*alaca-bapbalaca

*B*alaca bir toxumdum –
Balaca-bapbalaca.

Nəm torpağa toxundum –
Balaca-bapbalaca.

Gün çıxdı, yer isindi –
Balaca-bapbalaca.

Bir az da yerə sindim –
Balaca-bapbalaca.

Yerdən, Günəşdən yedim –
Balaca-bapbalaca.

Bir səhər də göyərdim –
Balaca-bapbalaca.

Torpağa kök salmışam –
Balaca-bapbalaca.

Göyəcən ucalmışam –
Balaca-bapbalaca.





*A*tlı Vüqar

*M*ən oğlanam, Vüqar – adım,
Qarğı deyil, atdır atım.

Rəngi qara, ayağı ağ,
Yal-quyruğu saçaq-saçaq.

Ot xırçıldar ağ dişində,
Yer tərpənər yerişindən.

Mən oğlanam, Vüqar – adım,
Qarğı deyil, atdır atım.

Amma Anar gör nə deyir,
Deyir ki, at sənin deyil!

–Mənim deyil, kimindi bəs?
Cavab ver də sən indi bəs?!

–Sənindisə, bir dəfə min!
–Mən minmirəm, minir əmim!

Əmim minir qarda, buzda,
Mənimkidir at onsuz da!

Burda olsa qoyardımmı
Nəfəs dərə bircə an da.

Gilas xala, acıqlan da!
De ki, bala, ayıb deyil?!
At mənimki ola-ola,
Niyə deyir:
– Sənin deyil?!

Nə olsun ki, atım bu il
Qalıb Ağsuda, qışlayıb?!

Gilas xala, dayım canı,
Azad babam bağışlayıb!

Mən oğlanam, Vüqar – adım,
Qarğı deyil, atdır atım.





Cıdırda

Şeiri mərhum uşaq yazıçısı
Nəriman Süleymanova həsr etmişəm

At deyil atım, qizıl quşdu, bax!
Belinə sıçra, – qanadlanacaq!

Gör nə yeriyir, yerişi – yorğa...
Daşlığa salma, qolunu yorma!

Dartma yüyəni, ağzı cırılar, –
Yaralı atlar çıxmır cıdıra!

Burax başını, addımını say!
Yabı[29] deyil ki, qırmanclayasan!

Yapış yalından, yoldasan daha!
Qızışsa, çətin saxlayarsan, ha!

At deyil atım, qızıl quşdu, bax!
Üzəngini sıx, qanadlanacaq!

[29] *Yabı – arıq, əldən düşmüş, yaraşıqsız at.*

Qalxdım belinə – cıdırdayam, day!
Qaçın yolumdan, hay-haray-hay-hay!..

“Orman”ı yordum, “Sarvan”ı[30] yordum,
At nəfəsindən od qoxuyurdu!

Qıy çəkib bir də təpindim ata,–
Nal səsini say – tap-tap-tap-tap-tap...

Birinci vurdum başa cıdırı...
Dostlar əl çalır, gülür, çığırır...

Alqış ucalır, – qolumun gücü...
Sağ ol, kəhərim, sağ ol, sürücü!

Mən də sağ olum, deyimmi, dinlə! –
San atla çapdın, mən ürəyimlə!



[30] *“Orman”, “Sarvan” – cıdırda yarışan atların ləqəbi.*



*L*amiyə

Qələm dostum, yazıçı
Aydın Tağıyevin nəvəsidi Lamiyə.

Mənim neçə adım var?
Deyəcəksiniz ki, “bir”.
Vallah, düz demirsiniz,
Vallah, elə deyildir.

Mən sayım adlarımı,
Yumun barmağınızı.
Bir adım Lamiyədir,
Biri – “atamın qızı”.

Başqa adım “nəvədi”,
Vardır dəftər-qələmdə.
Həm “qardaş qızı”yam mən,
“Bacıqızı”yam həm də.

“Dayıqızı” da oldum,
“Qardaş nəvəsi” də mən.
Aydın babama oldum
Yazmaq həvəsi də mən.

Neçə-neçə adımsa
Yol gözləyir qabaqda.
Hələ ki, “Lamiyə”yəm,
Düşünürəm bu haqda!





*N*ağara

*G*umbuldayır nağara hey,
Sığışmayır mağara hey!

Deyir, nə züy, nə dəf, nə tar,
Dinsəm, səsim Aya çatar!

Uzaqlardan qulaq versən,
Yaxındanca eşidərsən.

Balabansa yazıqdı lap,
Sinəsindəki dağdı lap!–

İnildəyir için-için...
İnildəmək, deyin, neçin?!

İstəsən ki, eşidəsən,
Eşitməzsən eşikdə sən!

Bir az qorxum zurnadandı,
Dindirməyin, o nadandı!

Baxma onun hay-küyünə,
Yalandanca lap öyünər.

Züy olmasa, batar qalar,
Mağardaca yatar qalar.

Düzdür o da yaraşıqdır,
Amma bir mən, bir aşıqdır!

Şəlalə var – Niaqara,
Bəs nən kiməm,
Mən – nağara!

Niaqara,
Ya nağara?!
Səsi kimi səsim elə,
O sözdəndir əslim elə!

Gumbuldayır nağara hey,
Sığışmayır mağara hey!





*M*ənim toyuqlarım

*A*y toruqlarım, dən yedinizmi,
İndi də yatmaq istədinizmi?!

Ağac budağı – yay evləriniz,
Səpsərin olar gecə yeriniz.

Ay cücə – cip-cip, demə, çıxdı may,
Soyuqlayarsan, beçəyə uyma!

Həyət-bacanın zəngli saatı –
Qırmızıpipik, gör, necə yatır?!

Rahat uyuyun, qızarınca dan,
Oyadacağam sizi yuxudan.

Su içdinizmi, dən yedinizmi,
İndi də yatmaq istədinizmi?!

*L*ay-lay

*L*ay-lay,
Quzum, yat,
Böyüyüb, boy at.

İndi yuxunun
Şirin çağıdır,
Yerin ananın
Gül qucağıdır.

Uyu, durmuşam
Keşiyindəcə,
Yatmayan da var,
Oğlum, bu gecə!

Hardasa qatar
Yolları yorur,
Maşinis əmi
Ayıq oturub.

Əyib başını
Dəzgahın üstə,





Fəhlə işləyir
Min bir həvəsdə!

Dumanlı yollar,
Dağ aşırımları,
Bolluq karvanı –
Dən maşınları...

Hardasa ana
Çimir bilməyir,
Hardasa həkim
Mürgüləməyir.

Kömür şaxtası,
Neft mədənləri, –
İş üstündəcə
Açır səhəri!

Lay-lay,
Quzum, yat,
Böyüyüb boy at.

*M*ırtda - yumurtda...

*M*ırtdayam ha, mırtdayam,
Balaca yumurtdayam.
Ağ-appaq rənglənmişəm,
Qırt toyuğun altdayam.

Bugün-sabahlığım var,
İçimdən “civ-civ” gəlir.
Hərdən başıma səs düşür,
Elə billəm div gəlir.

Atam, anam kimdi, kim?
Özüm ki, təkəm – birəm.
Ağmı?!
Qaramı?!
Bozmu?!
Nə çıxacam, bilmirəm?!





*Ü*ç kişiyik biz

*B*abam təkdi,
Atam təkdi,
Təkəm mən–

Tək – Allahdı,
Tək – Dünyadı,
Tək – Vətən.

Babam deyir:
–“3” ki, var,
Tək rəqəmdi –

Biz “3”-ünsə
Fərqi odur ki–
Cəmdi.

Anarın sualları



*D*aş

–*G*uruldayan nədir?
–Göy...
–Oxuyan?
–Çay...
–Uçan?
–Quş...
–Bəs o?
–Daşdı... –
Yamacda
Yataq salıb, oturmuş.





*F*əsillər

– *Q*ış nədir?
–Yağış,
Qar – qalaq-qalaq.
–Yaz nədi?
–Çiçək...
–Yay nədi?
–Yaylaq.
–Payız?..
–Köçə-köç;
Yaşıllıq dağdan,
Quşlar yuvadan,
Yarpaq budaqdan.

*Y*ağış

–*Y*ağır?
–Hə... yağır...
–Nə yağır?
–Yağış.
–De, görüm, nədir,
Nə axı... yağış?

–Yağış – sudur, su,
Buluddan gəlir,
Yağdımı...
Yer-Göy
Yay-qış dincəlir.

–Yey-Göy dincəlir
Yay-qış, deyirsən,
Bəs niyə “su” yox,
“Yağış” deyirsən?!





*A*ğac və Anar

*A*ğac deyir:
–Ay Anar,
Bar məndə, bəhər məndə,
Gör nə çox gətirmişəm,
Əl uzadıb dər məndən!

Anar deyir:
–Ay ağac,
Güldür hələ barın da,
Arılar vızıldaşır
Körpə budaqlarında.

–Mənim barım güldü də,
Dər apar, dəstə bağla.
Həm özün iylə evdə,
Həm də anana saxla!

–Dərsəm əgər, neyləyər
Arı, böcək, ay ağac?!
Anam bağa gələndə,
İyləyəcək, ay ağac!

*A*y külək

– ***A***y külək, nə əsirsən?
–Əsməsəm, olmaram mən.
–Olmağının xeyri var?
–Xeyri var ki, varam mən!

–Qışda nə xeyrin var, hə?
–Qışda yağış, qaram mən.
–Yazda bə?
–Ağacları
Oyadan nübaram mən.

–Yayda nəsən, ay dəli?
–Yaydamı... baharam mən?!
–Payızda bəs?
–Payızda
Aşıb-daşan varam mən –
Bağça dolu xəzələm,
Budaq dolu baram mən!





*A*rzu

–*A*y çinarın kökləri,
Hara gedirsiz, hara?
–Buz bulaqlı,
Qap-qara
Dərin-dərin laylara.

–Ora zülmətdir axı,
Orda nə var?!
–Ömür-gün!
–Sonra?
–Sonra torpağa
Qarışmaq var – büsbütün!..

Köklər endikcə endi,
Yox oldu birdən-birə...

–Sən hara ucalırsan,
Ay çinarın gövdəsi?
–Göylərə!
–Orda nə var?

–Buludlar!

–Sonra?

–Hava!

–Sonra?

–Su!

Bir də Günəşə çatmaq,

Ulduz olmaq arzusu!





Əminə

–***A***dın nədi?
–Əminə.
–Toyuqları sal hinə.

–Bəs sən?
–Ruslan.
–Dur, görüm,
Dolçanı doldur, görüm.

–Sən niyə dinmirsən, hə?
–Mən Anaram, mənə nə!

–Necə yəni, ay Anar,
Sənin də öz işin var?!

Qoyunu sal ağıla,
Yonca qoy qabağına.

Mal qayıdır, mala bax,
Toplan acıb, yala bax.

Tez ol bağla balağı,
Yoxsa dağıdar bağı!

–Bir dayan, ay qız, dayan,
Söz deyirəm, söz, dayan!

Adın nədir?
–Məhsəti.
–Xanım-xatınsan nədi?!





*Z*ooparkda

*–B*urda nə çox quş var, oyy,
Qulaq batır ki, səsdən.
Bülbül, sərçə, sığırçın–
Hamısı da qəfəsdə.

Bizim göycəqarğa da
Burdadı, bax, görərsən,
Torağay da burdadı,
Oxuyur yana-yana.

Bu quşları qəfəsə
Kim salıbdı, görəsən,
Çöl-çəmənçün bu quşlar
Darıxmayır, ay ana?!

*A*tlı Anar

*E*vimizdə darıxmışam,
At minib, cıdıra çıxmışam.

Nənəm deyir:
–İgid budu,
Mənim balam Koroğludu!

–Atım nədi, ay nənə, tap?!
Deyir:
–Atın Qıratdı lap!

Çəkdim Qırata qırmancı,
Eheyy, Koroğluyam, qaçın!

Evimizdə darıxmışam,
At minib, cıdıra çıxmışam.





*A*bdul əmi

–*A*y əmi, quşdur bu, hə?!
–Çəyirtkədi, quş deyil.
–Bu nədi, bayquşdu, hə?!
–Zağcadı, bayquş deyil!

–Bu da fildi – yepyekə?!
–Yox-yox, camışdı, oğlum!
–Bəs bu göldə bitən nə?!
–Qarğı-qamışdı, oğlum!

–Bəs bu?..
–Tut ağacıdı.
–Bu?..
–Armud ağacıdı!

–Adama boy vermir ot,
Çayır-çəməni dizdən.
Nə çox quş var, ağac var,
Ay əmi, kəndinizdə?!

*M*ənim bağım

Bir gecəlik küləyə bax,
Ağaclara çəkdi daraq.

Çiçəkləri bar tutmuşdu,
Quzu kimi otuxmuşdu[31].

Bal arısı əl çəkməzdi,
Qanadını yelmi əzdi?!

Hər ağacda bir yara var,
Şaqqalanıb yazıq çinar!

Sallam-bullam meynələri…
Çalğulayıb[32] külək yeri.

Pöhrə sınıb, gül sıxılıb,
Ot əzilib, kol yıxılıb.

Budur çıxıb Günəş, – yanır,
Şeh damcısı buxarlanır.



---

[31] ***Otuxmaq – süddən kəsilib, ot yeməyə başlamaq***
[32] ***Çalğulamaq – süpürmək***



Cikkildəyir sərçə…
Nə var,
Nə bağbandı, nə bağı var!

Dən axtarsa, dəni də bol,
Ye arxayın, salamat ol.

Bülbül ötür heç nə yox tək,
Baş qaldırır çəmən-çiçək.

Bircə mənim bağım batıb,
Köklәridi salamatı.

Bir gecəlik küləyə bax,
Zəhmətimə çəkdi daraq.

Tez ol, durma, Məhsəti, gəl,
Tənzif gətir əvvəl-əvvəl.

Budaqları indi gərək
Biz sarıyaq sınıqçı tək!

Yoxsa gülər Qənbər kişi:
–Anara bax, – tənbəlləşib!

Kəsməmişkən qapını qış,
Dəhrə götür, beldən yapış!

Pöhrələrə dirək verək,
Ağaclara ürək verək!





*A*nam deyir…

*A*nam deyir:
–Ye!
Atam deyir:
–Ye!
Niyə yemirsən,
Ay bala,
Bir de?!

Sən dilini vur
Bir bunacığa…
Mən də yemirəm –
Düşüb acığa.

Guya yeməsəm,
Yeməyəcəklər.
Yesəm…
Bir də “ye”
Deməyəcəklər.

Bu buyruq nədi,
Doğrusu bezdim.

Utanmıram ki,
Öz evimizdi!

Nə istəsəm var
Süfrədə, ancaq
Qoymurlar adam
Yesin doyunca!

Anam deyir:
–Ye!
Atam deyir:
–Ye!
Niyə yemirsən,
Ay bala,
Bir de?!





*C*an, gülüm, can-can…

*Y*ağış yağacaq,
Can, gülüm, can-can!
Yağacaq, haçaq,
Can, gülüm, can-can!

Yer oyanacaq,
Ot boy atacaq,
Gül – ocaq-ocaq…
Can, gülüm, can-can!

Kəndə gedəcəm,
Qoyun güdəcəm,
Qurd ürküdəcəm,
Can, gülüm, can-can!

*H*amıyla dalaşmışam

*L*ap səhərdən durmuşam,
Yuyunub oturmuşam.

Atam yatır şipşirin,
Anam yuxu bişirir.

Nənəm qalxmır yataqdan,
Durardı sökməmiş dan.

Gizləmirəm,
Doğrusu,
Evimizdə bu axşam,
Hisrlənib,
Qəzəblənib,
Hamıyla dalaşmışam.

Atamla gəldim sözə
Heç nəyin üstündə mən.
Guya körpə bacımı
İncidirəm gündə mən!





Anam deyir:
“Nahaqdan
Toyuğa daş atmışam,
Qonşumuzun oğlunu
Qorxudub ağlatmışam!”

Qarı da məndən küsüb,
Neyləyim, bilməmişəm,
Sən demə, nəvəsiymiş
Gilas nənəmin pişik?!

Lap səhərdən durmuşam,
Yuyunub oturmuşam!
Saçlarım pırtlaşıqdı,
Önlüyüm bulaşıqdı.

Qalstukum ütüsüz,
İtmişdi üç gündü düz!
Yığşırıb çarpayımı,
Kim süzəcək çayımı?!

Atam yatır şip-şirin,
Anam yuxu bişirir.

Nənəm qalxmır yataqdan,
Durardı sökməmiş dan.

Ayaqqabım, şalvarım…
Durub yəni yalvarım?!





*O*yundan sonra

*O*ynayıram,
Qaçıram,
Dayanıb dirəşirəm,
Yuxum gəlmir yatmağa,
Elə fikirləşirəm.

Niyə uduzduq, niyə,
Bircə bunu bilmədim?!
Mən ki, hücumda idim,
Geriyə çəkilmədim.

Təqsiri məndə gördü,
Danladı məşqçimiz də.
Guya kollektiv oyun
Baş tutmayırdı bizdə.

Neyləyim baş tutmadı,
Çox da kapitanam mən.
Görmürdü oyunçular
Bir yanaydı, yana mən?!

Oynayıram, qaçıram,
Dayanıb dirəşirəm,
Yuxum gəlmir yatmağa,
Elə fikirləşirəm.





*Ü*ç yoldaş

*S*əhər gördüm iki qız
Bağda verib baş-başa,–
Biri dedi:
–Natayam.
Biri dedi:
–Nataşa.

Nataşa rus qızıydı,
Ukraynalıydı Nata.
Gəzdik bağı-bağçanı,
Baxdıq çiçəyə-ota.

Soruşdular adımı.
–Adım Anardı, – dedim.
–Anar nədir, ay Anar?
–Mənası vardır, – dedim.

Düz yeddi söz var
Mənim adımda.
Kim qoçaqdısa,
Saxlar yadında.

“A” üstə gəl “nar”,
Nə olar?
–A-Nar.
–“An” üstə gəl “ar”,
Nə olar?
–An-ar
–“An” var, “Ana” var,
Bir də ki, “Anar”.

–“A” nədi?
–Heyrət,
Təəccüb ya da.
–“Nar” nədi?
–Meyvə,
Oxşayır oda.

–“An” nə?
–Saniyə...
–“Ar” nə?
–Namaus – ar.
“Ana” anadır,
Bir də bir “an” var.





Yəni məni an,
Xatırla yəni.
Anar sözü də
Adımdır mənim.

*M*əktub

*N*ata yazır ki,
Ukraynaya gəl,
Bir günlüyə yox,
Bircə aya gəl!

Sizin yerlərə
Bənzəmir bura.
Gəl, qoşa gəzək,
Oturaq-duraq.

Kömür mədəni
Tanışmı sənə?
Gəlib gözünlə
Özün görsənə!

Nataşa yazır:
–Rusiya xoşdu. –
Çaylar lal düşüb,
Göllər donmuşdur.

Gəl xizək sürək,
Keçək meşədən.





Yol salaq gedək
Çaydan, çeşmədən.

Burda Tayqa var, –
Nefti tükənməz.
Sibir yurdunu
Özün gəlib, gəz.

Yazdım:
“Cənubun
Xoşdur havası.
Quşlar bu yerdə
Qarşılar yazı.

Dəstə tutarlar
Şimala sarı...
Sıxdı meşədən
Neft buruqları.

Odlar yurdudur
Bu Vətən – ana...
Vaxt edib gəlin
Azərbaycana!

Gəlin, bu yerlər
Çiçək-çiçəkdi.
Gəlin, dostlarım
Sevinəcəkdir!”





*K*öpək gəzir ayaqyalın

*D*ağa-daşa qar ələnib,
Evdə bülbül xəstələnib.

Qar altında yeyir yalı,
Köpək gəzir ayaqyalın.

Çöldə yatır il uzunu,
Almayır da yuxusunu.

Bəzən olur səhər yemir,
Bəzən də yeyir hər yemi.

Naharı yoxdur, şamı yox,
Gündüzü yox, axşamı yox.

O mürgülər eşikdəcə,
Biz yatarıq, keşik çəkər.

Çöldə olur qışı-yazı,
Necə dözür, görən yazıq?!

Dağa-daşa qar ələnib,
Evdə bülbül xəstələnib.

Qar altında yeyir yalı,
Köpək gəzir ayaqyalın.





*Y*alan

*P*işiyi yəhərlədim,
Minib çapdım... tərlədi.

Tez xoruzu nalladım,
Baba dağa yolladım.

Bir nalı yolda düşdü,
Qırt toyuqlar gülüşdü.

Hırıldaşdı fərələr,
Səsə düşdü dərələr.

Sular daşdı, dağıldı,
Bu ki, xalis nağıldı!

*D*öyüşçü

*D*öyüşlərə girmişəm,
Əsəblərim gərilib. –
Kimə ilişdirmişəm,
Ağzı üstə sərilib.

Zərbəmə dözməz buğa,
Qızışmaram boş yerə.
O günü bir yumruğa
Həsəni sərdim yerə.

Yanındakı qurumsaq,
Görüb gücümü...
Çaşdı.
Mənə cumurmuş, demə,
Bir təpik saldım – aşdı.

Döyüşlərə girmişəm,
Əsəblərim gərilib. –
Kimə ilişdirmişəm,
Ağzı üstə sərilib.





Bıy!...
Gələn var, deyəsən,
Vay! Vay!
Həsəndir!
Həsən!
Dizim nə yaman əsir,
Qoy gizlənim... görməsin.

Bir an...
Bir an da...
Ötdü...
Ura!
Əcəb, əcəbdi!
Yaxşı ki, yandan ötdü,
Ağzını əzəcəkdim!

Döyüşlərə girmişəm,
Əsəblərim gərilib. –
Kimə ilişdirmişəm,
Ağzı üstə sərilib.

*O*vçu

*Q*ardaş,
Xeyli pul verib,
Bir tüfəng almışam mən!
O gündən ov ətinə
Tamarzı qalmışam mən!

Gecə-gündüz çöldəyəm,
Bilmərəm qarmı-qışmı!
Hər şeyim var, hər şeyim,
Bircə ovum çatışmır!

Brakonyerlik etmirəm,
Öz nəfsimə uyam mən!
Təbiət keşikçisi
Əsl bir ovçuyam mən!

Budur, qurd çıxdı koldan,
Gəlir... part...
Döndü qaçdı.
Tülkünü aldım nişan,
Bir an göründü, qaçdı.





Hədəf seçib, atıram,
Sağ uçur su quşları!
Bunu da görməliymiş
Mənim kor olmuşlarım!

Ovçuluğum sarıdan
Pis fikrə düşməyin siz!
Tüfəngimə göz dəyib,
Qardaş canı, şübhəsiz!

Bu, patrontaş, bu, patron,
Minilməyə atdı, var!
–Oyuncaq?!
Boş danışma,
Xalis avtomatdı, var!

Çörək haqqında nəğmələr



*B*ərəkət

*B*abamla tezdən həyətə düşdük,
Yerə bir əlcə çörək düşmüşdü.

O boyda kişi çöküb diz üstə –
Götürdü, öpdü, qoydu göz üstə.





*T*axıl

–*P*ayıza yaraşıq
Nədir bu çöl – yaşıl?

–Bu yaşıl, oğlum, bil,
Çörəkdi, çöl deyil.

–Hayıf ki, ana can,
Qar altda qalacaq!

–Əriyər yazda qar,
Zəmilər bar tutar!

*Z*əmi...

–Bu, zəmidi?..
–Hə...
–Oy... oy...
Hayıf bundan – yanacaq.
Gözləməyək suçunu,
Gəl, suvaraq, ana can!

–Suçu verib suyunu,
Sünbülü dən bağlayıb,
Biçinçini çağıraq,
Ay oğlum, vağamlayıb[33]!



[33] ***Vağamlamaq – tam yetişib ötmək.***



*B*için

*S*ünbülə bax, dəni – çin-çin...
Ot saraldı... çatdı biçin.

Gəlin biçək, dərz bağlayaq,
Gecikməyək, vağamlayar.

Atam deyir:
–Sənlik deyil,
Biz özümüz biçərik, bil.

Odur, mavi gəmisində,
Üzür taxıl zəmisində.

Buğda gəlir maşın-maşın,
Anbarımız dolub daşır.

Dağa dönür “sarıbuğda” [34],
Min quş pusur min budaqda.

[34] ***“Sarıbuğda” – Azərbaycanda ən yaxşı taxıl növü.***

Aman versəm dolaşaya,
Bütün günü dən daşıyar.

Yağmayın, yay yağışları,
Yoxsa batar elin varı!

Sünbülə bax, durub çin-çin...
Ot saraldı... çatdı biçin.





*B*aşaq[35]

*B*abam ehtiyatlıdı,
Orağı var, çini var.
Deyir, dünya durunca,
Əkini-biçini var.

–Çin nədi,
Biçin nədi,
Nə küs məndən, nə inci?!
Ay baba, tarlaya bax,
Maşınlardı biçinçi.

–Maşın maşındır, oğlum,
Canı varmı ki...
Yansın?!
Yerə düşən sünbülü
Götürməkçün dayansın?

“Tez yığ, bir də itkisiz!”
İndi hünər dəmidi.

[35] ***Başaq – sünbül. Taxılın baş hissəsində olduğu üçün başaq deyilir.***

Gözdən qaçan sünbülün
Hərəsi bir zəmidi!

Gəlin sizə çin verim,
Kisə verim bir də mən.
Gedək başaq yığmağa
Zəmilərin yerindən.

Babam – dəstə rəhbəri,
Dəstə üzvləri biz.
Bax, beləcə yarandı
“Sünbülyığan dəstə”miz.

Qaçmırdı gözümüzdən
Yerə düşən dən belə.
Söz qoyduq, hər gün çıxaq
Tarlaya indən belə.





Çö-ör... çöy - rək...

Çö-ör...
çöy-rək...
çöö-rək...
çörək...
Bəlkə “çöyür, ək”di bu?!

“Çöyür”,
Yəni “sür yeri”,
“Sür yeri – çöyür yeri!”.

Gün yuvalandı, durma,
Yer havalandı, durma!

Kəli yedəklə, görüm,
Kotanı təklə, görüm.

Ay, qolların qulacdı,
Ay, yapış,
Bu da macdı.[36]

[36] ***Mac – kotanın əltutacağı***

Əz daşı, kəltəni[37] əz,
Əz, bala, yer təni əz.

Əzməsən, əzər dəni,
Torpağa səp zər dəni!

Yerə bərəkət ensin,
Təndirin tüstülənsin!



[37] ***Kəltən –iri kəsək, yəni qurumuş yumru palçıq.***



*S*arıbuğda

*B*u çörək ki, var – “Sarıbuğda”dı,
Bizim çöllərin ondadır dadı.

Əmim çıxardıb taxıl şumunu,
Dayım səpibdir ilk toxumunu.

Suyunu atam özü veribdi,
Bax, buna görə tez göyəribdi!

Babam biçəndə zəmini bildir,
Dedi: “Maşallah, bərəkətlidir!”.

Bu çörək ki, var – “Sarıbuğdadı”,
Bizim çöllərin ondadır dadı.

Ye, bir, sən də bax… necədi?
–Şirin!
–Ba-ax, bu çörəyi anam bişirib!

*A*nam çörək yapanda

*A*nam təndirə
Çörək yapanda,
Gəlib itimiz
Çıxır bir anda.

Pişiyimiz də
Astaca gəlir,
İtdən arxada
Yerə çömbəlir.

Cik-cik sərçələr
Uçub birbəbir,
Tut budağında
Növbə düzəldir.

Hərə istəyir
Bir pay aparsın,
Amma ki, təndir
Anamı qarsır.

Buğda çörəyi
Axır ki, bişdi,





Bir dişdəm aldım,
Sanki kişmişdi.

Anam acıqla
Üzümə baxdı:
–Oğlum, bu səndə
Nə qanacaqdı?!

Bəs it, bəs pişik?!
Yazıqdı sərçə... –
De, acmı qalsın
Sübh-səhərəcən?!

Sonra çörəyi
Götürdü təkdən[38],
Böldü... tulladı...
Hayıf çörəkdən!

Hərə istəyir
Bir pay aparsın,
Amma ki, təndir
Anamı qarsır[39].

---

[38]Tək – isti çörəyi soyutmaq üçün qarğıdan düzəldilmiş tərəcə – stol.
[39] Qarsmaq – ütmək, zəif şəkildə yandırmaq.

Çörək və Anar

–Ana, hardasan, bir dillənsənə?!
Acmışam axı, çörək ver mənə.

–Gəl görüm, oğlum, bir azca otur,
Süfrəni salım, yeyib-içib dur.

–Yox ey, bir əlcə çörək bəsimdir,
Gözləyir Ramin, Nəsimi indi.

Geciksəm, gedib oynayacaqlar,
Məni oyuna qoymayacaqlar.

–Oğlum, süfrədə yeyilsin gərək,
Ayaq üstəcə yeyilməz çörək.

Ən böyük nemət çörəkdir, oğlum!
Çörəyə hörmət gərəkdir oğlum!





Əriştə[40]

– Əriştə həkimdir ey,
Mən bilirəm, bala, mən!
Ölünü dirildirəm
Əriştəylə, vallah, mən!

Ay Anarım,
Hər həkim
Çatmaz ona hünərdə.
Dizlər çökdürüb, bala,
Əriştə neçə dərdə!

Yorğunsan... əriştə vur,
Soyuqlamısan... buyur.
Bir kasa da bəsindi –
Sapsağlam ayağa dur.

---

[40] Bibim oğlu Yengibar pandemiya vaxtı mənə zəng elədi: –Sənin o şeirin var, ey – bilməcə, onun reseptini ver mənə. Dedim, bəlkə "əriştə"? Həəə... əriştə. Şeiri oxudum. Amma kovid onu da apardı. Sonralar böyük qardaşı – bibimoğlu Kərbəlayi Ehtibar mənə dedi ki, əriştəni içən səhəri Yengibar dedi, Ehtibar, bu gecə çox yaxşı yatmışam. Bu şeiri Yengibar bibioğlumun xatirəsinə tapşırdım. Allah rəhmət eləsin!

–Ay nənə, tərifl ədin,
Ağzımın suyu axdı.
Mən bilən beləsini
Yeməmişəm ha vaxtdı!

Tez ol görüm, ver bəri,
Kasayla göndər bəri!

–Hazırdı hər yarağım,
Bu, soğanım, bu, yağım,
Turşum, yarpızım, duzum,
Bu da qazan dolu su!...

Dayan, kündəni yayım,
Fətir kəsim – doğrayım!

Əlimi görməcəksən
İndi, bala can, işdə...
Gözünü yum... aç...
Buyur... bu da sənə ərişdə...

Qaşıq-qaşıq içirəm,
Damcı-damcı tər çıxır.





Canımdan-ciyərimdən
Elə bil zəhər çıxır.

Haçan yuxu aparıb,
Haçan yatmışam görən?!
Ayılanda baxıram,
Sappasağ olmuşam mən.

Düzü, çaşıb qalmışam
Bu işə, bu işdəyə –
Kimə təşəkkür edim
Nənəyə, əriştəyə?!

Coğrafiya dərsi



*A*bşeron

*X*əritəyə bax, –
Mavidi,
Zərdi.
Bura – Abşeron,
Bura – Xəzərdi.

Qartala bənzər
Odlar diyarı,
Şığıyıb gedib,
Dənizi yarır.

Qartal başıdı
Abşeron,
Bir bax,
Əyri Şah dili
Dimdiyidir, bax!

Torpağı qumdu,
Suyu bal kimi... –
Yatır yer altda
Sakit – lal kimi.





Arteziyan qazıb,
Ver bu suya əl,
Sonra ək-becər,
Yır-yığışır, gəl.

Eləysə onda
“Abşeron” nədir?
“Ab”
“Su”dursa, bəs
Bu “şoran” nədir?

Şoran torpağın
Barı olarmı?!
Belə yüz cürə
Varı olarmı?!

Yox-yox,
“Abşeron”
“Ab-şoran" deyil[41].
Yaxşıca baxsan,
“Əfşəran”dı bil.[42]

---

1. «Şor su” (farsca)
2. Burda yaşamış qəbilə. Şərqi Abşeronda “Əfşəran” şəhəri olub.

Xəritəyə bax, –
Mavidi,
Zərdi.
Bura – Abşeron,
Bura – Xəzərdi.





*K*ürdəmir

– *K*ürdəmir – “Kürd Əmir”mi,
“Kür dəymir”mi? –
Yoxsa, nə?...
Nə deməkdi Kürdəmir,
Ay baba can, desənə?!

–“Kürdəmir” sözündəki
Mənanı özündə gəz, –
“Kürdəmir”, ay can bala,
“Kürd Əmir” ola bilməz.

Kürdün isti Aranda
Nə dərdi, azarı var,
Axtar-ara, tap görək,
Burda kürd məzarı var?!

Qaldı ki, “Kür dəymir”ə,
Bəs “Ağsu”ya nə deyim?!
Ora da Kür dəyməyir,
Niyə Kürdəmir deyil?!

Oğlum, keçmişdə burda
Bir qəbilə yaşarmış,
Dəmir adında bir sərt
Başçıları da varmış.

Belə sərt adamlara
“Kür” deyirlər, qoçağım.
Kürlüyünə görə də
Biz demişik Kür çayı!

O Dəmir kişinin də
Qalır Kür Dəmir adı,
O adla da bağlıdır,
Bala, Kürdəmir adı.

Nə “ Kür dəymir” dir,
Nə də “Kürd Əmir”di
“Kürdəmir”.
Deyərsən, danışarsan
“Kür Dəmirdi” “Kürdəmir”.





*X*açmaz

*B*iri “Xaçmaç” söyləyir,
Biri “Heçmatak” deyir,
Biri də “xaç sındıran”,
Hansı dilcə, – tap deyir?!

Babamın söz-söhbəti
Bir nağıldı, bir dastan,
“Xaç” – “xaç”dı, – söyləyərdi,–
“Maz”sa qalıb
“Namaz”dan.

Bu yerdə iki dinə bağlanıb,–
İki qəbilə binə bağlayır.

Biri xaçpərəst,
Dost, qonşucanlı.
Biri müsəlman –
Azərbaycanlı.

İki ağsaqqal gəlir birliyə–
“Bu yurda bir ad qoymayaq, niyə?!”

“Xaç” desək, müsəlmanın
Xatirinə dəyərdi.
İşdi “Namaz” söyləsək,
Xaçpərəst inciyərdi.

İki dost qəbilənin
Xətri xoş olsun deyə,
Onlar “Xaç-Namaz”adı
Qoyurlar bu birliyə.

Ötdü illər, fəsillər,
“Xaçmaz” oldu “Xaç-Namaz”.
Babalar qoyan addı –
Dostluq şəhəri – Xaçmaz!





*S*əngəçal

–*B*ura nədir?
–Səngəçal,–
Bir şəhərdir Səngəçal.

Nefti var – “qara qızıl”,
“Mavi qızıl”dır qazı.
–Bəs bu adın mənası,
Ata, nədi mənası?

–Özün düşün, fikrə dal,
Nə deməkdi “Səngəçal”? –
“Səng – əcəl”[43],
Ya “Sən gəl, çal”[44]?

---

3. “Səng” – “əcəl, ölüm” (farsca).
4. “Sən gəl, çal (sahib ol)” (Azərbaycan türkcəsiylə).

*X*əlsə kəndi[45]

*K*ürün sol sahilində
Bir kəndciyəzdi Xəlsə,
Çoxu elə bilir ki,
“Xəlçə” deməkdi “Xəlsə”.

Qanbay əmi söylədi,
Saxlamışam yadımda, –
Bəy babamız olubdur
Qəhrman bəy adında.

Bir də ki, bir kənd olub,–
Qəhrmanbəyli kəndi.
Bir yanı Kür,
Üç yanı
Meşədi, çöl-çəməndi.

Yuxarı başda bəylik,
Aşağı başda tarla, –
Əkinçi, əkin yeri,
Xış, kotan, öküz, mala.



[45] ***Kürdəmirin Kür üstü kəndi.***



Əkinçi nə, bir hovur
Durub-dayanmaq hara?!
Bəylər “xəlsə” deyərmiş
Burda yaşayanlara.

Varlıya yetişərmiş
Yığşırılan bar-bəhər...
–“Xəlsə” nədi, ay əmi?
–“Xəlsə”mi?!
“Xəlsə – rəncbər”...

–Bəs “rəncbər” nədi?
–Rəncbər
“Əkinçi”di, “muzdur”du,
Harda çörəyi çıxsa,
Ora olardı yurdu.

Böyüdü, yaşa doldu,
Qalxdı, ucaldı Xəlsə.
“Bəylik”dən meşə qaldı,
“Rəncbər”dən qaldı Xəlsə.

*G*ilavar

*–B*ilirsən niyə
İstidir hava?
Axı səhərdən
Əsir gilavar.

–Yaman danışdın,
Söz tapıb sən də,
Külək deyilmi,
Nolar əsəndə?!

–Buxardı sanki, –
Buludlara bax.
Sürünüb gedir
Köç –
Qalaq-qalaq.

Çox da yer üstə
Yel var, axın var,
İsti küləkdir
Axı Gilavar!





Keçib İraqdan,
Aşıb İrandan,
Əsir Afrika
Torpaqlarından.

Yolda tuş olmur
Gölə-dənizə,
Yay-qış istilik
Daşıyır bizə.

Bildinmi niyə
İstidir hava,
Cənubdan əsir
Axı Gilavar?!

*Q*uru çay[46]

–*N*ənə, nədir bu?
–Bu, çaydır, oğlum.
–Belə çay olur?!
–Quru çaydır, oğlum.

–Elə söz de ki,
İnanım sənə,
Hanı bəs bunun
Suyu, ay nənə?

–Oğlum, bu çay ki,
Bu düzlərdə var,
İsti haçan ki,
Düşər, – quruyar.

Baxma ki, daşdı
İndi hər yanı,
Gördün ki, daşdı... –
Basdı dünyanı.



[46] ***Quba və Xaçmaz rayonları ərazisindən axıb Xəzərə tökülür.***



Körpülər yıxar,
Yollar dağıdar,
Gedib Xəzərə
Çıxar axırda.

Gördün çağlayıb,
Axır bu çaylar,
Fəsli çaylardı
Axı bu çaylar!

*S*ığırlı[47]

*M*aral balası boyda
Çöl heyvanıdır sığın.
Dincliyi yoxdur bir an
Qorxusundan yazığın!

Bir də sığır var, sığır,
Yeri də çöl, səhradı.
Bizim dilcə sığırın
“Mal” deməkdi bir adı.

Bu adları kim verib,
Niyə verib, nədəndi?!
“Siğırçı” da var hələ,
Bu da ki, “mal güdən”di.

Mal-qaraya mehriban
Quş var, – qanadı qırçın. –
Şaq-şaq döyüb dimdiyini,
Çırtma çalan sığırçın.

[47] ***Kürdəmirdə kənd.***





Ayrıca bir söz də var,
“Sığır” sözündən gəlir.
Bir dənə şəkilçiylə
“Sığırlı” düzəlir.

Sığırlısa, əzizim,
“Mallı kənd”di mənaca.
Bakı-Kürdəmir yolunun
Sağ əlindədir ancaq.

Vatan



*V*ətən

*V*ətən torpaq, daş deyil,
Vətən vətəndaş deyil.
Can evi candır Vətən,
Hiss-həyəcandır Vətən!





*A*zərbaycan

*İ*ki hecadır “Ana”,
İki hecadır “Ata”,
İki hecadır “Vətən”.
Bəs nədən –
İki analı olmur,
İki atalı olmur?!
Bəs nədən,
İki paradır Vətən?!

*V*ətən – yəni biz...

*B*öldüm hecaya “Vətən”i – “Və - Tən”,
Nə deməkdi “Və”, nə deməkdi “Tən”?
Bağlayıcıdır “Və”, dərslikdə var,
Min fikri, sözü açar, bağlayar.

Bəs “Tən”?
“Tən – bədən”,
“Tən –düz”,
“Tən – yarı –
Hansı uyardı bu mənaların?!
Əlbəttə “Yar”ı,
“Yarı”, yəni “Tən”,
Eləysə onda nədir bəs “Vətən”?

“Və”dən qabağa – onlar, sən və mən,
“Və”dən arxaya qalan yarı – tən.
Topla bu ayrı “Yarı”ları sən –
Bax, bu birlikdən yaranıb Vətən!

Vətən, yəni biz – bir qəlbdə – canı...
Güneyli, Quzeyli Azərbaycanım!



*E*y Türkün övladları

*Y*arın düşmən səfini,
Göz dikib Vətən sizə!
Bu gün oğul tanımır
Ana yurdum tən sizə!

Vurun keçin!
Qırın keçin!
Zəhri yarılsın yağının!
Yaxın!Yıxın!
Hay çəkin, hayqırın keçin!

Quduzdu, hiyləgərdi,
Qəlbində qat-qat kini...
Ey türkün övladları,
Unudun Türk rəhmini!

Vurun keçin!
Qırın keçin!
Zəhri yarılsın yağının!
Yaxın!Yıxın!
Hay çəkin, hayqırın keçin!

İntiqam

–Ay ata, ermənilər
Raketlərlə vurubdur,
Gecə yatdığı yerdə
Gəncəni.

Qanına bələyibdir
Neçə-neçə ananı,
Neçə-neçə uşağı,
Neçə-neçə qocanı,
Gəncini.

–Oğul, intiqamını
Beş-on qat almışıq biz!
–Nə xeyri varmış, ata,
Dirilib duracaqmı
Ölüb-itənlərimiz?!



*N*iyə bəs

*–E*rməni də müsəlmandır,
Ay baba can, söylə bir?!
–Nə pis söz danışırsan,
Ağlın azıbdır nədir?!

–Tutaq ki, ağlım azıb,
Sözlərim də pisdi lap.
Mənə başa sal barı,
Niyə bəs Qarabağa
Silah daşıyan Rusun,
Qarşısını kəsməyir
İran müsəlmanları?!

*M*ələk Məmməd
öldürdüyü Əjdəha dirilibmiş

*M*əktəbə aparardı
Hər səhər atam məni,
Öpərdi üz-gözümdən,
Dişləyərdi çənəmi:

–Nə şirin baladır bu,
Allah qorusun bunu!
Qucaqlayıb boynunu,
Mən də öpərdim onu!

Düz bir aydı görmürəm
Atamın üzünü mən:
–Ana, atam hardadı,
De, bilim düzünü mən?!
Yamanca darıxıram,
Səhərlər oyananda
Yatağına baxıram.

–Ay bala, atan gedib,
Döyüşür ermənilə...





–Həmin o erməni ki,
Tutub torpağımızı,
Suyumuzu kəsibdi?!
–Bir gün, bir ay deyil ki,
Bala, düz otuz ildi!

–Demək,
Məlik Məmmədin
Öldürdüyü Əjdəha
Dirilib gəlib cana?!
Atam gedib onunla
Döyüşə girib, ana?!

Eybi yox, qoy darıxım,
Atam gec dönsün geri, –
Öldürsün Əjdəhanı,
Məhv etsin pisliklәri!

*Ş*əhid uşaqlarımız

Erməni əsgərini
Qorxaq doğub anası, –
Odur ki, dovşan kimi
Qorxur əsgərimizdən!

Döyüşlər başlayanda
Tir-tir əsir...
O anda
Silah düşür əlindən:
“Oy ana, qorxuram mən!”

Ya ölür...
İtir...
Gedir...
Ya da qaçıb gizlənir,
Daldadan güdür bizi.
Gecə yatdığımız yerdə
Rusiya silahıyla
Vurub, öldürür bizi!



*S*ülhü neyləyirik biz...

*Q*əşəmşəm açdı qapımı,
Pərt durdu qabağımda:
–Necə sakit oturmusan,
Necə rahatsan, baba?!

–Nə olubdur, ay oğul?!
–Sənə pis xəbərim var –
Hələ şəhidlərimizin
Alınmayıbdır qanı,
Televizor deyir ki,
Müharibə dayanır.

Axı Prezidentimiz
Şəhid analarına
Söz vermişdi o günü:
“Sonacan gedəcəyik,
Düşməni Qarabağdan
Vurub rədd edəcəyik!”

İndi bəs bu nə işdi,
Torpaqlarımız yanır,

Müharibə dayanır?!
–Sən deyən deyil, bala,
Düşmənlə aramızda
Sülh elan olunubdur...

–Nə danışırsan, baba,
Sülhü neyləyirik biz?!
Məgər azad olubdur
İşqaldan Vətənimiz?!

–Müvəqqəti sülhdü bu.
–Müvəqqəti nə demək?
–Döyüş meydanlarından
Meyitləri götürüb,
Əsirləri dəyişmək...

Sonra düşmən çıxmasa
Xoşluqla Qarabağdan,
Toplar guruldayacaq,
Mərmilər partlayacaq...
Ya düşmən diz çökəcək,
Ya da ki, məhv olacaq!

Şəhid balaları

Şair dostum Tariyel Ümidin Qarabağ uğrunda şəhid olmuş kürəkəni Mayisin övladları Məleykə və Süleymana.

Bizimlə bir sinifdə
Şəhid uşağı oxuyur.
Partasının qarşısında
Atasının şəklidi, –
Azərbaycan bayrağıyla
Bərabər – qoşa durur.

Elə ki, dərslərindən
“Əla” alır, sevinclə
Dik baxır atasına –
Bir anlıq gülümsünür.
Sonra da ah çəkərək,
Sağ əlinin dalıyla
Göz yaşlarını silir.

*D*ron

–*B*aba, xəbər satıram,
Sevinc doludur içi.
Dronunu vurubdur
İran erməni-bicin!

–Səhv etmə, oğul bala,
Ermənіyə heç zaman
Ziyan yetirməz İran!

–Saytlar dolub daşır
Bu sevinclə birə on!..

–Bala, avamlıq etmə,
Yəqin İran səhv salıb,
Elə zənn eləyib ki,
Bizim drondur dron!





*Ş*ir kimi vuruşuram

O qədər qələmim var,
İtirmişəm sayını,
Hücum çəkib tuturam
Erməni cəbhəsini –
Stolu, çarpayını.

Zeynəb də tez-tez deyir:
–Bu qədər dəftər, qələm,
Pozan, panel, karandaş, –
Nəyinə lazım, qaqaş?!

–Niyə nəyimə lazım,
Erməni əsgərinə
İntiqamla coşuram?!
Görmürsən bəs onlarla
Şir kimi vuruşuram?!

Şikəst atam...

Atam şikəst qayıdıb
Qarabağ cəbhəsindən.
İncikliyi, pərtliyi
Əskik olmur səsindən.

Bütün günü, az qala
Nə danışır, nə dinir, –
Bir də görürsən qəfil
Hirslənir, qəzəblənir:

–Tək ayaqla qayıtdım
Cəbhədən arxaya mən.
İndən belə bir kəsə
Lazımammı, aya, mən?!

–Ay ata, bu nə sözdü,
Fərari ki, deyilsən?!
–Vallah,
Elə bilirəm,
Bala, fərariyəm mən!





Orda bizim uşaqlar
Aslan kimi döyüşür,
Erməni əsgərinin
Ruhuna alov düşür.

Burda mən də yanımı
Yerə verib, yatıram.
Təsəlliylə-filanla
Özümü aldadıram!

*B*iz vətəndaş deyilik

*A*tam avtomatını
Çiyninə saldı çıxdı:
–Getdim, salamat qalın!

–Məni də gözlə! – Deyə,
Babam da əsasını
Əlinə aldı çıxdı.
–Bəs mən?! –
Nənəm də maşanı
Əlinə aldı çıxdı.

–Siz hara?! – Çığırdım mən.
–Biz vətəndaş deyilik?!
Orda cənab Ərdoğan
Hayqırıb Aslan kimi,
Dünyanı ayıq salır.
Burda şanlı ordumuz
Düşməndən qisas alır.

–Biz də! – Nənəm bağırdı...
–Biz də! – Babam bağırdı... –





Gedirik əjdahanın
Kəlləsini yarmağa!
Müqəddəs yurdumuzu
Ləkədən qurtarmağa!

*A*ldıq Şuşanı da biz

*A*ldıq Şuşanı da biz,
Ağrımızı unutduq.
Silahları baş-başa
Çatıb,
Bir dəstə tutduq.

Bah, müğənnimiz də var,
Döyüşən şirdi ki, bu!
Tapıldı tar çalan da,
Topçu Bəşirdi ki, bu!

Sağda-solda arabir
Mərmi düşüb partlayır.
Bu, düşmən ürəyidi,
Həmləmizdən çartlayır.

Orda tank nərildəyir,
Bu yanda tar bəmdədi.
Üçrəngli bayraq altda
Hərə bir aləmdədi.





Ey bu günü görməyən –
Günəşi batan əsgər!
Toyu yarımçıq qalıb,
Ey şəhid yatan əsgər!

Qurtulduq, gözün aydın,
Yağının yadlığından!
Vətən dinclik qazandı
Sənin rahatlığında!

Əkin-dirrik bilməyən
Torpağa toxum düşər,
Ot basmış yollarımız
El-obayla görüşər!

Qol çırmayıb başlarıq,
Vaxtdı, toy-düyünə biz!
Azərbaycan, nəfəs dər,
Day çıxdıq ağ günə biz!

*B*u iki parça...

*U*zanır çay boyunca,
Gah da çayı bölür tən.
Bu iki parça olan
Sənin köksündür, Vətən!

Niyə ikidir adın,
Ay sənə qurban canım –
Şimal Azərbaycanım,
Cənub Azərbaycanım!

Atdöşü qovulanda,
Qanı damanda daşa –
Neçə min ermənіyə
Sığınacaq verdik:
– Yaşa...

Bəs bu gün?!
Silah çəkib,
Düşmən çağırır məni.
Deyir: “Torpaq mənimdi,
Bölməliyik Vətəni!..”





–Çörəkdisə, gəl bölək!
Axı bölünməz Ana!
Sənə öz döşlərindən
Süd verməyib bəs ana?!

Uzanır çay boyunca,
Gah da çayı bölür tən.
Bu iki parça olan
Sənin köksündür, Vətən!

*B*ayraq nədi, gerb nədi

–*B*aba can, bayraq nədi?
–Bayraq – xalqın qeyrəti.
–Bəs gerb nədi?
–Gerb də ki,
Mənasıdır dövlətin.

–Niyə rus gerbindəki
İkibaşlıdı qartal,
Yəqin ki,
Mənası var?

–Burda gizli bir iş yox,
Fikirləşsən taparsan!
İkibaşlı iş görür
Rusiya hər bir zaman!

Sülhməramlı adıyla
Giriblər Qarabağa.
Daşıyıb ermənini,
Gətiriblər Qarabağa.



Demirlər, bu torpağın
Sahibi, sakini var.
Görünür ki, qardaşın
Bizə böyük kini var.

Kəlbəcərə, Laçına
Yolumuzu bağlayıb.
Qıçımızı çidarlayıb,
Qolumuzu bağlayıb.

Düşmən çəkməsi altda
Didilir vətənimiz.
Şəhidlərin qan bahası –
Torpağı azad etdik,
Əsir düşdük Rusa biz!

*R*usun qayda-qanunu

–*A*y baba, Qarabağda
Nə işi vardır rusun?
–Bala, gündə yüz dəfə
O sualı özümə
Verirəm mən doğrusu?

–Yəqin bir şey bilərsən?
–Rusun dediklərinə
İnanmış olsaq əgər, –
Guyya ki, Qarabağda
Qayda-qanun yaradır.

–Qayda nə, qanun nədi?
–Qanun – böyük qaydadı,
Kiçik qanundu – qayda.

–Ay baba, anlamadım
Sözün deyilişini?
–Mən də anlamıram heç,
Vallah, rusun işini!





*G*üclü-gücsüz...

–*A*y baba, pəhləvanlar
Döyür qonşularını?
–Elə şey olar, bala?!
–Güclü adamlar necə,
İncidirmi gücsüzü?

–Onu tutarlar, bala!
–Niyə tutarlar axı?
–Qanun var axı!

–Nədəndir ki, Rusiya
Qoluzorluq edir bəs?!
Gücsüz, xırda xalqların
Üstünə gedir bəs?!

Qopardıb Moldovanın
Bir hissəsini tutub,
Ukraynaya basıb girib, –
Krımı qamarlayıb,
Donbasda bardaş qurub.

Parçalayıb Gürcüstanı,
Hiyləylə özünə qatıb!
Liviyanı, Suriyanı
Top-tüfənglə dağıdıb...

İndi də quzğun kimi
Caynağını çalıb rus,
Minlərlə şəhid verib,
Aldığımız Qarabağı
Əlimizdən alıb rus!





*M*əktəblinin intiqamı

–*“A*zərbaycan türkcəsi”ni
Necə bilirsən, bala?
–Hərdən “yaxşı” alıram,
Hərdən alıram “əla”.

–Üzgörənlik eləyir
Güman ki, müəllimən.
“Rusiya” boyda ölkəni
Nöqsanla yazan kəsə
“Üç”ü də qıymaram mən.

–Nöqsan nədi, ay baba
Sən məni bir başa sal?!
–O boyda “Rusiya”nı
Kiçik hərflə yazmısan!

–Ay baba, and içmişik
Şəhidlərin ruhuna –
Necə ki, rus əsgəri,
Xalqımızı saymadan,

Girdi Azərbaycana, –
Qısaltdı dilimizi,
Qat-qat kiçiltdi bizi.

Nə qədər ki, onların
Əsgər çəkməsi altda
Əzilir Vətənimiz,
And olsun Cavanşirin,
Babəkin ruhuna ki,
“rusiya” adlı adı
Kiçik yazacağıq biz!





*B*abəkin nəvələri

“Bir rus görəndə oluruq xar yanında,
...Çünki nəçiyik biz?! –
...Quzu-keçiyik biz!”
M.Ə.Sabir

*Q*əşəmşəm internetə
Baxdığı yerdə birdən,
“Putin – vor! Putin – vor!
Putin – vor!”
Qışqırtısı
Ucaldı yerbə-yerdən!

–Ay bala, yum ağzını
Tez o qışqıranların!
–Polis olmusan, baba,
Hanı silahın, hanı
Çiynində nişanların?!

–Görmürsən padşahı
Təhqir eləyir onlar?!
–Nə təhqir, şüar deyir
Nümayişə çıxanlar?!

–Şüar nədi, ay bala,
Fikir ver əvvəl-əvvəl, –
“Oğru”ya “vor” deyr rus,
Qana salma bizi, gəl!

–Bizikmi “oğru” deyən,
Ruslar deyir özləri?!
O boyda Moskvanın
Məgər görmür gözləri?!

Rusların qabağında
Söz deyə bilirik biz?!
Ayaq altda qalıbdır
Müqəddəs vətənimiz!

Başa düşə bilmirəm
Ağlım kəsəndən bəri, –
Niyə qorxaq olubdur
Babəkin nəvələri?!



*Q*ardaş nədi, qonşu nə...

–*A*y baba, qardaş nədi?
–Bir anadan doğulan,–
İki bədəndə bir can!

–Qonşu nədir onda bəs?
–Min-min insan övladı,
Hər birinin öz adı...

–Qardaş doğmadı, yoxsa
Qonşu doğmadır bizə?
–Qardaş istəməz sənin
Ayağına daş dəyə!
Qonşu da var,
İstəyər – daş dəyə,
İstəməz –
Yavaş dəyə!

–Ay baba,
Onda söylə,
Türk nəyimiz olur, hə?

–Türk qanı qanımızdan
Qardaşımızdı bizim!

–Rus da qardaşımızdı?
–İslami İran kimi,
Xaç Ermənistan kimi
Rus qonşudur, əzizim!

–Niyə bəs onda gəlib,
Qarabağa girib
Rus?!
Atam deyir ki,
Bizə –
Başağrısı, qan-qada,
Ermənіyə
Rahatlıq gətirib
Rus!

Niyə görə qonşunu
Belə əziz tuturuq?!
Doğma qardaşımızı
Unuduruq?!



Niyə dinmirsən, baba,
Eşitmirsən, baba?!

Ay kişi, yatdın nədi,
Sənə çatmır sözlərim?!
–Ay bala, millət yatır...
Nə yaxşı görməyirsən,
Məni görür gözlərin?!

*Q*əşəmşəm girir döyüşə

–Hara gedirsən, baba?
–İşə –
Alış-verişə.
–Desəm, bir şey alarsan?!
–Almaqdan, gətirməkdən,
Vallah, yorlmuşam mən!

–Niyə xəsis olmusan,
Ay baba, birdən, niyə?!
–Pulu yerdən tapmamışam,
Verim cipsi-mipsiyə!
–Cipsi nədi, ay kişi,
Daha ciddidir işim?!

–Buyur, ciddisini de!
–Bir cüt buynuz al mənə!
–Buynuzu neyləyirsən?!
–Qoç olacam!

–Nə əcəb?!
–Qarabağa soxulan,





Ermənіyə dost olan
Rusla kəllələşəcəm!

–Uşaq-uşaq danışma,
Rusun bərkdi kəlləsi,
Rusun zorbadır canı!

–Niyə qorxursan, baba,
Bəs sən kimsən,
Biz kimik,
Kimdi Azərbaycanım?!

Özün yüz yol danışmısan,
Yadımdan çıxmır bir an, –
Keçi deyildir məgər
Qurdun qarnını yırtan?!

Təbiət gündəliyi



*T*orağaylar

Əl götürməz yoldan-rizdən,
Qar da bassa yeri dizdən–
Nəğmə deyər şirin-şirin,
Saya salmaz
Yaydır - qışdır torağaylar.
Yolda daşdır,
Göydə quşdur torağaylar.



*S*ərçələr

Yaz ki, girdi,
Yeyər, içər, dirçələr
Qarnı dönər nağaraya –
Boz köynəkli sərçələr.

Qışda qar qoyar yerə,
Çöllərdən tükənər yem,
Büzüşüb dönər yumağa,
Qısılar bir budağa
Buz köynəkli sərçələr.

*Q*uşlara məktub

*T*ut ağacı – yay süfrəniz,
Yaylaq kimidir yeriniz.

Gəlin, gəlin, sərçəciklər,
Sığırçın – sarıdimdiklər!

Qaranquşlar, dəstə tutun
Şax budağında şahtutun!

Ay göyərçin, alabaxta,
Yeriniz var min budaqda!

Bülbül gəlsə təkcə gələr,
Bildirçin xəlvətcə gələr.

Gələr leylək, qonub durmaz,
Qarğa bir hovur oturmaz!

Tut ağacı – yay süfrəniz,
Yeyin, yaylaqdır yeriniz!



*Y*az

*Y*az gəlib, dişərib[48] yollar, yamaclar,
Diksinib oyanıb otlar-ağaclar.

Kollar açıb-töküb saç-birçəyini,
Qıymaz yol ötənə gül-çiçəyini.

Qıy çəkən qırqovul yaz aşığıdır,
Düz-dünya baharın yaraşığıdır.

Oyanıb, oxşanır körpə bənövşə,
Qarışqa iz salır təpəyə-döşə.

Sığırçın havası, sərçə cik-ciki...
Bildirçin yuvası, bülbül evciyi,

Axar su, yaşıllıq qəlb işığıdır,
Düz-dünya baharın yaraşığıdır.

Bülbüllər oyanıb sökülməmiş dan,
Ötür birəbitdən Günəş doğandan.

[48] ***Dişərib – bitib, cücərib.***

Qaranquş bilmir ki, yorulmaq nədir,
Uçur – dərə nədir, keçir – dağ nədir!

Torağay səksəndi, qartal şığıdı,
Bu da təbiətin yaraşığıdı.

Sahili Kür yuyur, güllər uyuyur,
Dünya gözəlləşib, dur ayağa, dur!

Uşaqlar sığışmır bağa-bağçaya,
Cühürdən[49], qayadan tökülür çaya.

Dağların zirvəsi qar işığıdır,
Günəş də göylərin yaraşığıdır.

Yaz gəlib, dişərib çöllər, yamaclar,
Diksinib oyanıb otlar, ağaclar.

[49] ***Cühür – çayın dayaz, çimərlik sahili.***

*Q*aranquşlar

*A*ğaclar adam kimi
Batıb dizəcən qara,
Çaylar mürgü vururdu
Baş qoyub dağ – balınca.

Qaranquş da qayıtdı,
Səda salıb dağlara:
–Mən gəldim,
Xəbər verəm,
Yaz da gəlir dalımca.

Yuxulu oğlum kimi
Çeşmələr qurcalandı,
Dayadı dağ buzuna
Körpə dodaqlarını.

Sanki göyün Günəşi
Birdən aşıb –calandı,
Meşə çəkib çıxartdı
Qardan ayaqlarını!

Qaranquşa sevindi
Mənim balam o ki, var.
Dedi, qaranquş yazın
Nəğməli ürəyidi!

Dedi, onun səsiylə
Günəşləndi bu hava,
Onun gəlişiylə də
Dağlarda qar əridi!

Qaranquşlar baharın
Nəğməkarıdır, amma
Qaranquşlardır elə
Onun səsi, sədası.

Yaz nəfəsi dəyməmiş
Ağaclara,
Adama,
Onlar uçub gələr ki,
Salamlasın bu yazı!

Dil-boğaza qoymadan
Nəğmə deyər, yorulmaz,





Tənə də eləməzsən
Harayına, hayına.

Onlar xoşbəxt quşdu ki,
İstəyinə düşüb yaz,
Qaranquşluq düşübdür
Qismətinə, payına!

*T*oyuq

*A*yağım var – dənim var,
Daş dələn gödənim var.

Gödən nədi?
Mədəcik,
Acanda cik-cirik-cik...

Bilmərəm aclıq nədi,
Hirs nədi, acıq nədi.

Bircə xoruz davakar,
Onunla nə işim var.

Ot qırpır, torpaq dadır,
Dimdiyim torpaqdadır.

Ayağım var – dənim var,
Daş dələn gödənim var.



A quşlarım...

A quşlarım, gəlin görüm,
Dən verim, dənlənin, görüm!

Arpa əkmişəm, saralıb,
Qılçığını yerə salıb.

Söz verirəm – bütün günü
Toy olar cüllütün günü!

Sığırçını day demirəm,
Neylər torağay, demirəm.

Burda yeyər, burda acar,
Bülbül ötər budaqdaca.

Yay yetişib yarı yaşa,
Hardasan, yoldaş dolaşa?!

Bağçamıza gəlin, görüm,
Dən verim, dənlənin, görüm!

*Q*arı-qarı-qarışqa...

–*Q*arı-qarı-qarışqa,
Getmə,
Bizə qarış, qal.

–Getməyə bir yerim yox,
Heç yana səfərim yox.

–Nədir səndə bu həvəs,
Neyləyirsən onda bəs?!

–Həvəs deyil,
İşdi bu,
Gündü,
Yaşayışdı bu.

Sona yetişir ki, may,
Dən çəkirəm yuvama!

–Atam biçib zəmidən,
Nə qədər istəsən – dən!





Hamıdan əvvəl-əvvəl,
Dən verim bir ovuc, gəl.

Qarışqa çıxdı getdi,
Bu nə acıqdı getdi.

*Z*ağca

*Z*ağcadı adım,
Rəngim qaradı.

Bir quşam – ayıq,
Gəlin, sınayın.

Yerim – şum yeri,
Şum hərələri[50].

Səpindi, dən var,
Qarr-qarr-qarr-qar...

[50] ***Cərgə, sıra.***



*A*slan[51] və quşlar

*–N*ecəsən, ay sağsağan?
–Çox sağ olun, sap-sağam!
Yumurta var, varam mən,
Olmaz, oğurlaram mən.

–Ay qara qarğa, bəs sən?
–Qoymur dincəlim Həsən!
Əlindən salmır daşı,
Mənə qarışıb başı.

–A sərçə cik-cik, nə var?
–Nə olacaq, toyuqlar
Qoyurmu dən dənləyim, –
O deyir mən dənləyim,
Bu deyir, mən dənləyim,
Kölgədə sərinləyim.

Bəs yazıq sərçələr, bəs
Rahat dənlənə bilməz?!

[51] ***Bu şeiri 45 illik dostum, yazımı, tədqiqatçı Şəmistan Nəzirlinin oğlu Aslana həsr etmişəm. Onda balaca bir oğlan idi.***

*K*eçi

*K*eçiliyi neylər keçi?
Keçiliyin eylər keçi!

Ayaq çəkməz yamacdan,
Ağız çəkməz ağacdan.

Buynuzu var – sümükdən,
Saqqalı çəngə tükdən.

Quyruğu bir qarışdı,
Küsdüm...
Özü barışdı.

Yenə çıxıbdı yurddan,
Qorxusu yoxdu qurddan.

Qurd görsə, qurdu damlar, –
Qurdu qırıb adamlar!

*C*ücələr

*C*ücələrim cip-cip-cip
O ki, var yeyib-içib.

Yeri eşirlər elə,
Civildəşirlər elə.

Oynayan, oynaqlaşan,
Dən üstündə dalaşan,

Dördələmə çapan kim,
Dimdikdən dən qapan kim.

–Suya gedək, bacılı?!
–Gəl darayım saçını!

–Dur burdan atdan-atdan...
Ana çıxıbdı yaddan!

*Y*ağış

Çən ötdü...
Çiskinlədi,
Göy dindi,
Yer dinlədi.

Qaçdım içəri girdim,
Elə bildim kiridi.

Yağış qaldı bayırda,
Çalır, çapalayır da.

Mənə verir ki, acıq:
–Tut ucumdan,
Göyə çıx!

Dedim:
–Nə var yağmağa,
Dolu, ya qar yağmağa?!

Get quru çöllərə yağ,
Göy otlar tutsun ayağ.





Söyüdə, göyrüşə yağ,
Otlağa, örüşə yağ.

Sünbülü qucaq-qucaq
Yaşıl zəmilərə yağ.

Lənkərana yağma, gəl,
Kürdəmirə yağ əvvəl!

Qobustana yaşıl ol,
Deyim, nə yaraşır, oy!

Çən ötdü...
Çiskinlədi,
Göy dindi,
Yer dinlədi.

*Y*azıq qar

*G*ecə, qapqara gecə,
Qara cücədən qara.
Mənim yazığım gəlir
Gecələr yağan qara.

Yağır, –
Ağappaq yağır,
Yağır,–
Şappa-şap yağır.
Yağır,–
Tək qalıb fağır,
Görünmür adamlara.



Çoban-bayatı

Dağ başı yeltutandı,
Baxma bu mənzərəyə.
Yamaclar əltutandı,
Sürünü sür dərəyə.
Ocaq çat, çırpı[52] yandır,
Bir qoyun sağ hərəyə!

Payızdı bu, yaz deyil,
Yal aşmağa yol gərək.
Əlli deyil, yüz deyil,
Eydirməyə[53] qol gərək.
Dələməsi[54] az deyi,
Bulaması[55] bol gərək!

Gül üşümür havadan,
Sürmə binəyə, gəlsin.

---

[52] *Çırpı – quru budaq, kol qırıntısı.*
[53] *Eydirmək – malı sağmazdan əvvəl əmcəkləri südlə dolsun deyə, iki barmaqla sıxmaq və ya balasını azca əmizdirmək.*
[54] *Dələmə – mənası "qatılaşma" olan, pendir halına düşmə ərəfəsində olan süd.*
[55] *Bulama – yeni doğmuş heyvanın südü.*

Gün çərtib[56], –
Söküncə dan,
Tapşır Bənəyə, gəlsin.
Nə qorxursan, ay çoban,
Qurd hanı iyə gəlsin?!

Quzu quzudur, bala,
Gözdən qoyma, –
Yayınar,
Süddən yanıq salma, ha,
Ortaq olma payına.
Çomağı ver oğluna,
Hay təpsin harayına!

Arıq salma, qışı var,
Dərisi ələ gəlməz.
Qarı var, yağışı var,
Tufanı dilə gəlməz.
Sürü-sürü mal-davar
Yol tutmaz,
Binə gəlməz.

[56] ***Çərtmək –Günəş doğmazdan əvvəl görünən işartısı.***

Qaldır arxacdan[57] yala,
El tapşırıb – sənindi,
Kərə[58],
Kürə,[59]
Boz, ala...
Sayımmı bir-bir indi?!
Yüz doğara yüz bala –
Hünər deyildir indi.

Dağ başı yeltutandı,
Baxma bu mənzərəyə.
Yamaclar əltutandı,
Sürünü sür dərəyə.
Ocaq çat, çırpı yandır,
Bir qoyun sağ hərəyə!

[57] ***Arxac –mal-qoyun yatağı, heyvanların çöldə istirahət yeri.***
[58] ***Kərə – qulaqsız qoyun.***
[59] ***Kürə – yarımqulaq qoyun.***

*P*işik və sərçə

*P*işik vurub sərçəni
Salıb pəncəsi altda.
Kəlləsini çeynəyir
Xırt-xırt... –
Çənəsi altda.

Sonra qanadlarını
Yolub verir küləyə.
Bayaqdan bu sərçəni
Yeyə bilməyir niyə?!

Nə sərçə-mərçə-nərçə,
Nə cik-cik, civ-civiymiş.
Bu sərçə sərçə deyil,
Yepyekə bir diviymiş!

Burdan üzür başını,
Çıxır başqa bir başı.
Pişik bilmir neyləsin,
Lap çaşıb.
Gah gedir xəyallara,





Gah da baxır yollara.
Qanlı dodaqlarını
Yalayır hərdən.
Yer tapmayır özünə
Səhərdən.

Pişik bərk narahatdı,
Bacarmayır özüylə.
Pişik yeyir sərçəni
Gözüylə.

*T*oyuq... yumurta... cücə...

*Y*umurtadan çıxan kimi
Qırt toyuq
Cücəni çəkdi altına.
–Mənim anam yumurtasa,
Bu kimdi?!
Budursa,
Yumurta kimdi?! –
Cücə gözlərini yumdu,–
Lap başım şişdi fikirdən.



O X Ş A M A L A R

*O*tlar

Buludlar ağlayıbdır,
Güllər gözü yaşlıdır.
Bənövşənin, lalənin
Gülər gözü yaşlıdır.
Əyib boynunu otlar,
Otlar şeh baxışlıdır.

*K*əndimiz

*K*əndimizə baharda gəl,
Göy otları çin-çin olar.
Hər addımda bir torağay,
Bir topa bildirçin olar.
Çiçəkləri yol yoldaşın,
Gülləri bələdçin olar.





*H*ələ

Arpa did vurub – çıxıb,
Günəşə durub, çıxıb.

Havalar sübh-səhərdi,
Küləklər təzə-tərdi.

Kol altda qarlar yatır,
Hələ ağaclar yatır.

*B*ağban

*B*alaca bağbanam mən,
Bir bağım var – yepyekə.
Yaşıl budaq içində
Çardağım var – yepyekə.
Ağaclarım – bar dolu,
Bar budağı – yepyekə.





Əkinçi

Əkinçiyəm, əkinçi,
Əkmişəm, becərmişəm.
Əkinçiyəm, əkinçi,
Becərmişəm, dərmişəm.
Nənəyə göndərmişəm,
Babaya göndərmişəm!

Gəldim Xəlsə kəndinə



*G*əldim Xəlsə kəndinə

*G*əldim Xəlsə kəndinə
Gəzdim evləri bir-bir.
Gördüm hamı mənimçün
Əmi, dayı, bibidir.

Bu,
Sifayə xaladı,
Qatıq çalıb adıma.
Camış qaymağının da
Burda baxdım dadına.

Nisə nənə nar dərib,
Verdi mənə hədiyyə.
Elə ordaca yedim,
Narı aparmaq niyə?!

Sən demə, göz qoyurmuş
Şıxalı baba, gördüm, –
Bir cüt nar da o dərib,
Zənbilimə ötürdü.





Əvəz dayı qarpıza
Qonaq etdi o ki, var.
Sonra saldı bostana:
–Birini də
Dər apar.

Əmimin camışı da
Erkək doğub bu gecə.
Nənəm ağuz südündən[60]
Bulama bişirəcək!

Babam hey gileylənir,
Qanı qaralıb yaman:
– Qızlarımız qız doğur,
Camışlarımız oğlan!

Vaqif əmi başımı
Qırxdı ki:
– Bilməyirsən, –
Yediyini tük yeyir,
Odur kökəlməyirsən!

[60] ***Ağuz südü – heyvan doğduqda əmcəyindən sağılan ilk süd.***

*K*əndimiz

*P*ayıza qalmaz barı,
Elə yayda soğular.
Cincilimi,
Yemliyi
Bircə ayda soğular,–
Bura Arandır axı!

Topa-laylı buludlar
Göylərinin varıdır.
Quşlarının yaylağı
Çinar budaqlarıdır, –
Bura Arandır axı!

Boylan Kür yaxasına,
Yaşılına al düşər.
Lap gecədən güllərin
Dodağına bal düşər,–
Bura Arandır axı!

Günəşli günləri bol,
Küləyi mehdi sanki.





Çiçəyinin qonağı
Arı yox, şehdi sanki,–
Bura Arandır axı!

Çaymı düşən üfüqə?
Nədir, tap de, qoçaqsan!
Çay deyil, ilğımdır o,
Ha get çatmayacaqsan,–
Bura Arandır axı!

Sərçəsi – yaz daşqını,
Arısı – yay...
Kəndimiz.
Gözəlləşir, gəncləşir
Hər gün, hər ay kəndimiz,–
Bura Arandır axı!

*Q*onaq gəlin Xəlsəyə

*K*ürün sol sahilində
Bir kəndciyəzdi Xəlsə,
Yüz xatirə deyərsən,
Bircə yol bura gəlsən.

Evlər itib-batıbdır
Yaşıllıqlar içində,
Günəş görməyir səni
Yollarından keçəndə.

Sərçələr, torağaylar
Nəğmə deyir yol boyu.
Yeddi rəngli xalıdır
Çəmən,
Çayır yol boyu.

Hər ağac budağında
Bir bülbül yuvası var.
Ağacdələnlərin də
Ağac nağarası var.





Çırtma çalır sığırçın
Teleqraf tellərində,
Yel söyüdün saçını
Oynadır əllərində.

Quş səsiylə çağlayır
Meşədən əsən külək.
Taxıl zəmilərimiz
Dalğalanır dəniz tək.

Pambığın çiçəkləyib,
Açmağına az qalır.
Şaftalılar sulanıb,
Dəyib ərik, albalı.

Ayrı cür ləzzəti var
Meyvəni budağından
Üzəsən şehli-şehli,
Üzəsən sulu-sulu.

Gözləyirik, tez gəlin,
Tez gəlin, ay uşaqlar,
Birgə yığaq məhsulu!

*K*əndimizin nəğməsi

*A*xırdı Kür güldür-güldür,
Sahilləri güldür... güldür.

Uşaqların çimərliyi,
Böyürtkəni, çiyələyi,
Yamacların yaşıl donu,
Tarlaların dolu qoynu,
Yeryemişi, quşəppəyi,
Cincilimi, bal pətəyi –
Axırdı Kür güldür-güldür,
Sahilləri güldür... güldür.

Bura Xəlsə meşəsidir,
Bir gözəllik guşəsidir,
Ağacların başına bax,
Yuvalardan – papaq-papaq...
Axırdı Kür güldür-güldür,
Sahilləri güldür... güldür.

Sarıköynək, qara qarğa,
Ağacdələn – hirsli ağa,





Çəyirtkəmi nəğmə deyən,
Sərçəmidir cikkildəyən?!
Şirin yemlik, acı biyan,
Laləyə dön – yamacda yan...
Axırdı Kür güldür-güldür,
Sahilləri güldür... güldür.

Dönüb yenə oda-közə
Birəbitdən dəymir gözə.
Dinlə barı cır səsini,
Yenilməyən həvəsini.
Elə bil ki,
İl uzunu
Kəsməyəcək oxusunu!
Axırdı Kür güldür-güldür,
Sahilləri güldür... güldür.

Günəşimi görüb gülür
Şehli-şehli nərgizgülü?!
Buluddanmı ya qov düşüb,
Ağaclara alov düşüb?!
Meşədənmi sökülür dan,
Yoxsa nardı belə yanan?!

Axırdı Kür güldür-güldür,
Sahilləri güldür... güldür.

Bar deyəndə, bar da budur,
Var deyəndə var da budur.
Alça dəyib, ərik dəyib,
Dəyib qalıb bal armudu!
Axırdı Kür güldür-güldür,
Sahilləri güldür... güldür.





*K*əndimizin yayı

*G*ünəş gülür – sökülür dan,
Oyanıram sübh yuxudan.

Elgün yatır mışıl-mışıl,
Yanağında tər oynaşır.

Məstan məni görüb qaçır,
İnək sağır Əzət bacım.

Toyuqlarım birəm-birəm
Qaçıb gəlir, dən səpirəm.

Atam gedib bütün yayı
Ağ Çalada yer şumlayır.

Babam deyir, şum geciksə,
Yer bitirməz, lap darı səp.

Oyanıram sübh yuxudan,
Görürəm ki, sökülür dan.

*K*əndimizin payızı

*P*ayız gəlib kəndimizə,
Kəndimiz xəyala dalıb.
Çayır solub,
Çəmən solub,
Ağaclar sarala qalıb.

Sarı bülbül hayandadır,
Kür oxuyur şırıl-şırıl?!
Meşələrə güllü bulaq,
Yamaclara gül yaraşır.

Xəzəlləşən bağlara bax,
Bar əyibdir budaqları.
Çatlayıbdır gülövşənin
Qırmızı nar dodaqları.

İydəlikdən yem daşıyır
Dimdiyində qara qarğa.
Xəbər tutub çöltoyuğu,
Görən hardan gəlib bağa?!





Yoxsa küsüb torağaylar,
Görünməyir yolda-izdə.
Qaranquşun hay-harayı
Kəsilibdir kəndimizdən.

Topa-topa buludların
İnci kimi yağışı var.
Payız yaxşı fəsilsə də,
Qarşısında boz qışı var.

Payız gəlib kəndimizə,
Kəndimiz xəyala dalıb.
Çayır solub, çəmən solub,
Ağaclar sarala qalıb.

*K*əndimizin qışı

*K*üləklər hanı, niyə əsməyir?!
Bahar gəlməyə heç tələsməyir?!

Qaçaraq gəlib bərk tövşüyürdüm,
Mən gördüm Kürü, Kür üşüyürdü.

Əlimi vurdum, suyu bumbuzdu,
Üzünə baxdım, məni qorxuzdu.

Salxım buz düşər, düşər – titrəyər.
Bir topa qardan meşə titrəyər.

Hava soyuqdur, qar da ki, dizdən,
Soraq da yoxdur cığırdan-izdən.

Koltoyuğuydu oxuyan hərdən,
Gözümə dəymir o da səhərdən.

Başını qaldır, göylərə bir bax, –
Topa buludlar ip əyirir, bax.



Ağ buludu gör, sürünüb keçir,
Boz buludlara bürünüb keçir.

Laylı buludlar yerə dəyir ki!
Qara buludlar imələyir ki!

Küləklər hanı, niyə əsməyir?!
Bahar gəlməyə heç tələsməyir?!

*B*ostan oğruları

*P*işik çıxıb qarşıma,
Qorxuram iş pis gələ.
Son dəfə yaxşı-yaxşı
Söhbət edək biz gərək!

Mən lap alatorandan
Girişmişəm bu işə.
Kəşfiyyatçı göndərib,
Yol-izi öyrənmişəm.

Dostlar, vəzifəm budur,
Xatırladım bir daha. –
Atların nallarını
Sarıyın əskiylə, ha!

Yaxşı-yaxşı yedirib
Ulağları, sulayın.
Cəld olun, doğmasına
Azca qalıbdır Ayın!

Nədir məsləhətiniz,
Bostana hardan girək?!





Heybəmi aparaq biz,
Yoxsa kisə götürək?!

İlyas əmi arada
Öskürəcək, duracaq.
Boz köpəyi çağırıb,
Qıylayıb, qışqıracaq!

Sonra atıb başını,
Yatacaq xorhaxorla.
Sonra çörək tullayıb,
Tutarıq iti torla!
Sonra da bostan bizim,
Dil bizim, dastan bizim!

Ey, nə var çöl-bayırda,
Gözümə pis dəyirsən?!
Bax, gör doğmayıb ki, Ay?
Necə, nə var, deyirsən?

Vay səni, Ay doğdu, hə?!
Bu gün də gecikmişik!
Nahaq yerə demirdim,
Qarşıma çıxıb pişik!

Poemalar



Şamaxı - Şam nağılı



1.

Yaz başı
Nağıllı
Bir axşam,
Bir oğlan
Doğuldu,
Adı –Şam.

Şam idi
Adı da
Atanın,
Üç aydı
Sel-suda
Batalı.

–Ay gəlin,
Ərinə
Əvəzdi!
–Ağlama,–
Dedilər,–
Di bəsdi.

Gözünün
Yaşını
Sil, bircə,
Köməyin
Doğulub,
Bil, bircə!

Ağladı,
Ovundu,
Yatdı Şam,
Şam kimi
Boy-buxun
Atdı Şam.

Yetişdi
Axır ki,
Onbeşə,
Oylağı,
Yaylağı
Dağ-meşə.

Qayadan
Qayaya
Səkərdi,

Qoşulsa,
Dağı da
Çəkərdi.

Qaçışda
Minərdi
Xam atı,
Yorğaya
Salardı
Şam atı.

Əkində
Əkinçi
Olardı,
Biçində
Biçinçi
Olardı.

Öynəyə
Nər yükü
Dən biçər,
Həvəslə
İşləyər
Şən biçər.

Ananın
Ağzının
Tamıydı,
Bir kəndin
Gözünün
Şamıydı.

Kotanı
Çəkməzə
Kəl[61] olar,
Zəmisi
Yetənə
Vəl[62] olar.

Yetimə-
Yesirə
Əldi o.
Dən döysən,
Sovruğa
Yeldi o.

[61] ***İş heyvanı kimi istifadə edilən erkək camış.***
[62] ***Vəl** – ağacdan, taxtadan qayrılmış ibtidai taxıldöyən alət.*

İlxını
İtirən
Söylərdi:
–Şam tapıb,
Gətirər,–
Söylərdi.

Oğrusu,
Əyrisi
Tükəndi,
Halallıq
Bürüdü
Bu kəndi.

2.
Aşdı-daşdı
Elin varı,
Mal tutmadı
Yaylaqları.

Əkinçisi
Özündəndi,

Biçinçisi
Özündəndi.

Özündəndi
Çobanı da,
Gözətçisi,
Bağbanı da.

Bulağının
Gözü duru,
İgidinin
Sözü doğru.

Sürüsündən
Qurdu uzaq,
Düşmən qorxub,
Durdu uzaq.

3.
Şamın bir atı
Vardı – ağ, çil-çil,
Boyu – bəstəboy,
Ayağı – səkil.

Çıxmaz yorğadan[63]
Günlərlə sürsən,
Dağdan səkərdi, –
Hünərlə sürsən.

Duruşu məğrur,
Baxışı – aydın,
Bir baxan deyər:
“Bir də baxaydım!”.

Şamı sürəkdə
Görəydin bir sən!
Qaya qopmuşdu
Sanki zirvədən.

Çuğul[64]
Dedi:
–Dərdi
Nədi?!

Atı
Ağdı,

[63] ***At yerişinin rahat, çaparı yormayan növü.***
[64] ***Çuğul – xəbərçi, şeytanlıq edən adam.***

Baxtı –
Ağdı.

Sözü –
Düzdü,
Özü –
Düzdü.

Kəndin gözüydü Şam,
Şirin sözüydü Şam.

Neyləyim, bir görüm,
Aradan götürüm?!

Düşməni az deyil,
Heyf,
Qorxmaz... deyil...

Bəlkə başını girləyim,
Süfrə açım – zəhərləyim?!

Yox-yox, ayrıdır ümidim,
İndən belə gərək güdüm.

Hardan gəlir,
Hara gedir,
Hansı yaylaqlara gedir.

Qurd olub,– izləyim gərək,
Göz olub gözləyim gərək.

Boylanıb bax, bir güdərlər,
Yavaş...
Birdən eşidərlər!

Sirr –
Bir,
Söz –
Düz.

Bir əli göydə,
Bir əli macda,
Şum çıxarırdı
Şam
Düz yamacda.

Kəl yorulmuşdu, –
Dirənəcəkdi,

Boyunduruqdan
Samını[65] çəkdi.

Sonra qırmancı
Kotandan asıb,
Sürdü heyvanı
Çaya – sulasın.

Su da – dupduru,
Göz yaşı kimi,
Balıqqulağı –
Çay daşı kimi...

Özünü vurub suya,
Batıb, gərnəşirdi kəl,
Buynuz atır, anqırır,
Sahili eşirdi kəl.

Baxdı, maraqla baxdı,
Şam lap həvəsə düşdü.
Bir qəfil kişnərtidən
Dağ-dərə səsə düşdü.

---

[65] Boyunduruq, samı – iş heyvanlarını arabaya və s. qoşmaq üçün onların boynuna keçirilən ağac çərçivə şəklində qoşqu cihazı.

“Bu at niyə kişnəsin,
Ay aman, nə olar bu?!”
Qaçdı yamac yuxarı,
Qaçdı...
Büdrədi...
Durdu...

Gördü qan şırnağıdı,
Bir tülkü yalayırdı.
Bir də baxdı... –
Beş cavan
Atı baltalayırdı.

Şam necə qovruldusa,
Anatək nalə çəkdi:
–Durun, namərdlər, durun,
Durun, bu nə deməkdi?!

Çuğul götrüldü qaçdı,
İtdi-batdı nəzərdən.
Şam əl atıb söyüdü
Dartıb
Çıxartdı yerdən.

Balta tolazladılar,
Yayındı ötdü Şamdan...
Biri də sağ çıxmadı
Davada dörd adamdan.

Şam atının başını
Dost kimi qucaqladı,
Sonra çöküb diz üstə,
Hönkür-hönkür ağladı.

Birdən uğultu qopdu
Qulağında – uğultu...
Kimsə baltayla vurdu
Başından...
Kim... Çuğuldu...

“Ya Allah!” –
Deyə qalxdı... –
Ağzından qan gəlirdi.
Çuğulun boğazını
Dişləriylə gəmirdi.

Köklü ağactək uçdu,–
Qolları düşdü yana...

Bircə söz deyə bildi:
–Aaa... nnn.. aaa...

–Qulağım cingildədi,
Xeyrə olaydı barı! –
Qəlbi sancdı ananın,
Əsdi diz qapaqları.

Ətəyini əlinə
Alıb, tələsdi ana –
Düz yamacı yüz dəfə
Dolanıb gəzdi ana.

Birdən qulağı çaldı –
Qarğalar qarıldaşır...
Dondu yerində birdən,
Əsdi...
Hərləndi başı:

–Nə görürəm,
Allahım?!
Yuxu olaydı barı! –
Baxdı...
Oğlu can verir...

Qışqırdı:
–Şaaa...mm!
Aaa...xxx...
U... u... u...

4.

Üz yırtdı, saç yoldu hamı el,
Təpədə dəfn etdi Şamı el...

Nə vədə keçsəydin o yerdən,
Görərdin səs gəlir qəbirdən:

–Şaaa... mmm...
Aaa... xxx...
Uuu...
–Şaaa... mmm...
Aaa... xxx...
Uuu...–

Anaydı dağlara səs salan...
Anaydı...
Anamı usanar:

–Şaaa... mmm...
Aaa... xxx... uuu...
–Şaaa... mmm...
Aaa... xxx...
Uuu...

Ana da şam kimi əridi:
–Şaaa... mmm...
Aaa... xxx... uuu...

Baş qoyub məzara –
Kiridi:
–Şaaa... mmm...
Aaa... xxx...
Uuu...

5.
Ananı övladsız
Analar yudular,
Övladsız atalar
Məzara qoydular.

Təpədə
Cüt məzar

Ucaldı.
Bu adsız
Təpə də
Ad aldı:
–Şam... ax... u...
Şamaxu...

Bir şamdan alışar
Minlərlə şam axı!
Beləcə doğuldu,
Beləcə ad oldu,
Beləcə yurd oldu
Şamaxı!

Bakı, 1983

Akil-Bakil



İlhamın ifadə imkanları[66]

Əziz oxucu!

Təzəcə bu kitabı əlinə almısan və onun ilk vərəqlərini çevirməyə başlayırsan. Mənim borcum, daha doğrusu, oxuyacağın bu yazının borcu sənə bələdçi olmaqdır. Bələdçinin işi isə bələd olduğu yola yolçuluq etməkdi. Elə bir yol ki, yüz dəfə keçilsə də bezilməsin, usanılmasın.

Qəşəm İsabəylinin (Siz onu həm də "İsazadə" kimi tanımısınız) «Əkil-Bəkil» poemasını mən dəfələrlə oxumuşam, amma yorulub eləməmişəm. Əksinə, hər dəfə də nəsə yeni bir təravətli duyğuyla üzləşmişəm. Bu isə uğur qazanmaq istəyən bir müəllif qələmi üçün heç də az deyil. İş burasındadır ki, Qəşəm şair kimi ilk kövrək addımlarını mənim gözümün qabağında atıb. Elə ilk poetik tanışlıqdan yadımda qalan və sonralar unutmaq istəsəm də unuda bilmədiyim «Göydə quşdu, yerdə daşdı torağaylar» misraları da Qəşəmin obrazlı düşüncə tərzinə malik olduğundan xəbər verirdi. Həm də bu obrazlı düşüncə tərzinin poetik məziyyətləri ilk baxışdaca diqqəti çəkirdi: Fikrin uyarlı, yerində işlədilən sözlərlə əmin-arxayın deyimi. Sözü, necə deyərlər, əyib bükmək, istədiyin axara salmaq bacarığı.

Az-çox yazı-pozu ilə məşğul olanlar bu prosesin – sözlə diltapma prosesinin, özünü, öz poetik düşüncə tərzini tapma prosesinin necə ağır, necə çətin və əzablı bir iş olduğunu yaxşı bilirlər. Əslində sənətkarlıq sirri deyilən bir şey varsa, o elə budur. Qəlbindən keçən qeyri-adi, çılğın fikirlərin boyuna uyğun söz və forma tapmaq bacarığı.

Siz «Əkil-Bəkil»i oxuduqca fikrimizin təsdiqini gözlərinizlə görəcəksiniz. Müəllif poemanı fasilələrlə 3dəfə

---

[66] **"Ön söz", "Əkil-Bəkil", Bakı, "İşıq" nəşriyyatı, 1990.**

işləyib, əslində yazıb desək, daha doğru olar. Mən üç variantın üçünü də oxumuşam. Əslində yazıda bağban sərişt-əsi özünü büruzə verir. Poemanın ilk variantını xeyli əvvəl yazan müəllif, sonralar özü öz imkanlarını duymuş, poemanın yeni variantlarını yazmağa başlamışdır. Yox, bu sadəcə həcm artımı xatirinə edilən əlavələr deyil, həm də ədəbi təcrübənin artması, ifa imkanlarının daha mütəhərrik, daha yetkin olmasıdır. Bizim bir çoxumuz torpaq adamıyıq, öz həyat təcrübəmizdən bilirik ki, payızda kartof çıxarılan zaman nabələd adam işini bir bel ağzı tağətrafı qazıntı ilə bitmiş hesab edir, nə çıxar, çıxar. Təcrübəli əkinçi isə tağın ətraflarını da qazmalı olur, nəticə etibarilə səhv də eləmir. Çünki çıxan əlavə məhsul göz qabağındadır. Təcrübəli şair, yazıçı da təcrübəli əkinçi kimidir. Axtarışı mütləq bəhrə verir. Qəşəm İsabəylinin «Əkil-Bəkil» poemasının müxtəlif variantlarını oxuyan oxucu birinci ilə sonuncu variantlar arasında necə böyük fərqlərin olduğunu görməmiş olmaz. Özü də bu fərqlər ancaq poemanın bir bitkin əsər kimi xeyrinədir.

Poema yazmaq, özü də bitkin, kamil poema yazmaq həqiqətən də çətin bir işdir. Yazı ilk sətirlərindəncə oxucunu ələ alır, onu Əkilin ömür yollarında düşdüyü müxtəlif macəralardan keçirir. Seçilən şaqraq təhkiyə-ifadə üsulu birinci misradan sonuncu misraya qədər davam edir. Elə birnəfəsə yazılış ovqatı poemanın birnəfəsə oxunuşuna imkan yaradır. Hər misra fikirlə hissin bəhrəsidir. Müasir poemalarda, istər böyüklər üçün yazılmış poemalar olsun, istərsə də uşaqlar üçün, süjetsiz lirik ricətlər baş alıb gedir. Əslində belə poemalar müəllifin qəsdən uzatdığı uzun şeir təsiri bağışlayır. Xüsusən uşaqlar üçün yazılmış poemalarda bu yol daha dözülməzdir. Uşaqlar, elə yeniyetmə-

lər də hər hansı ibrətamiz hadisənin poetik davamını izləməyi daha çox xoşlayırlar. Bu da təbii bir haldır. Sözün varsa, sözünü de, yoxsa aranda tutdan olub, dağda qurutdan olmağın nə mənası?! Yaxşı haldır ki, Qəşəm öz əsəri üçün uğurlu bir yol seçib. O, öz qəhrəmanı Əkil-Bəkili müxtəlif həyat macəralarına salır. Və bu macəralardan həyatda necə çıxmaq mümkünsə, müəllif əsərində də bu təbii yolu izləyir. Məktəbli Əkildən əsgər Bəkilə kimi bir zaman məsafəsi fəsil-fəsil xalqın tarixi mərhələlərinin fonunda tərənnüm olunur. Müəllif sanki heç nəyə müdaxilə etmir, eləcə öz şıltaq qəhrəmanına qoşulub hara üz tutursa, oraya gedir, dünyaya qəhrəmanının gözüylə baxır. Beləliklə də, öz oxucusunu yaxşı mənada aldadır. Müəllifin ustalığı da elə bu aldanış məqamındadır. İlk baxışda sərhəd və sərhədçilərdən təzə nə yazmaq olar ki... hər şey məlumdur, süjet xətti də, məzmun da, sərhəd pozuntuları da.

Əsərin ilk səhifələrini bu aldanışla oxumağa başlayan oxucu getdikcə özü də gözləmədən maraqlı bir həyat axınına düşür. Sən demə, bu sərhəd o sərhəddən deyilmiş. Bu sərhəddin o tayında da Azərbaycan varmış, adı qəsdən coğrafiya kitablarına salınmayan, tarixi dərsliklərdə keçilməyən Azərbaycan. Bir də tarixə ayrılıq çayı kimi düşən Araz varmış, bu Arazın iki qardaş arasına su salan axarı varmış. Poemadan həsrətli Araz axır, dəlisov Kür nərildəyir. Bir də Kürün sol yaxasında bir Şirvan kəndi var, bu kəndin yayda Kürün ayna sularında balığa dönüb şütüyən nəğməli uşaqları var. Bu sahil kəndinin sahil həsrətli adamları var. Poemada çoxlu kino elementləri var, çəkilən lövhələrin hamısı gözəgörümlüdür. Bəlkə də bu keyfiyyət şairin xeyli müddət kino sahəsində işləməyindən gəlir. Əslində həyatda gördüyümüz heç nə insan varlığında izsiz

qalmır, hətta gördüyümüz çox şeyi biz yerli-dibli unutsaq da. Yaddaşımızın hansı küncündəsə özünə yer tapıb yaşayır, bir də vaxtı-vədəsi, məqamı gələnə kimi. Məqamı gələndə isə təklif-filan gözləmədən qələmə qoşulub kağıza köçür, bu halda yazı sahibinin özü də öz yazdığına məəttəl qalır, axı bu yazıları o harda, nə zaman yaşamışdı, indi də xatırlamadan yaddaşının üfüqlərində boy göstərir. Qəşəmin «Əkil-Bəkil»ində belə səhnələr istənilən qədərdi:

– Ay Idığ, ey?!
– Can, Bıdığ!
–Xəbərin var xəbərdən?!
Döşəyimiz, deyəsən,
Aşıb düşüb yəhərdən.

Qoyun qırxdırmır bizə[67]*,*
Belində bir zəmi var.
Gəl, döşəyi axtaraq,
Bir xotman güzəmi var.

Poemaya bizim hər birimizin uşaqlığının müəyyən bir hissəsi hopub. Bir də poemada folklora, ağız ədəbiyyatına fikri qoşulma var. İstədiyin qədər atalar sözlərinin, bayatı və tapmacaların birbaşa, yaxud fikri bəhrələnməsini duymaq çətin deyil. Əsərin dili həqiqətən də şəhdi-şirəlidir. Bəlkə də elə nağıllarımızdakı Əkil-Bəkil müəllifə sehrli söz çırağının yerini göstərib, ona görə yazı bu qədər oxunaqlı çıxıb. Xüsusən seçilən səkkizlik, yeddilik heca yuvarlaqlığının və bu hecaların qarşılığının yaratdığı axar, çevik ifadə imkanları şairə istədiyi mənzərəni istədiyi

[67] ***Bu misrada xalqdan gələn zarafat – eyib sayılan fikir var (müəllif).***

şəkildə yazmağa kömək edir. Bu isə misraların hər birinə poetik enerji gətirir. Misralar da Kür sularına bənzəyir, bir az sakit, aramla, yeri gəldikcə isə çoşğunluqla axmağa başlayır. Azərbaycan bütün axar-baxarı, dərdi-kədəriylə, başıbəlalı tarixiylə bir yazının ifadə imkanları fövqündə oxucu marağından keçib gedir:

Əkil-Bəkil sadəcə
Əkil-Bəkil deyildi.
Söz idi, söhbət idi,
Ağızdı, gözdü, dildi.

Oxucu Idığ-Bıdığla da, Əkil-Bəkilin köməyi ilə digər nağıl qəhrəmanları ilə də tanış olur. Müəllif müxtəlif zamanları bir axarda birləşdirməyi ustalıqla bacarır. Xüsusən «Vətən» kəlməsinin özünəməxsus açımı yadda qalır. Əslində Əkil-Bəkilin sərhədçiliyi rəmzi məna daşıyır. Söhbət hansı sərhəddən gedir? Bu sərhəd haradan keçir? Bu sərhəddi kimlər çəkiblər, niyə və nə zaman çəkiblər? Kimlərdir bu sərhəddin keşiyində dayananlar, kimi kimdən qoruyurlar?! Bax, müəllif zahirən uşaq poeması sayılan «Əkil-Bəkil»də əslində daha böyük mətləblərdən söhbət açmağa çalışır. Bir torpağın, bir elin ikiyə parçalanmış zülmündən və bu zülmün az qala ikiyüz illik dəhşətli tarixindən söhbət açmaq istəyir. Bu elə tarixdir ki, nə məktəblərdə keçiblər, nə də müəllimlərin cəsarəti çatıb bu barədə bir söz deyə. Nə deyir bizə bu tarix?!

Yanımıza əli boş gəlməkdə fikri, məramı nədir?! Kimlər bizimçün bu qanlı, yalanlı tarixi yaratdılar?! Bizə yalançı, hamar bir tarix öyrətməklə düşmənlərimizin fikri nə olub? İki dəfə əlifbamızı dəyişməklə hansı siyasət dəyirmanına su tökülüb? Bütün bunları bilmək üçün «Əkil-

Bəkil»lə həmsöhbət olmaq gərəkdir. Ədəbiyyatın, söz sənətinin borcu hansısa siyasətə ifaçı olmaq deyil. Amma biz istəsək də, istəməsək də siyasətdən kənarda da yaşaya bilmərik. Amma bir var yalana xidmət eləyən siyasət, bir də var həqiqətə xidmət edən ədəbiyyat. İyirminci illərdən üzübəri ədəbiyyatımız təəssüf ki, çox halda yalana xidmət eləyib, bütöv bir zaman yolu yalançı kolxoz romanları, povestləri, şeir və poemaları heçliyə qovuşub.

Adam inana bilmir ki, yalana heykəl qoyub, ona səcdə etmək olarmış. Amma ağır olsa da, bu, həyatın sərt reallığıdır. Çox yaxşı ki, son vaxtlar yaşından asılı olmayaraq sənət adamlarımız hərə öz ilhamının ifadə imkanları baxımından həqiqəti, yalnız həqiqəti tərənnüm etməyə çalışırlar. Belə yazılardan biri oxuculara təqdim edilən «Əkil-Bəkil» poemasıdır. Poemanın ötən il (1989) Azərbaycan Dövlət Mətbuat Komitəsinin Yazıçılar İttifaqı və Respublika Komsomolu ilə birgə keçirdiyi "Ən yaxşı uşaq kitabları" müsabiqəsində ikinci mükafat alması faktı da müəllifin poetik istedadının təsdiqidir. Əlbəttə, oxuculara təqdim olunan bu yazını xeyli uzatmaq da olardı. Bir də kitabın oxucu auditoriyasını nəzərə alıb onu müxtəlif səpgidə də yazmaq mümkündür. Amma buna lüzum görmürəm. Çünki uşaq kitabına yazılan ön sözdə uşağı uşaq yerinə qoymaq yox, ona onun öz səviyyəsində – həyat səviyyəsində fikir demək daha vacibdir. Əminəm ki, onsuz da istər məktəb yaşlı uşaqlar, istər yeniyetmələr, istərsə də gənclər bu kitabdan istədiyi hissləri ala biləcəklər. Mənə bələdçilik qalır. Bələdçinin vəzifəsi isə yolçuya yolun əvvəlini nişan verməkdir. Mənzilin sonrakı davamı yolun uğurundan, yolçunun səbrindən asılıdır.

Məmməd İsmayıl

Adım Akıl - Bakıldı



*S*alam

*A*dım – Əkil - Bəkildi,
Tanımayan az məni.
Olsa da, Vallah - Billah,
Görsə,
Unutmaz məni

Unutmaq yaxşı şeydi –
Tənbəlliyi, yalanı.
Nəyi unutmalısan,
Gəl, bəri başdan tanı!

Bir az yaxın oturun,
Nənəmdən dil almışam.
Sinəm – söz körüyüdü,
Cindən fənd-fel almışam.

–Fənd-feil nədi?..
–Aha!..
Səbrin olsun, ay uşaq!
Azmı fənd-feil işlədib,
Tutmusan çöldə qurşaq?!

Fənd – hiylə...
Feil – iş, əməl...
Kara gələr çətində:
«Azərbaycan dilinin
İzahlı lüğəti»ndə...

İnanmırsan?!
Bu kitab,
Bu da...
Aç, oxu bir... sən!
«Əlifba»nı, maşallah,
Məndən yaxşı bilirsən!

Çox da sual verməyin,
Səs götürmür başım, ha!
Bircə səbriniz olsun,
Dinləyin, danışım, ha!

Sizə nağıl söyləyib,
Şeir
Deyəcəyəm mən.
Tikanlı məftilləri
Göstərəcəyəm mən!

Onda görəcəksiniz
Canı ölmüş Vətən, –
Sərhəd dirəkləriylə
İki bölünmüş
Vətən!

Bu sonranın sözüdü,
Vaxtınızı almayım.
Bəlkə də səhv edirəm,
Amma...
Sizə qalmayıb...

Adım – Əkil - Bəkildi,
Tanımayan az məni.
Vallah-Billah, olsa da,
Görsə – unutmaz məni.

Əkil...
Yox, səhv salmayın,
Bir var hamı deyən, hə!
Məktəbə getməmişdən,
Bəli,
Əzbərləyən, hə:

«Əkil - Bəkil – quş idi,
Ağaca qonmuş idi.
Getdim onu tutmağa,
O məni tutmuş idi...»[68]

Bir də adam...
Yəni – mən?!
Yəni mən –
Mədəni mən!

Soqqa qamıştək uzun,
Bığ yeri tərləməmiş.
Min danışıb, min deyib,
Çərləməmiş!
Sataşma,
Əl götürməz –
Vallah, zə-hər-lə-mə-miş!...

Naharı – şama qoymaz.
İşi – axşama qoymaz.
Söz verdi – sözünə qul,
Yəni ki, bütöv oğul!

[68] ***Xalq nəğməsi***

Adım – Əkil - Bəkildi,
Boyunuzca boyum var.
Quş deyiləm, oğlanam,
Dam dolusu toyum var!

*H*alaya gəl, halaya

*H*alaya gəl, halaya!
Dövrə vuraq, oynayaq.
Tapaq halaypozanı,
Sıramıza qoymayaq.

– Oynamaqdan irəli,
Tanış olaq, gəlsənə!..
– Mən Babəkəm!
– Bəxtin var,
Qoyarlar heykəl sənə!

Ərəblərlə vuruşdun,
Başını verdin bada.
İndi İslam uşağı
Səni salıbdır yada.

– Mən – Şah İsmayıl...
– Əhsən!
Yenilməz addım atdın!
Qılıncınla, sözünlə
Azərbaycan yaratdın!

– Mən də Həcər...
– Mən –Nəbi...
– Türkün mərd övladları
Qoç kimi döyüşdünüz,
Rahat qoymadız Çarı!..

– Mən – Sabir...
– Ömrün, ustad,
Zülm, fəryad olubdur.
Şirvan şairlərinə
Xoşbəxtlik yad olubdur.

O, Xaqani – didərgin –
Tox da yaşadı, ac da.
O, Nəsimi – soydular...
O, Seyid[69]– ehtiyacda...

Baharın[70] baharı yox,
Nişata[71] zülm etdilər.
Hadini oğurlayıb,
Öldürüb, gizlətdilər.

---

[69] Seyid Əzim Şirvani – şair
[70] Bahar Şirvani – şair
[71] Nişat Şirvani – şair

Şöhrət şöhrətdi amma...
Deyin, birbəbir yazım!

–Bəs sən özün?!
– Mənmi?!
– Hə!
– Əkil - Bəkiləm – yazıq.

–Yazıq niyə, yetimsən?!
–Nə-ə?!
Atam var – nər kimi!
Sözdü, düşüb ağzıma,
İndi necə tərgidim?!

Adım Əkildi, bəli,
Soyadımsa Bəkildi.
«Dədə Qorqud»dan qalıb,
Dostum, bunu da bildin.

«Dədə Qorqud» deyəndə,
Dastanı deyirəm mən.
Sizi Bəkillə tanış
Etmək istəyirəm mən.

Mən Bəkil yox, ay uşaq,
Oğuz Bəkillə – bizim!
Sərhəd gözətçisiymiş
Qədim ellərimizin...

– Oğuz nədi?
– «Nə» yox, «kim»!
Böyük bir yurda hakim!

Bu yurd öz hakiminin
Adından ad alıbdır.
Oğuz dövləti adlı
Birliyimiz olubdur.

Qədim türk tayfaları
Bizim babalar ki var–
Bu Oğuz dövlətində
Birləşib, yaşayıblar.

Dalısıyca işim yox,
Gözlərinə işıq ver!
«Əlifba»nı keçmisən,
Ağlına yaraşıq ver!

Aç tarix kitabını,
Qaranlıq dünyanı gəz!
Vətəni sevməyəndən,
Vətəndaş ola bilməz!

Adım Əkildi, bəli,
Soyadımsa – Bəkildi.
«Dədə Qorqud»dan qalıb,
Dostum, bunu da bildin!

Boyum – bir iyirmi beş,
Yaşım onüçdü – nəsdi.
Nə var dedim özümdən,
Həvəsdi, bəsdi… bəsdi!..

– O nədir – döşündəki,
Heç demirsən onu sən?!
– Bumu?!
Dövlət sirridi,
İnanarsınız, desəm?!

– Necəəə, dövlət sirridi,
Sən hara, dövlət hara?!

– Nahaq siz bu nəzərlə
Baxırsız adamlara!

Bəlkə quru qaxacam,
Xoşunuza gəlmirəm.
Bütün arıqlar kimi
Ha tıxır, kökəlmirəm!

Sizə də erkək kəsim,
Döşəyin şişliyindən.
Bunun işə nə dəxli,
İş işdi işliyində.

Qəlbim yuxadı, qardaş,
Dəymə, hələ yadıq biz...
– Saxla!
Özündən danış,
Səncə də olmadıq biz?!

– Məncə olduz-olmadız
Bir həqiqət var, ancaq,
“Sərhəd əlaçısı”na
Verilir bundan ancaq!

– Bizi avam bilmə, ha,
Yaşın on üçdürmü?
– Hə!..
– Hardan sərhədçi oldun?!
–İş də ondadır elə!

– Yaxşı...
Niyə veriblər
Bu nişanı sənə bəs?!
– Sərhəddə göstərdiyim
Siz deyin... ona... əvəz!

–«Ona»?!
«Ona» nədir ki?!
Qarğadili qanmırıq.
– O da... ii-gid-lik...
– Əhsən!
Nə olar ki, danmırıq.

–İgidliyindən danış!
– Nə aşığam, nə ozan.
Siz də bilməyirsiniz
Nəçidir sərhədpozan!

– Sərhədpozan?!
O kimdi?!
– Kimdi?!
Buynuzlu düşmən?!
– Görmüsən?!
– O da sözdü,
Əlli dəfə görmüşəm!

–Hardadı sərhədpozan?
–Qılınctək qınındadı!
– Doğurdan buynuzu var?!
– Var!
Amma...
Qarnındadı!

*B*oynu sınsın Hitlerin

*Y*ayın cırhacırıydı,
Zəmi vağamlamışdı[72],
Boranı tağları da
Barama bağlamışdı.

Kölgə gəzirdi sərçə
Dağdağan ağacında.
Gün şaxıyırdı göydən,
Tər axırdı saçımdan.

Təpəyə çata-çatda –
Burdan yol əlbəəldi.
Birdən yad bir qocayla
Döş-döşə gəldim.

Diksindim, nə gizlədim,
O da duruxdu – baxdı...
Az qala əsasını
Gözümə soxacaqdı.

[72] ***Vağamlamaq – dəyib, yetişib ötmək.***

Tezcə də gülümsədi:
–Nə yaxşı qarşılaşdıq.
Köməyim ol, ay bala,
Məni yorub bu daşlıq!

Boynu sınsın Hitlerin,
Baxmayıb ad-sanına.
Bir qıçımı apardı
Dədəsi ehsanına.

Qırx ildi ürəyimin
Sorur yağın qurumsaq.
Çəlik verdi yerinə
Ayağımın qurumsaq!

– Hara lazımsa, əmi,
Buyurun, mən aparım!
Saata baxdı:
– Haçan
Gəlir axşam qatarı?!

Vaxt mənim Allahımdı,
Xəstə düşməm xətirə.

Qorxuram ki, gecikəm,
İşlərim bəd gətirə!

Bax, o uca dağların
Döşündəki kənddənəm.
Dünən kiçik qızımdan
İsmarıc gəlib mənə.

Naxçıvanda ərdədi,
Əri də ki, tələbə...
Bir gül parçası kimi
Qızları da var – bəbə!..

Məni görcək, qığıldar,
Əl atar saqqalıma.
Dəvə kimi diz çöküb,
Götürərəm dalıma.

Lökləyib,
Hökküldəyib,
Evi dörd dolanaram.
Mən özümü dünyanın
Bəxtəvəri sanaram.

«Nə var sənə, beş evsən,
Kişi!..» deyirlər hələ.
Canın üçün, ay oğul,
Məndən yeyirlər hələ.

Bəli, vermişəm qızı –
Mənimlədir qayğısı!

Bacın varsa, bilərsən,
Atanın çəkdiyindən.
Bizə pay da düşməyir
Bozbaşın da iyindən.

Qızı alan – alınca...
Qızı verən – ölüncə...
Yəni nə?! –
Yalvarmalı –
Xərcə salmalı
Malı!..

Qızım yazır:
«Durma, gəl!
Taxıb ordenlərini...».

Demək ilişdiriblər
İmtahanda ərini.

Oğlum, aylar olur ki,
Düşməyirəm yada mən.
Elə ki, iş bəd vurur,
Tez oluram “ata” mən!

Arvaddır kişininki,
Arvad da arvad ola!
Yoxsa day adı – arvad,
Özü də bərbad ola?!

Mənimki bir dənəydi,
“Öl!” desəm,
“Can!” deyərdi.
İndi olmasın, məni,
Rəhmətlik, istəyərdi.

Allahımdan dönəydim,
Gəlməyəydim gecəni.
Sübhədək girib-çıxıb,
Gözləyəcəkdi məni!

Yaxşı arvad, ay bala,
Beşatlandan yaxşıdı.
Yoxsa ğəlinim kimi–
Xalis, baş qaxışıdı.[73]

Yetim uşaqdan pisəm,
Qayğıma qalanım yox.
İsti-soyuğa, Vallah,
Day dözəsi halım yox!

Eh, ürəkdi – peşəsi
Boşalıb, yenə dolmaq...
Evlənərsən,
Bilərsən,
Necədir ata olmaq!..

Saata baxdı:
– Haçan
Gəlir axşam qatarı?
– Gedək, – dedim, –
Mən sizi
Vağzalacan aparım.

[73] ***Qaxış – qaxınc, etdiyi yaxşılığı üzə vurmaq.***

Tez də girib qoluna,
Çıxardım el yoluna.
Gizlicə göz qoyurdu
Kişi hey sağ-soluna.

Şıqqıltıyla dayanır,
Qulaq verirdi səsə.
Guya tez-tez büdrəyir:
“Yol rahat deyil nəsə!”.

Gözüm kor deyildi ki,
Görürdüm o yad idi.
Yolların nə taxsırı,
Özü narahat idi.

Üsulluca gətirdim
Düz zastavaya onu.
Tökülüb sərhədçilər,
Aldı araya onu.

Sıçradı baş leytenant,
Göydə qapdı əsanı...
Demə,

Əsada imiş
Qoca hərifin «can»ı!

Boğazı qurumuşdu,
Kəsilmişdi hay-hayı...
Əllərini uzatdı:
– Sizindi, qandallayın!

Qurd kimi baxdı mənə:
– Çatar sənə
Pay, küçük!
Lap məni dimdiyimdən
Tora saldın,
Ay küçük!

Hamı uğundu getdi
Onun sözünə ancaq!..
– Bəs o əsa nəymiş, hə?!
– Nəymiş?!
Səssiz tapanca!

Axşamı evə döndüm,
Dərsə getdim səhəri.

Heç kimə söyləmədim
Başıma gələnləri.

Polkovnikin sözüydü:
«Yaddaşına yaxşı yaz!
Ağzıbütöv olmadın,
Səndən sərhədçi olmaz!

Yanında baş kəssələr,
Gərək dilin dinməsin!
Ürəyin də sevinsə,
Gözlərin – sevinməsin!»

Zəng vurulcaq eşiyə,
Daraşdıq tut bağına.
Tural gəldi:
– Eyy!..
Bəkil,
Direktor otağına!..

– Direktor?!
Neyləyir məni,
Qoymaz tut yeyim bir az?!

Qapını döydüm...
– Buyur...
Girdim...
–Belə yaramaz!

Yenə bu nə oyundu,
Başımıza açmısan?!
Qoçanı yarı yolda
Ələ verib,
Qaçmısan?!

Lap itirdim özümü,
Qorxu gəzdi canımda.
Dedim, biabır oldum
Uşaqların yanında...

– Kişini qorxuzma, gəl!.. –
Kimsə dilləndi birdən.
Tanış gəldi səs mənə:
«Bıy, kimi görürəm mən?!

Nəsirli yoldaşdı ki, –
Zastavanın rəisi... »

– Yaman yerdə, ay igid,
Xilas eylədin bizi!..

Utandım...
Direktorum
Özü gəldi haraya –
Mənim uşaqlığımdan
Söhbət saldı araya.

*P*apağına bax bunun

*Z*əng vuruldu içəri,
Susan kim,
Göz vuran kim.
Jurnalı asta-asta
Açdı Sadıq müəllim.

Stol üstə təzəcə
Əyilmişdi çal başı.
Gördü ki, yox,
Uşaqlar
Yamanca pıqqıldaşır.

Eynəyini götürüb,
Dəcəl Nicata baxdı.
O da qısıb boynunu,
Çevrilib yana baxdı.

Hirsindən müəllimdə
Qalmamışdı səbir də.
Birdən Bəkili gördü,
Şaqqanaq çəkdi birdən:

– Baho-o...
Bu kimdir belə?!
Bir ayağa dur, görüm!
Bu geyim sənə hardan,
Bu nə paqondur...
Görüm?!

Papağına bax bunun,
Ulduzu par-par yanır.
Nə qurudub özünü,
Necə də şax dayanıb?!

Bura kazarma deyil,
Azıb yolu gəlmisən!
Yoxsa hərbi hissədən
Tərxis olub, gəlmisən?!

Get!
Komandir gözləyir,
Tapşırığı var sənə.
Geciksən...
Yaşdır işin,
Kartof soydurar sənə!..

Sağ əlini apardı
Əkil qulağa birdən:
–Vətənin keşiyində
Ayıq dayanmışam mən!..

– Beş bafadan basma, gəl,[74]
Yavan tikələr var, ha!
Yağlı yerdən tutmusan,
Ürəyini vurar, ha!

Sən Odlar ölkəsinə
Minnət qoymazdan əvvəl –
Azərbaycan türkcəsinin
Qeydinə qalmağa gəl!

Lövhə səni gözləyir,
Cəld ol, sıravi yoldaş!..
Bu nədi, qaçdı rəngin?!
Olma... boşdu...
O söz... baş?!

[74] Burda «Gop eləmə» mənasında. Keçmişdə taxıl biçənlər bir əlinə sığan qədər sümbülü tutur, çinlə-oraqla gövdəsindən üzüb bağlayıb qoyurmuş. Buna "bafa" deyirmişlər. 8-10 bafanı bir dərz düzəlirmiş, day 5 bafadan yox.

Necə-ə, boş deyil?!
Buyur,
İstəməyən kor olsun!
Yediyi darı cadı,[75]
Şor olsun!..

Bütün məktəb az qala
Yığışmışdı başına.
Qızlar şən-şən baxırdı
Öz sinif yoldaşına...

Aralıda – göz vuran,
Him-cim edəndən danış.
Yəni, –
«Girəvədir, ey,
Biz mumladıq, sən danış!»

Bəkil məhəl qoymayır,
Qalmayırdı sözündən.
Qızışmışdı...
Arada toxuyurdu özündən.[76]

---

[75] ***Cad – arpa və darı unundan bişirilən çörək.***
[76] ***Toxumaq – burda gop etmək.***

– Yaxşı...
Bunları bildik,
Ayrı sualımız var –
Bu paltar sənə hardan?
– Hardan?!
Axtaran tapar!..

Sən demə, beş gün əvvəl,
Xalası oğlu Piri.
Tərxis olub, gəlibmiş
Hərbi hissədən geri.

Əkil də ki, xalanın
Sandığına giribmiş.
Paltarı çırpışdırıb,
Sökdürüb, tikdiribmiş!

İgidlik nədir, canım

Günorta növbəsinin
Uşaqları da gəldi.
Nəriman meydanında
Lap bir alay düzəldi.

Sərhədçilər də vardı
Burda –
Dəmir sırada.
Mən də onlarla birgə
Durmuşdum bir sırada.

Müəllimlər, direktor,
Zastavanın rəisi.
Qalxıb tribunaya
Təbrik etdilər bizi.

Sonra da söz saldılar
Şəxsi igidliyimdən.
İgidlik nədir, canım,
Borc idi, –
Vermişəm mən!

Polkovnik əmr elədi:
– Beş addım irəli çıx!
Lap itirdim özümü,
Deyim ki,
Aşkar-açıq...

Sonra fərman oxudu,
Gözləmirdim mən bunu.
Sonra sıxıb əlimi,
Asdı sinəmdən bunu.

Hərbi təzim elədim
Şax dayanıb o an mən:
–Vətənin keşiyində
Ayıq dayanmışam mən!

Qanadlı quş olaydım,
Deyirdim, bu dəm barı.
Uçub, sevindirəydim
Yaxınları - yadları.

Elə hey göz qoyurdum
Zəndlə – tanış-bilişə. –

Əl çalırdı adamlar
Mənə...
Baxın bir işə!

Baho-o!..
Nənəmdir ki, bu!
Balam, hardan bilirdi?!
Donunun ətəyiylə
Gözlərini silirdi...

– Ay Bəkil,
Deməzmisən,
Nəyə gərək, nədir bu?!
–Dostlar, nə olmalıymış,
Etibarnamədir bu?!

– Aparsana bizi də
Zastavanı görməyə!
–Zastava sizdən ötrü
Sahil parkıdır bəyəm?!

Gəlin, nağıl danışım
“Keçibaş”, “Şələbığ”dan.

“Caççı”dan,
“Tayqulaq”dan,
Bir də “Idığ-Bıdığ”dan!

“Ovçu Pirim ox atdı,
Hara qaçdı Ağ ilan?..
Kim idi, nəçi idi sağ ilan?!.”
Yoxsa ki, nəyinizə
Gərəkdi sərhəd-filan?!

–Necə?
–Nağıl?!
–Nə?!
–Nağıl?!. –
Uşaqlar lap çaşdılar,
Sonra bərk qarışdılar.
Qar-qar qarıldaşdılar:

–Nağıl?!
–Nağıl yaxşıdır!
Danış, Əkil-Bəkilcan!
Nağıldan kim doyub, kim,
Kim yorulubdur, haçan?!

Nağıl-nağıl məkanı –
İki qoz,
Bir girdəkanı!..

Onda ki, qıl-qılıncdı,
Sərçə pəhləvan idi,
Dəvəquşu – yarasa,
Qarışqa – heyvan idi.

Keçi beş dil bilirdi,
Bir də ki,
Qurd dilini.
Siçan ha çalışırdı
Açsın yoğurt dilini...

Ot yerdən bitdi nəydi,
Buluddan sallanırdı!
Dovşan kələk gəlirdi,
Tülkü də aldanırdı.

Ay yerdən su içərdi,
Çaylarda buz gələndə.
Cır söyüd baş qoyardı

Yerə… –
Novruz gələndə.[77]

Ürəyində – bir arzun
Min olardı o gecə!
Təki arzun olaydı,
Çin olardı o gecə!

Sonra ötər bir ay da,
Təzə Ay doğulardı.
Biri var,
Biri yoxdu,
Idığ - Bıdığ da vardı…

[77] ***Deyirlər, pak insanlar Novruz gecəsi ağacların yerə baş qoyduğunu görərmiş. Onda kim nəyi arzu edərmişsə, ona da çatarmış. Rəhmətlik Quba nənəm – anamın anası avam, iman sahibi bir arvad idi. Novruz axşamı söyüdün yerə baş qoyduğunu görübmüş.***

*O*nda ki, qıl – qılıncdı...

–*A*y Idığ, ey?!
–Can, Bıdığ?!
–Evdə pas atmışam day!
Gəl, bir çıxaq səfərə,
Görək nə var dünyada!..

– Dayan,
Evi tikilmiş,
Nəfəsini dər bir az!
Sicilləyib gedirsən,
Vallah, belə yaramaz!

Bir başa sal bizi sən,
Bunlar kimin adıdı?!
– Canım-gözüm,
Idığ – ər,
Bıdığ da arvadıdı!

Baxarsan şən-mehriban –
«Can» deyib, eşidir «can».

Qəfil çır-çır çığrışıb,
Deyişib-didişərlər.
Çarpışıb, halsızlaşıb,
Ağzı üstə düşərlər.

Heç bir an da ötüşməz,
Xosunlaşar, barışar.
Küsünü də sonacan
Vurammazdılar başa.

İndi anladınızmı,
Səbriniz olsun barı?!
Qoy deyim nağılımı,
Yağdırın sualları!..

– Ay Idığ, ey?!
– Can, Bıdığ?!
Evdə paslanmışam day!
Gəl, bir çıxaq səfərə,
Görək nə var dünyada!

– Hara gedək?
– Nə hara?!

Savalana gedək biz –
Bənövşəyə, laləyə
Gülməyi öyrədək biz!

Getdilər, ha getdilər
Təpələrdən yel kimi.
Getdilər, ha getdilər
Dərələrdən sel kimi.

Acı yovşanlıq keçib,
Şirin biyanlıq keçib,
Getdilər…
Ha getdilər
Badiyi-sərsər[78] kimi.

Əl belə vurdular birdən,
Şiniyib durdular birdən:

–Ay Idığ, ey?!
– Can, Bıdığ?!
Bu göllər kimindi hə?
Bu meşələr,

[78] ***Badiyi-sərsər – səhra küləyi***

Bu düzlər,
Bu çöllər kimindi, hə?

– Görmürsən,
Dünyanındı?!
Nə baxırsan döyükmüş?!
–Bıy!..
Başıma daş, Allah,
Dünya neçə böyükmüş?!

Bəs bu dünya kimindi,
Nə başı, nə ayağı?!
– At kimindi?
– Minənin!..
– Dünya da – yaşayanın!

Getdilər, ha getdilər
Təpələrdən yel kimi.
Getdilər, ha getdilər
Dərələrdən sel kimi.

Acı yovşanlıq keçib,
Şirin biyanlıq keçib,

Getdilər, ha getdilər
Badiyi-sərsər kimi.

Əl belə vurdular birdən,
Şiniyib durdular birdən:

– Ay Idığ, ey?!
– Can, Bıdığ!
– Bir bəri dön – yanıma,
Gör başıma nə gəlib,
Qorxu düşüb canıma?!

– Nə var belə, a külbaş,
Dilin nə dolaşıbdır?!
Qara basıbdır səni,
Ağlın yenə çaşıbdır?!

– Bıy!..
Bax, ey…
Yer çatlayıb,
Lap çıxıbdır özəyi!
Tez bir iynəmi sapla,
Tikiş vurum, gözəyim.

İynəni sapladılar,
Tikiş vurdular çata...

– Ay Idığ, ey?!
– Can, Bıdığ?!
–Təpinsənə bir ata!..

Getdilər, ha getdilər
Təpələrdən yel kimi.
Getdilər, ha getdilər
Dərələrdən sel kimi.

Acı yovşanlıq keçib,
Şirin biyanlıq keçib,
Getdilər, ha getdilər
Badiyi-sərsər kimi.

Əl belə vurdular birdən,
Şiniyib durdular birdən:

– Ay Idığ, ey?!
– Can, Bıdığ?!
– Xəbərin var xəbərdən?!

Döşəyimiz,
Deyəsən,
Aşıb düşüb yəhərdən!

Qoyun qırxdırmır bizə,
Belində bir zəmi var.
Gəl, döşəyi axtaraq,
Bir xotman[79] güzəmi[80] var!

Qayıtdılar…
Gəzhagəz,
Soraq-soraq döşəyi.
Gördülər dizi altda
Uyuyur bir köşəyin.[81]

– Ay Idığ, ey?!
– Can, Bıdığ?!
–Gözün döşək gəzməsin.
Köşək qoyub altına,
Dizini yer əzməsin!

---

[79] ***Xotman –biçilmiş otun topa-topa yığımı.***
[80] ***Güzəm — burda yorğan-döşəyin içindəki yun.***
[81] ***Köşək – dəvə balası.***

Yazıq otu-ələfi,
Gör, necə qırpır halsız?!
Yəqin qulluqdan gəlib,
Qoy bir dincini alsın.

Götrüldülər getdilər,
Yəhər də düşdü qaldı.
Göy çəməndən ötəndə,
Kəhər də düşdü qaldı.

Yapışdılar küləkdən:
– Ay külək,
Götür bizi!

Dərədən ötür bizi!
Təpədən ötür bizi!

Külək götürdü getdi,
Yazıq tör-tör tövşüyür...
–Ay Idığ, ey?!
– Can, Bıdığ?!
–Söyüdə bax – üşüyür!

Gəl soyunaq…
Sən Allah,
Neyləyirik paltarı?!
Bürüb-bükək, yazıqdı,
Donub qalmasın barı!

İmam qovağı kimi
Bəzədilər söyüdü.
Qulağına pıç-pıçı,
Nəsihəti, öyüdü:

– İşdi, xahişə gəlsə
Dədən oğlu qardaşın,
Bir çitağa[82] da vermə,
Salamat olsun başın!..

Idığ-Bıdığ lüt-üryan
Gəlib kəndə çatdılar.
Sevindilər…
Güldülər…
Yıxıldılar…
Yatdılar.

[82] ***Çitağa – burda bir əlcə parça.***

Amma ha gəzsələr də,
Vətəndən doymadılar.
Sərhədçilər Arazı
Keçməyə qoymadılar.

Qalxıb İlanlı dağa,
Durub, fikrə daldılar.
Savalana, Təbrizə
Baxa-baxa qaldılar:

– O da bizim Vətəndi!
Bu da bizim Vətəndi!
Niyə yolları çəndi,
Niyə parçalayıblar,
Niyə iki bədəndi?!

– Ay Idığ?!
–Can Bıdığ?!..
– Göydən üç alma düşdü,
Çox da sizindi, az da.
Tez tıxın…
Gün batmamış,
Gedib çimək Arazda.

– Nağıl dedin, sevindik,
Sağ ol,
Əkil-Bəkil, sağ!
Çimmək qaçmayır ki, hə?!
Sərhəddi göstər ancaq!

– Qorxuram ki, çox olar,
Şişib kökələrsiniz.
Bu il tezdi,
Yaxşısı,
Gələn il gələrsiniz!

– Tərslik etmə,
sən Allah!
Tök ətəyindən daşı!
–Yaxşı...
Qoyun bir əvvəl
Polkovniklə danışım!

Girib kənd sovetinə,
Yığdı nömrəni bir-bir.
Səs ucaldı:
– Polkovnik Nəsirlidir – eşidir...

– Salam, cənab polkovnik!
Mənəm –
Əkil-Bəkildi.
– Hə-ə...
Köhnə dost, biz səni
Xatırlamışdıq indi.

İmtahanlar başını
Qarışdırıb, deyəsən?!
– Bəli...
Keçdim yeddiyə!
– Neçəylə?
– “Beş”lə!
– Əhsən!

Mənə zəng eləməkdə
Sözünmü var, nədir hə?!
–Şəhərli dostlar gəlib,
Kəndimizi görməyə.

Gəzib çölü-çəməni –
Qarış-qarış sayıblar.
Yemlikdən,

Cincilimdən
O ki, var “otlayıblar”.

Nağıl da söyləmişəm,
Gözəyiblər[83] qarına.
İndi zastava düşüb,
Neylim,
İştahlarına.

[83] ***Gözəmək – paltar, palaz, kisə və s. yırtılmış, deşilmiş yerini yenidən toxumaq, tikmək, yamamaq.***

*Z*arafat sanmayın, ha...

1.

*G*ülən kim,
Oynayan kim,
Papaq göyə atan kim.
Qaçıb, göy otlar üstə
Ağzı göyə yatan kim.

Bəkil çıxdı qabağa:
– Hay-küy salmayın...
Yavaş!
Düzlənin!..
Eyy!
Keç belə!..
Fa-ra-ğat!..
Ardımca – marş!..

Keçib alaqapıdan
Zastavaya girdilər.
Yaşılpapaqlı dostlar
Məşq edirdilər.

Birdən... it çıxdı –
Əsgər
Sürünürdü dalınca.
Ha geri dartınırdı,
Saxlayammırdı ancaq.

Qəfil qopdu əlindən,
Barıdan aşdı getdi.
İmsiləyib torpağı,
İzə ulaşdı getdi.

Qovub “sərhədpozan”ı,
Arxadan süpürlədi.
Qışqırışdı uşaqlar.
–Vayy... yazığı it yedi!...

2.

Bir yanda
TİR qurulub,
Düzülüb sərhədçilər.
Hədəfdən yana vurub
Yüzünü sərhədçilər.

Komandir bərk hirslənib,
Qızıb çıxıb özündən.
Pörtüb, tərləyib yaman,
Od tökülür gözündən.

Bəkil yaxına gəldi,
Silahı aldı, durdu –
Qıydı gözünü üç yol,
Üç yol onluğa vurdu.

Leytenant:
– Əhsən! – Dedi,–
Mükafatın da bizdə!
Qonaqsan, dostlarınla
Nahara – süfrəmizdə.

Amma unutma, qardaş,
Tək bu qurumsaqları!
Sağ əlini başına çək
Bu qurumsaqların!

Dostlar aldı dövrəyə –
Kim duyub, bilər onu?!

Qucaqlayıb birbəbir
Təbrik etdilər onu.

– Vallah, günahımız var
Şəkk eləməkdə sənə!
Ay Bəkil, bu nə sirdi,
Bizi də öyrətsənə?!

Zarafat sanmayın, ha,
Toxumuram özümdən.
Atam da bərk ovçudur,
Tük yayınmaz gözündən.

Vurduğunu, uçarda
Vurub ömrü boyu o!
İndisə öz yerinə
Məni əvəz qoyub o!

Mən də mənəm,
Mərc kələk!
Bəhram-gur kimdi,[84]
Kim mən?!

[84] ***Bəhram-Gur – Nizaminin "Yeddi gözəl" poemasının qəhrəmanı.***

Ceyranın ayağını
Qulağına tikim mən!

Gopsa da, maraqlıdı,
Birçə ciddi sanmayın!
Təki siz yorulmayın,
Təki siz usanmayın!

İndisə, cəld dalımca,
Tənbəl küssün gücündən!
Dünyalar göstərəcəm
Bu dəvə hürkücündən[85]!

Keşikçi qülləsindən
Baxdılar dörd bir yana –
Tikanlı məftillərə,
O taya – bağ-bostana.

Sonra da
Okulyarı[86]
Çay boyu hərlədilər.

[85] ***Hürgüc** – Bəzi heyvanların (məs., dəvənin) belində piy yığınından əmələ gələn bir və ya iki çıxıntı.*
[86] ***Okulyar – burda müşahidə cihazı.***

Nələrə baxmadılar,
Nələri görmədilər.

Arazqırağı bir kənd
Əl içində kimiydi.
Üstü kirəmidli ev
Elə bil hakimiydi.

Bir qız su doldururdu,
Görünürdü yaxından.
Boynunda – boyunbağı,
Çust[87] vardı ayağında.

Başında ağ çalması
Bir qoca – ot biçirdi.
Bir uşaq qarnı üstə
Uzanıb, su içirdi...

Aşağıdan komandir
Haray təpdi bu ara:
– Eheyy, vədə yetişdi,
Düşün, gəlin nahara!

[87] ***Çust – dabansız, yüngül ayaqqabı.***

Havayıdı, dadlıdı,
Qurusu,
Durusu var.
Yəqin, sizdən kiminsə
Allahdan ruzusu var.

*Y*ox, belə yemək olmaz

*D*olur, daşırdı süfrə,
Nəsə yenə bişirdi.
Bəkil dinməz-söyləməz,
Xımır-xımır eşirdi.

Fır-fıratək fırlanır,
Dil-dil ötürdü aşpaz:
– Dağlardan döşürmüşəm,
Yarpızını ötən yaz!

Gəncə dovğası adla
Deyilirsə, əzizim!
Üzümüzü qızartmaz
Bişmişimiz də bizim!

Dillənin, utanmayın,
Deyin,
Nədən az olsa!
Kim yeməsə, küsməsin,
Yediyi qapaz olsa!

– Bəs bu?!
Həftəbecərdi?!
Deməzsənmi adını?!
Kaş ki, qaçırmayaydı
Ağzımızın dadını!

– Daddan arxayın,
Amma,
Arxayın deyiləm mən,
Dövlətimizin qoyduğu
Planla – ə-li-niz-dən!..

– Sərpər?![88]
Dilim qurusun,
Düşündümsə o haqda!
Axı barmağınızı
Yalamaq var qabaqda!

Bax, bu, şiidi, bu, püre,
Bu da borşdu...
Buyurun!
Yavaş!

[88] *"Oğurlayar" anlamında işlənir.*

Qazana girdi...
Hayıfdı, qardaş... bu-run!

Qara çörəkdən kəsin,
Yeyənə minnəti var.
Götür, donuz ətidi,
Ağızda ləzzəti var!

Necə-ə?!
Yemirsən?!
Aha!
Müsəlmansan?!
Bağışla!
Saşa, Allahın verib,
Gəl, apar bunu xışla!

Aşpaz götürdü qabı,
Süfrəni hamarladı.
Bayaq Saşa şığıyıb
Xörəyi qamarladı.

Sup yarı ensin gərək–
Çörəyi ki, dişlədin.

Yox, belə yemək olmaz,
Qaşığı cəld işlədin!

Ağzınızı əziblər, nədir,
Yeyirsiz az-az?!
Vallah, iş belə getsə,
Sizdən sərhədçi olmaz!

Bax, bu cür – Bəkil kimi
Sevindirin adamı!..
Birdən siqnal verildi...
Həyəcan...
Susdu hamı...

Nahar qaldı yarıda,
Neçəsi hələ acdı. –
Sıçrayıb stol başından,
Əsgərlər çölə qaçdı...

– Siz qalın burda, dostlar,
Qalın qabla – naharla!..
Sevinc də uçdu getdi
Yaşılpapaqlılarla!..

Yeyib dostlar o ki var,
Sərin sudan vurdular.
Çıxıb yeməkxanadan,
Kölkədə oturdular.

Birini yuxu basdı,
Birini gic əsnəmək.
Əkil güldü:
–A dostlar,
Belə olmaz, bəs mənə?!

Yeyəndə bir yemədik,
“İlahi, şükür!” demədik?!
Məni unutmaq nədi –
Əsnəməkdən-mürküdən?!
Balam, boynuma düşüb,
Siz yatasız, mən güdəm?!

Gülüşdülər...
Çoxunun
Qalmamışdı tabı da.
Birdən maşın qayıtdı,
Durdu alaqapıda.

Töküldü sərhədçilər,
Yetdi həyəcan başa...
– Hanı sərhədpozan bəs?!
– Budur, ey!
– Ne-cəə?!
– Dov-şaa-n?!



*K*işi ona deyərəm...

Əkil-Bəkil sadəcə
Əkil-Bəkil deyildi,
Rayon çempionuydu
Qaçışda – iki ildi.

Maşallah!
Gözdən iraq!
Həvəs vardı canında.
Dil tərpətmək olmurdu
İnan mənə, yanında.

Qaş-gözündən duyardı
Ürəyinin sözünü.
Pərt etməmişdi hələ
Qardaş, onu dözümü!

Yaddaşı da yaxşıdı,
Dərsi bir yol oxuyur,
Ondan sonra sual ver,
Çətinliyə sal, buyur!

Əkil-Bəkil sadəcə
Əkil-Bəkil deyildi,
Rayon çempionuydu
Qaçışda – iki ildi.

Dzyü-do güləşində
Batan yoxdu Bəkilə.
Çəkic tullamaqda heç
Çatan yoxdu Bəkilə!

Bircə ağız oxusa,
Deyərdilər Xandı[89] ki!
Nə lovğalıq biləndi,
Nə dərsdən qorxandı ki!

Doymazdı dinləməkdən
Neçə ahıl qocanı.
Azərbaycan türkcəsindən
Pis bilməzdi ruscanı.

Deyim ki, ərəbcə də
Qırıldadırdı hərdən.

[89] ***Məşhur müğənni Xan Şuşinski.***



“Fatihə”ni su kimi
İçirdi o əzbərdən.

“Kəlmeyi-şəhadət”ə
Yaman marağı vardı.
Baş yastığa qoyanda
Babaya dəm tutardı:

“ Yatdım...
Ya Allah-Allah!
Durram...
İnşallah-Allah!
Ölsəm...
Yerinəm-yerin!
Əşhədu ən La ilahə İlləllah!
Əşhədu ənnə
Muhəmmədən Rəsulullah!
Əşhədu ənnə
Əmirəl-Möminina
Əliyyən Vəliyyullah!”

Əkil-Bəkil sadəcə
Əkil-Bəkil deyildi.

Söz idi, söhbət idi,
Ağızdı, gözdü, dildi!

Çoxu tir-tir əsərdi
Kövşənlikdən[90] keçəndə.
Osa qoyun gəzərdi
Gecə – dumanda-çəndə.

Novruz axşamlarında
Baxmaz zülmətdi, qardı.
Ev-ev gəzib-dolanıb,
Qurşaqatdı yığardı.

Siçan da qoymuşdular
Torbasına, pişik də.
Düyün də salmışdılar
İpinə,
İlməşik[91] də...

Vuranda haqq-hesaba,
Azuqəsi – bir qışın...

---

[90] ***Kövşənlik** – taxılı biçilmiş yer, tarla.*
[91] ***İlməşik** – burda "dolaşmaq" mənasında.*

Bir də anadan oğrun –
Bir gözəlin baxışı...

Bu da Novruz payıdı,
Qaş-göz arasındaca.
Ana kündəni yayıb,
Alıb salınca
Saca...

Əkil-Bəkil sadəcə
Əkil-Bəkil deyildi.
Söz idi, söhbət idi,
Ağızdı, gözdü, dildi!

Söz verdi, arxayın ol,
Deməli, düzələcək!
Daş da daşı kəssə lap
Vədə verdi – gələcək:

–Hünər deyil, əzizim,
Yolu qoymaq yarıda.
Kişi deyərəm ona, –
Vədə verdi, yarıda...

Xam atı[92] quyruqlayıb,
Mindiyini demirəm.
Neçə igidliyini
Ağartmaq istəmirəm.

Baxma, ağıl-kamalla
Çox işdə adı çıxdı.
Bircə şeydə əfəldi,
O da – yalançılıqdı!

Deyər ki, yalançının
Bir rəngi var – qırmızı...
Deyər ki, yalançının
Evdə qarısın qızı!

Əkil-Bəkil sadəcə
Əkil-Bəkil deyildi.
Söz idi, söhbət idi,
Ağızdı, gözdü, dildi!

[92] ***Xam – burda dəlisov, minilməyə öyrədilməmiş.***

*E*y, körpə, axarsan, a...

*İ*mtahan vədəsiydi,
Bəkil oxuyurdu, ha!..
Axır ki, zəhmətinin
Əvəzi gəldi – baha!

– “Altı” olsa, verərdik,
Vallah,
Ay Bəkil, sənə!
Hətta “yeddi” düşürdü
Həndəsənə!..

Tərif tərif dalınca
Yağırdı yağış kimi...
Amma...
Arada paxıl
Tutulmuşdu qış kimi...

– Buna bax, zirək çıxıb,
Necə düşdü qabağa!
Qamarladı “beş”ləri,

Bizə nə qaldı, qağa?!
Heç nə!
Qotur “üç” sənin!
Saysınlar «gülünc» səni.

«Hər gözəlin bir eybi!»
Yaxşı deyib deyənlər.
Eybini gizləmirdi
Bəkilin – istəyənlər.

Deyim ki, o,
Qonşuda
Qonaq da qalmamışdı.
Düşərgəyə-filana
Getdiyi olmamışdı.

Amma bu il, deyəsən,
Yay da yaman gəlirdi.
Yandırmağa-yaxmağa
Tamam gəlirdi.

Bəli, kefindəydi yay!
Üç addımlıqdaydı çay.

Çox işdə usta Bəkil,
Üzmək bilməyirdi, vay!

Suda balıqdı sanki
Yaşıdları, baxsana.
Ona sataşırdılar:
–Ey, körpə, axarsan a!..

Bəkil yanıb-yaxılır,
Gizlincə deyinirdi.
Çəkilib bir xəlvətə,
Soyunub-geyinirdi.

Hünəri çatmayırdı
Vursun özünü suya.
Çəsarəti güc gələ
Bilməyirdi – qorxuya.

Tapşırmışdı nənəsi:
–Öyrən, yaxşı-yaxşı bil, –
Əcəl-mayallaqdı[93] su,
Ölsən, Allahdan deyil!..

[93] ***Əslində "əcəl-müəlləq" – gözlənilməyən, təbii olmayan ölüm.***

– Boğuldum ki, istidən,
Neyləyim onda bəs mən?!
– Uşaqlar batıb-çıxır,
“Yandı” verirdi qəsdən.

Yaxşı...
Neyləк...
Qalın!
Qalsın Kür də sizinlə!
Ayaqlarım, cəld yeri,
Çıxma yana izindən!..

Elə bil ki, Bəkilin
Bişi[94] düşdü əlinə.
Qaçıb gedib, özünü
Saldı mal qəhəlinə[95]

... Uşaqlar bir də gördü
Onları lap haqlamış –
Buynuz atır, anqırır...
Gəlirdi təpəl camış.

[94] ***Bişi – yağ, yumurta, süd, şəkər və undan bişirilmiş çörək.***
[95] ***Qəhəl –mal-qaranı salmaq üçün dairəvi çəpər.***

Hərə bir yana üzdü:
–Nə yaxşıca əkildik!
Buy!..
Bu nədi?!
Camışın quyruğunda –
Bəkil-di?!

Demə, boğaz[96] çamışı
Açıb sürüb qəhəldən.
Salıb suya, qoymurdu
Quyruğunu da əldən!

Üzdü təpəl o ki var,
Atıb-keçdi o taya.
Bəkil yenə hərləyib,
Heyvanı saldı çaya.

Uşaqlar hirsli-hirsli
Oturmuşdu cühürdə[97].
Bəkil «yandı» verirdi
İndi onlara – Kürdə.

[96] ***Boğaz – burda doğmaq ərəfəsində olan.***
[97] ***Cühür – çayın dayaz sahili – çimərliyi.***

– Bu günümüzdən hayıf!
İnsaf edə barı o!..
Çay boyu şütüyürdü
Aşağı-yuxarı o!..

Bəli, üzgüçülükdə
Uğurlu oldu ovu...
Amma belində qırdı
Nənə, bir cüt oxlovu!..

Uşaqlar kəndə gircək,
Bəkil göründü tində –
Oturmuşdu tərsinə
Camışın dünbəyində![98]



[98] ***Dünbək – malın quyruğunun bədəninə birləşən hissəsində.***

*D*ur, tədarük gör yola

*B*ir səhər Əkil-Bəkil
Onilliyi bitirdi.
Bir səhər də poçtalyon
Çağırış kağızı gətirdi.

Ana qəmləndi yaman,
Ata güldü:
–Balam, sus!
Əhd etməmişdin, oğlun
Böyüyüb əsgər olsun?!

Başa yetişib arzun,
Dur, tədarük gör yola!
Dava deyil ki, irağ!..
Nə varmış,
Sağlıq ola?!

O, Çarın zamanıydı,
Biz əsgər getməyirdik.
Gorba-gor oğlu bizə
Etibar etməyirdi.

Din ayrıydıq...
Deyirdi:
–Yaşayırsansa, bəsin?!
Gizli deyil, Çar kimi
İndi də var eləsi!

Tamam Türk dünyasına
Gizli cahad[99] eləyib –
Nə haqqa arxa durur,
Nə onu yad eləyir!

Əli ürəyi üstə:
–Ah!
Qəmimiz dərindi!
Ah, deməli, dünyanın
Sabahı türklərindi?!

Beləsini, əzizim,
Çardan ayırmaq çətin!..
Ürəyinin başında
Sov. İKP[100] bileti...

[99] ***Cahad – din uğrunda müharibə***
[100] ***Sov. İKP – Sovet İttifaqı Kommunist Partiyası.***

Can bəsləməkdir ancaq
Əməlləri-işləri...
Nahaq yadıma saldım
Lənətə gəlmişləri!

Bir səhər Əkil-Bəkil
Onilliyi bitirdi.
Bir səhər də poçtalyon
Çağırış kağızı gətirdi.

Əkil-Bəkil tez durub,
Dəyişdi paltarını.
Büküb cibinə qoydu
Nənə verən varını! –

Bir təklik, iki beşlik,
Yeddi üçlükdür azı...
Sonra da namaz üstə
Allah xeyir-duası...

Hərbi komissarlığa
Gəldi –
Sevincək, gülər.

“Əlacı sərhədçidir”
Bu çağırışçı, gördülər.

Yaşıdları həsədlə
Durub, baxırdı ona.
Şəxsən hərbi komissar
Çağırdı otağına:

–Yoldaş çağrışçı,
Bizə
Baş ucalığıdır – siz,
Təlim-filan görmədən
Hazır sərhədçisiniz...

– Bağışlayın, yarıda
Kəsdim sözünüzü mən.
Sərhədçi çörəyilə
Böyümüşəm düzü mən.

Onlar tanıyan kimi
Tanımır atam məni!
Göndərin zastavaya,
Yoldaş kapitan, məni!

Gülümsəyib komissar,
Dilləndi aram-aram:
–Darıxma,
Polkovnikə
Zəng edib, danışaram!

Azhərbkomissarlığa[101]
Zastava məktub yazıb,
Bir həftəyə düzəldər
Bu istəyini azı!

[101] ***Azərbaycan Hərbi Komissarlığı.***

*Y*oldaş, hərbi komissar

Bakı,
Xəzər sahili,
Daş-qala hasarına –
Azərbaycan Respublikası
Hərbi komissarına!

Cənab, hərbi komissar!
Sizdən bir xahişim var –
«N» kəndinin sakini,
Yaşı – çağrışçı yaşı,
Bizim köhnə dostumuz–
Əkil-Bəkil yoldaşı.

Sərhəd qoşunlarının
Sırasına keçirin.
(*Sanmayın, döyüşçünü*
Tanışlığa seçirik.).

Bilmək istəsəniz ki,
Əkil-Bəkil nəçidir,
Məlumat verim Sizə –
"Əlaçı sərhədçi"dir!

Qaynar təbiəti var,
Həm də bir az soyuqdu.
Xaricdə-filanda
Qohumu-zadı yoxdu!

Bizim sağ əlimizdi,
Axı burdandı – yerli...
“NN” zastavasından
Rəis – cənab **Nəsirli**.”.

Oxuyub bu məktubu,
Fikrə getdi general.
Sonra alıb qələmi,
Dərkənar qoydu dərhal:

“Lazımdır beləsindən
Gərək muğayat olaq –
Əkil-Bəkil yoldaşı
“NN” zastavasına
Təcili salın yola!

Kaş ki, hər bir əsgərə
Nəsib ola bu şadlıq!
İmza: General-mayor
***Bərşadlı**!”.*

Keşikdə



*B*urda əzilib otlar...

*G*ünlər ötür...
Görürsən,
Lal kimi sərhəd susur.
Yaşılpapaqlılar da
Lap darıxır doğrusu.

Birçə çıxış yolu var,
O da təlimdir ancaq!
Zastavanı silkələr
Bir ötəri həyəcan.

Telefon zəngi birdən
Haray-həşir qopardı...
– Si-la-ha...
Sərhədçilər!..
– Deməli, nəsə vardır?!

Zastavanın önündə
Gəlib, maşın dayandı.
Tez qaçıb sərhədçilər
Nizamla sıralandı.

Gəldi it təlimçisi
Təlim iti – Taparla...
Maşın, şığıdı getdi,
Arxada qaldı tarla.

Dağ çayına baxsana,
Tələsirdi elə bil?!
Bu da təqib zolağı,
Bu da tikanlı məftil!

Bəs bu, lLəpirdi bir cüt?!...
Qoçaqsansa, ara, tap!
Zastavanın rəisi
Bu işə qalmışdı mat.

Tapar dartınırdı hey,
İmsiləyirdi yeri.
Rəis əmr etdi:
– Oljas!
İti götür, cəld yeri!...

Keyimişdi Oljasın
Sol biləyindən əli.

İpini boşaltcağın,
Tapar cumdu irəli.

Getdi...
Getdi...
Qəflətən
Başladı fırlanmağa.
Gah solu tutdu – durdu,
Gah da çevrildi sağa.

Oljas əyib başını
Aşağı – dizinəcən.
Ölçürdü, yoxlayırdı
Qarışqa izinəcən:

– Bura qədər birdi iz,
Burda... əzilib otlar.
Yoldaş kapitan,
Bura, baxın!
Burda da iz var!..

Təkcə rəis bilirdi
Növbəti təlimdi bu.



“Bir iz – Əkil-Bəkilin...
Bəs bu biri, kimdi bu?!

Qoşalaşır, təkləşir,
Gah da düşmür yola heç!
Vallah, çaşıb qalmışam,
Belə də sirr olar heç?!”

–Bu nədir, zastavaya
Burulur burdan izlər.
Getdi, düz zastavaya
Çıxdı doğrudan izlər.

Kapitan məyus oldu:
– İş nə düşdü düyünə!..
Tappıltıya, haraya,
Taparın hay-küyünə, –

Bəkil yüyürdü çıxdı
Qazarmadan bayıra...
– Qoçaq!
Demək qalmısan
Öz başının hayına?!

Biz də orda əlləşir,
Vuruşur,
Deyişirik.
Gəzir, baxır, axtarır,
Kol əzir, yer eşirik!

– Salam, yoldaş kapitan!
Hər əmrə hazıram mən!
– Darıxma!
İndi cəza
Əmrini yazıram mən!

Sən ki, dözməyəcəkdin,
Yoldaş, bu gərginliyə!
Oturaydın, qalaydın,
Təlimi pozmaq niyə?!

– Doğrudur, günahkaram
Təlimi pozmaqda mən!
Amma...
"Dil"[102] gətirmişəm,
Baxın, baxta-baxta mən!

[102] *«Əsir» mənasında*

– Hanı?!
– Xurt düşüb yatır...
Xeyli süpürləşmişik.
Bir xırmanlıq[103] torpağı
Kotan kimi eşmişik!

Olsa-olsa bir saat
İtib bizim vaxtımız!
Amma...
Etiraf edim,
Üzə gülüb baxtımız.

Qol-qıçımız – salamat,
Baş-gözümüz yerində.
Axır gəlib çıxmışıq
Buraya –
Düz yerində!..

Kapitan gülümsədi,–
Çat düşdü buz qatına.
Sol qolunu çırmayıb
Baxdı tez saatına.

[103] ***Xırman – taxıl və ya qurutmaq üçün pambıq yığılan sahə***

Stul çəkib oturdu:
– Yaxına əyləş – bəri.
Danış!
Vaxta var hələ,
Başına gələnləri!

*İ*ki məncəydi zalım

“*N*əzarət zolağı”nı
Asta sürünüb aşdım.
“Tikanlı məftillər”i
Təzəcə adlamışdım.

Lap aydın eşidirdim
Qarşıdan səsinizi.
Gözümlə yer gəzirdim
Necə azdırım sizi.

Birdən...
Bu nədir belə?!
Qəlbimə şübhə damdı.
Silib gözümü, bir də
Baxdım,– xalis adamdı!

Yo-ox, bizə oxşamırdı,
Kündəbaşın biriydi.
Burun da ki, maşallah,
Həm canlı, həm iriydi!..

Xəbəri yoxdu məndən,
Sürünürdü qabaqda...
Vaxtmı vardı, oturub,
Düşünməyə bu haqda?!

İki məncəydi zalım,
Gördüm, güclə iş aşmaz!
Bəlkə hay salım?!
Əhsən!
Heç adına yaraşmaz!

Kəməndimə ən gözəl
Qızları salmışam mən,
Dəli dayçanın belə
Köpünü almışam mən!

Kilid vurdum ağzına
Adam qapan atların.
Yaş yuyub, quru sərdim
Həyasız arvadları.

İndi nə varmış, balam,
Dünya dağılmayıb ki!

Allah mənim ağlımı
Əlimdən almayıb ki!

Budur, kəndir ovcumda!
“Ov” da yolun qucunda!
Düyün də ki, inşallah,
Barmağımın ucunda!

Kəndirə ilgək[104] vurub,
Qolaylayıb tulladım –
Şarapp... – keçdi boynuna,
Cəld çəkdim – buxovladım[105].

Nə mollaya iş qalıb,
Nə də keşişdən keçib.
Gözlərini açanda,
Gördü, iş işdən keçib!

Dalı da...
“Dərd!” deyirdim,
O da əvəzində – “Can!”.

[104] ***Paltarın yaxasında, qolunda, cibinin ağzında düymə və qarmağı keçirmək üçün sap və s. düzəldilən balaca yarıq.***
[105] ***Buxov – qandal. Qandallamaq, qandal vurmaq.***

Özü öz ayağıyla
Gəldi zastavayacan!

Kapitan:
–Əhsən! – dedi, –
Sevindirdin bizi sən!
Bütün Cənub boyunda
Ağ etdin üzümüzü sən!

Günü bu gün zəng edib,
Generala deyəcəm.
İgid dostum, sənin çün
Mükafat istəyəcəm!

İndi get, dincini al,
Görürəm, yorulmusan,
Diricə “Dil” gətirmək,
İndi deyildir asan!

Amma…
“Qənimət”i[106] ver,
Salaq hesabımıza!

[106] ***Qənimət – burda obrazlı deyim – düşməndən alınan hər şey.***

Üzü heç ağ olmasın,
Gəlibdir qapımıza!

Bizim dilcə, olmamış
Olmaz onun qandığı.
Qayğısına qalarıq,
Açıb tökər sandığı!

Bu iki parça olan,
sənin köksündür, Vətən

Dalğalar dəyir daşa,
Kükrəyirdi, daşırdı.
Bəkil çiynində silah,
Qəlbiylə danışırdı:

“Tikanlı məftilləri
Görcək, qəlbim yanıbdır.
Pas tutmuş balta kimi
Sinəmə saplanıbdır.

Uzanır çay boyunca,
Gah da çayı bölür tən.
Bu iki parça olan
Sənin köksündür,
Vətən!

Günahsız torpaq yatır
Məftillərin altında,
Nə qədər sərvət batıb
Bu yerin alt qatında!

Bizə bir ad veriblər,
Ölüncə o ad – bizim...
Bir adla da tanıyar
Yaxın bizi, yad bizi!

Niyə ikidir adın,
Ay sənə qurban canım!–
İran Azərbaycanim!
Sovet Azərbaycanim!

İki yağlı tikətək
Keçdin iki caynağa.
Biri özündəndi – Şah,
O biri də – Çar ağa!

Neyləyək biz, İlahi!
Canı cana yetirək?!
Şah İsmayıl Xətaini
Hardan tapıb gətirək?!

O tayımın kəndləri
Bu tayıma tamarzı!..
O tayımın qarısı
Bu tayın gəlin qızı!..

Dilimizə bənd vurub,
“Sus!” deyiblər, susmuşuq!
Özümüz özümüzə
Göz olmuşuq, pusmuşuq!

Boğazıma keçibdir
Abır-həya ilgəyi.
Nə gəlibsə başıma,
Səxavətimdən gəlib!

Atdöşü qovulanda,
Qanı damanda daşa,
Neçə min ermәniyə
Sığınacaq verdik: «Yaşa!».

Qonağa – qonaq evi...
Biz dözərik pisində.
Aran Qarabağ sizi
Məhv elər istisində!..

Bəs bu gün?!
Silah çəkib,
Düşmən çağırır məni!

Deyir, torpaq mənimdi,
Bölməliyik Vətəni!

–Çörəkdisə, gəl, bölək?!
Axı, bölünməz Ana!
Sənə öz döşlərindən
Süd verməyib bəs Ana?!

O Ana deyildimi,
Sığınmışdıq qoynuna?!
İndi biz nə ad verək,
Nə ad verək biz buna?!

Canbir qəlbdə yaşardı
Aşot,
Cəfər, Əzzalı!
İndi, gör, düşmən edib
Bu iki xalqı zalım!

İmamverdi[107] bağırır:
–Vermərəm Qarabağı!

[107] ***C.Cabbarlının «1905-ci ildə» əsərinin qəhrəmanı – azərbaycan türkü.***

Allahverdi[108] bağırır:
–Alacam Qarabağı!
Taleyimə “keşikçi”
Qubernatorsa susur...
Bax, odur bizə yağı!

Görsəydi bu günləri,
Nə qan-qırğın,
Nə söz-sov!
Gorun çatlasın sənin
Cənab Qriboyedov![109]

Dilimizə bənd vurub,
“Sus!” deyiblər, susmuşuq.
Özümüz özümüzə
Göz olmuşuq, pusmuşuq!

Məgər Nərimanı da
Belə qoymadıqmı tək!
Gərək biz and içəndə,
“Nəriman haqqı!”
Deyək!

---

[108] ***C.Cabbarlının «1905-ci ildə» əsərinin erməni qəhrəmanı.***
[109] ***İrandan ermənilər Qarabağa köçürən şəxs.***



O görürdü bu günü
On illərlə qabaqdan.
Bilib, zəhərlədilər,
Əlimiz çıxdı haqdan.

Xətainin, görəsən,
Qəbri alışmazmı bəs?!
Qılınc qoyub gedibdir
Bizə –
Özünə əvəz!..

Dilimizə bənd vurub,
“Sus!” deyiblər, susmuşuq.
Özümüz özümüzə
Göz olmuşuq, pusmuşuq!

Niyə ikidir adın,
Ay sənə qurban canım?!–
İran Azərbaycanim,
Sovet Azərbaycanim!

Arazın sol tayından
Sağ tayına getməyə, –

Moskvadan keçməsən,
Dünya dağılar məyər?!

Bir at mənzili yoldu
Ərdəbilə, Təbrizə!
Haçan qismət olacaq
Bir də, İlahi, bizə?!

Uzanır çay boyunca,
Gah da çayı bölür tən!
Bu iki parça olan
Sənin köksündür, Vətən!

*M*əndə elə vaxt hanı

*G*ünorta naharından
Beş-on dəqiqə əvvəl
Çağırdılar:
– Ay Bəkil,
Durma, telefona gəl!

– Kimdi, bilməyirsiniz?
– Mən biləni – atandı!..
– Allo!.. Allo!..
Lal oldu
Yenə telefon – andır!

Bə-li?!
Dinləyirəm, hə!..
Salam, sənmisən, ata?!
Nə var belə, nə olub,
Nə hirslənmisən, ata?!

Ət... qənd... tapılmır?!
Necə, nə?!

Kərə də... – deyirsən?!
Altdan al – artığına,
Necə… istəməyirsən?!

Yoxsa puldan, ay kişi,
Dovşan düzəldəcəksən?!
Ha... ha...
Vallah, qoçaqsan,
İnciməyə, əcəb sən...

Yaxşıyam, salamı var
Sənə kapitanın da!
Deyir: “Üzüqarayam
Mən atanın yanında!”.

Arvadla neyləyirsən,
Kefinə dəyməyir ki?!
Nənəm sərçəgözündən[110]
“Çiçə” istəməyir ki!?

İnəyimiz doğdumu?!
Əkiz?!…

[110] ***Sərçəgözü – parça növü***

Gözünüz aydın?!
Gəlib, kələkəsindən[111]
Yeməyə vaxt olaydı!

Toplan tanıyar görən,
Qəfil girsəm qapıya?!
Qaltaq[112] gəzirdin, ata,
Tapa bildin yabıya!

Yabı deyil, Qıratdı?!
Koroğlusu çatmayır?!
Budur, ey, Koroğlu – mən!
Nə?!
Başına batmayır?!

Ha... ha...
Toydu?!
Bacımın?!
Mübarək!
Nə-ə?!
Utanır?!

---

[111] Kələkə – heyvanın ağuz südündən bişirilən qida
[112] Qaltaq – yəhərin "skelet"i. Qaltaqlı yəhər ilk dəfə Azərbaycanda – Qədim Albaniyada düzəldilib.

Mən də gəlim?!
Ay kişi,
Məndə elə vaxt hanı?!

Yox, Vallah, bacarmaram!
Üz vurmayın siz mənə!
Belə getsə, tapşırıq
Verdirərsiniz mənə!

Nə olsun beş verst deyil
Evdən zastavayacan?!
Mənsiz eləyin toyu,
İnciməyin, ata can!

Şah İsmayil bu xalqin oğludur

Söz dəmir deyil, oğlum,
Döyüm, bişirim – olsun.
Mən sizə hardan deyim,
Söhbətim şirin olsun?!

Gəlin, çıxaq çöllərə,
Gör, nə saralıb zəmi!
Burdan açaq söhbəti,
Bəzək vuraq sözəmi?!

Dən tutan sümbülə bax,
Vağamlayar – geciksən!
Bu neməti yetirən
Əllərə deyək:
“Əhsən!”.

Elə ki, yay girirdi,
Məhsul aşıb-daşırdı.
Bir də görürdün, zəmi
Qəfil...
Yaşıllaşırdı!

“Yaşıl” dedim,
Bu yaşıl
Yaşılpapaqlılaardı!
Əllərinin tükənməz
Barı-bəhəri vardır.

Bu yay da dəvət-filan
Gözləmədən gəldilər.
Öynəyəcən, bir hovur
Nə durub-dincəldilər.

Elə zəmi yerində
Süfrə açıldı – təmiz...
Direktor harayladı:
–Dostlar, gözləyirik biz!

–Tezdi, yoldaş direktor,
Dayan, işləyək bir az.
– Yox, naharımdan ötsə,
Başım sözümə baxmaz!

Gərək üç gün o çalsın,
Mən süzüm havasına, –

İraq canımdan, ölləm,
Çatmazsınız yasıma!

İş qaçmır, Marks[113] deyib:
«Ən əsası qarındı!».
Bir də gördün, pərt edib
Səni məclisdə andır!

Nə var ona, boş oldu –
Toyda-vayda baş oldu!..
Curha-cur...
Ha curha-cur...
Hücum var, hücum-hücum...

Ay uşaq ey, belə dur...
Deyən, it qudurubdur?!

Tez gəlin, təzə undan
Lavaş bişirtdirmişəm!
Naxçıvandan qoç alıb,
Bozbaş bişirtdirmişəm!

---

[113] Alman filosofu, siyasətçisi, sosial elmlərin təməlini qoyan 3 şəxsdən biri.

Orda mısmırığını
Sallayan var, deyəsən?!
Kabab çəkəndə dişə,
Dilindən düşməz –
“Əhsən!”.

Təki iştahın olsun!
Amma... iştaha baxır.
Hə?
Nə?
İçki?
Bəs nədi?!
“Sirab”,
“Badamlı”,
“Vayxır”!

Nə var, gülürsən, deyən,
Hərif, ürəyincədi?!
Necə, tünd şey gərəkdi?!
Necə, bunlar incədi?!

Ona sonra baxarıq,
Zəmini biçək gərək!

Çörək – paklığı sevir,
Pak nemət içək gərək!..

Biri maşından endi,
Biri də kombayndan.
Biri bayaqdan çöküb,
Vururdu dəm çayından!

“Sarıbuğda” çörəyi
Buğlanırdı...
Ətrə bax!
Beş verst[114] uzaqdan keçən,
Buraya burulacaq...

Deyə-gülə, axır ki,
Oturdular nahara.
Birdən Sergey söz atdı:
–Şah hara,
Sovxoz hara?

–Düzü, fikir vermədim
Yaxşı-yaxşı sözünə…

[114] ***1,06 kilometrə bərabər rus uzunluq ölçüsü***

–Şah hara?!
–Şah kimdi ki?!
Direktor mən özüməm!

Hə-ə, kolxozun adı, hə-ə?!
Buyur, ağ ətdən ye[115], gəl!
Şah İsmayıl bu xalqın
Oğludur, yoldaş əsgər!

* * *

Adı – Şah İsmayıldı,
Xətaisə ləğəbi.
Azərbaycan şerinə
Qanad vermişdi təbi:

“Qış getdi, yenə bahar gəldi,
Gül bitdivi, laləzar gəldi.

Quşlar qamusu fəğanə düşdü,
Eşq odu yenə bu canə düşdü...”[116]
Dönək bir anlıq geri,
Dinlə, –

[115] ***Ağ ət – qoyunun erkəklik nişanəsidir. Burda söyüş mənasında.***
[116] ***Ş.İ.Xətai “Dəhnamə” əsərindən “Bahariyyə”.***

Nə deyirəm mən. –
İkipara deyildi
Onda bu əziz Vətən!

Bəlkə də onparaydı,
Torpağı, yeri ayrı.
Hərənin öz hakimi,
Kəndi, nökəri ayrı...

Bəylik – dərəbəyliklər,
Mahal havadarlığı,
Gücdən saldıqca xalqı,
Bizə gülürdü yağı.

Bəli, nə söz birliyi,
Nə də sərhəd birliyi!..
Qəlbdə – göz bağlamışdı
Dərd birliyi!..

Yox, sərhəd birliyi də
Xalq birliyi deyil, dur!
Ağzıbir, sözübirlik
Əsl birlik, bax, budur!..

Nə şaha vardı inam,
Nə bəyə, nə çobana!
Hətta oğul-uşaqdan
Şübhəli idi ana!

Köksüz ağacdı sanki,
O günlər daha inam!
Bircə inam var idi,
O da –
Allaha inam!

İsmayıl fikrə getdi,
Çarə budur, şübhəsiz!
Bax, elə bu inama
Pənah deməliyik biz!

Şamlu,
Rumlu,
Bir də ki,
Talış dəstələrindan –
İki min övladıyla
“Ya Allah!”
Dedi Vətən!

On üç yaşlı İsmayıl
Bir arzuyla yar oldu,
Yığdı qızılbaşları,
Atına süvar oldu.

“Qızılbaş” baş deyildi,
Qırmızı çalmalardı.
Bu rəngin yumruq kimi
Birlik mənası vardı.

Göydə – Günəş qırmızı,
O da vahiddi, təkdi!
Bax, belə birlik üçün,
İsmayıl ordu çəkdi.

Gəldi… gəldi... Cavadda[117]
Döşləşdi Dəli Kürlə.
Bir qədər asta-asta
At səyritdi cühürlə.

Sonra çəkdi yüyəni,–
Atı qəfil saxladı.

[117] ***İndiki Sabirabad rayonunda, Kürün sol sahilində kənd.***

Çayın en-uzununu
Gözəyarı yoxladı.

Dönüb baxdı İsmayıl,
Arxa – qoşun, qabaq – su!
Bircə çarə var ancaq –
İrəli… uğur olsun!

Təpindi – sərt sulara
Özünü toxudu at.
Üzüb, Şirvan tayına
Çıxdılar sağ-salamat.

Sonra
“Ya Şeyxim!”, deyə,
Qızılbaş igidləri,
Kürə vurdular atı,
Üzüb keçdilər bəri!..

Elə ilkin həmlədə
Şirvan şahı Yasarın.
Əzib qoşunlarını,
Ömrünü qoydu yarı.

Gülüstan qalasının
Qarşısına saldı bənd...
Birdən göründü çapar[118]:
“Hücuma keçib Əlvənd!”

Ağqoyunlu hakimi
Əlvənd Mirzəydi gələn:
“Səfəvini başını
Yerində əzəcəm mən!”…

Qızılbaşlar yığışıb,
Məşvərət[119] elədilər:
–Neyləyək?..
–Şeyxim, eşit!
Geri dönmə, – dedilər.–

Alaq Gülüstanı da,
Bir az da güclənək biz!..
–Gülüstan?!..
Azərbaycan?!..
Hansıdı istəyiniz?!

[118] ***Keçmişdə atla xəbər aparıb-gətirən şəxs – qasid, yamçı.***
[119] ***Bir məsələni həll etmək üçün yığışıb danışma, müzakirə etmə, məsləhətləşmə.***

–Necə?! – Çaşdılar, –
Nədir,
Sözünün canı, ya Şeyx?!
Əlbəttə Ana Vətən –
Azərbaycanı, ya Şeyx!..

– Onda durun,
Atlanaq!
Quş olub qanadlanaq!

Vətən kimdir,
Sən, ya mən?!
Vətən kimdir?
Tək Vətən!
Dırnaqlarda didilib,
Getməsin gərək, Vətən!..

Yeddi minlik qoşunla
Yeridi Heydəroğlu[120].
Otuz minlik qoşunla
Əlvənd Mirzə Şərurda
Kəsib durmuşdu yolu...

[120] ***Şah İsmayıl nəzərdə tutulur.***



Otuzu yeddiyə böl,
Cavab tapmadın?!
Düş öl!..

Öl?!.
Ölmək çətin deyil,
Həyat – qələbənindir.
Ya sənə verə Allah,
Ya da, uğur mənimdir!

Bu nə gündü,
İlahi,
Qılınc durmurdu qında.
Başlar uçub gedirdi
Tiyələrin ucunda.

Səfəvi əsgərləri
Şir kimi döyüşürdü,
Ağqoyunlu ordusu
Pərən-pərən düşürdü.

Otuz minlik qoşunu
Tar-mar elədilər.

Qızılbaşlar silahdan
Əldə var elədilər.

İsmayıl dedi:
–Allah,
Baxın, yar oldu bizə!
Atlanın, igidlərim,
Azərbaycan paytaxtı –
Şan-şərəfli Təbrizə!..

On dörd yaşlı İsmayıl
Çıxdı şahlıq taxtına.
Səfəvilik doğuldu
Xalqımızın baxtına!

Qarabağa,
Bakıya
Xətai həyan oldu.
Təbriz ürəkli Vətən
Birləşib, bir can oldu.

Belə gün görməmişdi
Yaşı Azərbaycanın!

Yüz il salamat oldu.
Başı Azərbaycanın!

Xətai hökm elədi:
–Candan ayrılmasın can!
Öz dilinə sığınıb,
Yaşasın Azərbaycan!

Sultan Səlimin
Şah İsmayıl Xətaiyə məktubu

"Şahim!
Mən səni gördüm,
Bəyəndim Çaldıranda[121].
Sevincimdən inan ki,
Gözlərim doldu,
Qardaş,
Sən qılınc qaldıranda!

Hər zərbəndən titrəyir,
Baş düşürdü bədəndən.
Allaha əl qaldırıb,
Dua eləyirdim mən:

– İlahi, yəni ki, bu –
Şah İsmayıldır ki, var?!
Bəlkə Həzrət Əlidi,
Çaldığı da – Zülfüqar?![122]

---

[121] Azərbaycan Səfəvi dövləti ilə Osmanlı Türk dövləti arasında olan 1514-cü il məşhur Çaldıran (Cənubi Azərbaycanda yer) döyüşü.
[122] İmam Əlinin (ə) əfsanəvi qılıncı.

Qoru bəladan onu,
Tanrım, qıyma, cavandı!
Türkün baş ucalığı–
Bir qəvi[123] pəhləvandı!

Qılınc çalan əlini
Görmək olmurdu ğözlə.
Sanki sənin şəninə
Deyilmişdi bu sözlər:
“La fəta İlla Əli,
La Seyf İlla Zülfüqar”[124].

Düzdü, biz vuruşurduq,
Adın – düşmən adıydı!
Qardaşım, qılınc çalan
Axı Türk övladıydı!

Qızılquştək şığıdın
Üç yol xeyməgaha sən!
Topların zəncirini
Doğradın neçə yerdən!

[123] ***Qəvi – güclü.***
[124] ***«Əli kimi igid, Zülfüqar kimi qılınc yoxdur».***

Bax, o qılıncdan ötrü,
Qardaş, göynəyir əlim!
Yolla, bir yol sınayım!..
Hörmətlə: Sultan Səlim.”.

Şah Xətai oxuyub,
Gülümsədi,
Məktubu:
–Vəzir, necə bilirsən,
Kişilikdən deyil bu?!

Dostluqda, qardaşlıqda
Gərək unudaq kini!
Sultan qılınc istəyir,
Özü də mənimkini!

–Şahım, qılınc olsa da,
Bu, sənə oğuldu –
Tən!..
–Götür...
Bük...
Yolla bəxşiş,
Qorxma, qınamaz Vətən.



***

Sultan baxdı qılınca.
Yoxladı tiyəsini.
–Demək,
Buymuş ağardan
Üzünü yiyəsinin?!

İndi sınayarıq biz,
Kəsərinə baxarıq.
Qoy bir yol da döyüşsüz
Qılınc endirək barı!

Sultan çalır qılıncı
Özün salıb əcirə:
–Hih!.. Bir...
Hih!.. İki...
Hih!.. Üç...
Kar eləmir zəncirə!

Atıb yerə qılıncı,
Quruladı tərini.
Fikirli halda qoydu
Qoynuna əllərini.

Yorğun-arğın oturdu
Bir topun üstündəcə:
– Səfəvi hökmdarı
Məni aldatdı əcəb!

Yaxşı niyə?!
Qəribə!
Heç başıma batmayır.
Bəlkə qıymayıb?!
Demək…
Səxavəti çatmayıb?!

Yazdı: “Qardaşlıqda bu,
Şahim, pis işdi axı!
Mənə öz qılıncını
Yolla, – demişdim axı!–

Sən nə göndərmisən bəs,
Adi Təbriz gordası[125].
İncimə,
Qardaş, bunun
Adama gəlir pası!”.

[125] ***Gorda – birağızlı əyri qılınc – yatağan.***

Sultanın məktubunu
Tez çapara verdilər.
Dərə keçib, dağ aşıb,
Təbrizə yetirdilər.

Şah Xətai oxuyub
Məktubu, şaqqıldadı:
–Bəli, indi bilirəm
Sultanım nə haldadı!

Zarafat deyil axı,
Kişini aldatmışam.
Bir Təbriz gordasıyla,
Başını qatmışam!

Xətai yazdı:
“Aldım məktubunu,
Sultanım!
Düzü cavab yazmağa
Üzüm gəlmir, utanır…

Amma iş işdən keçib,
Qoy deyim günahkarı.

Söz verirsənmi mənə,
Cəza alacaq barı?!

Xətai yazdı – canım!
Sultanım, sirri deyim:
Qılınc həmin qılıncdı,
Amma...
Qol o qol deyil!”



*Y*əni uşaqdı Bəkil

Əkil-Bəkil bayaqdan
Yerə verib yanını,
Tüs-tüs tüstülədirdi
Yenə söz qəlyanını:

–Bəli, tapıb gətirdim
Kəndin uşaqlarını.
Çırpıb qoz ağacını,
Yığışdırdıq barını.

Aparıb dama sərdik,
Düşməsin qar-yağışa.
Babam dilbədil dedi:
–Dəyməyin,
Qalsın qışa!

Qoz ola, sən olasan,
Dəyməyəsən,
Kim də – mən?!
“Necə dəyməyim, əşi?!”
Güldüm ürəyimdə mən.

Amma üzdə... tutuldum,
Pərt oldum:
–Mən gedim də?! –
Sizin başınız haqqı,
Hələ bir incidim də!

Qoz təzə toxtamışdı
Yerinə-yuvasına,
Gözdən oğurlanırdım,
Döşənirdim yasına.

Xımır-xımır eşirdim
Mən elə bir tərəfdən.
Gecə səhərəcən də
Siçan qalmırdı kefdən.

Piy-palan bağlamışdım,
Qoz görürdü işini.
Bir ağız az yeyirdim
Nənənin bişmişini.

Süfrə nə, mən nə idim,
Arvad düşmüşdü həkdən:

– Bu uşağa nə olub,
Kəsilib çay-çörəkdən?!

Dilim-ağzım qurusun,
Xəstələnər, bilmərik.
Babam hey gülümsəyər,
Sonra baxardı dik-dik:

–Ay arvad, anlayırsan,
Sən Allah, dediyini?!
Yəni uşaqdı Bəkil,
Bilməyir yediyini?!

– Bıy, görmürsən, a kişi,
Dil-dodağı bağlanıb?!
– Yox, yemir,
Başın haqqı,
Nahaq yerə yağlanıb!

Bir gün yenə xəlvəti
Özümü verdim dama.
Dedim, beş-on qoz qırım,
Ağzım yetişsin tama.

Əl atdım...
Bay!..
Qoz hanı?!
Əlim quruya dəydi.
Fikir-fikir...
Ay canım,
Görən bu nə kələkdi?!

Yəni, tamah bu qədər,
Həyasızlıq da bunca?!
Vallah, siçan daşıyıb
Mən bir xəbər tutunca!

Eybi yoxdu, bu ilin
Yengisi də var, gələr,
Onda, cənab kəsəyən,
Dünya sənə dar gələr.

Şam yeməyində babam
Nənəmə danışırdı:
– Ay arvad,
Xəbərin var,
Siçan qozu aşırdı?!

Zalım yeyib, yağlanıb,
Sübhəcən dam-daramdı.
Üstümə çıxmışdı lap
Bu səhər sanki xamdı!

Məstanı da saymır heç,
Göz bərəldir:
– Ey, dur, ha!..
Əkil bala, görürsən,
Bax, qudurmaq budur, ha!

Qurban olar canıma,
Qurtlayanda dişini!
Bilər araya qoymaq
Nədir mən tək kişini!

Süpürləyib qozları,
Yuvaya doldurmuşam.
Çətin tapar yerini
Handa qəhrəman uşaq.

Əkil bala, deyirəm,
Səbrimizi yoxlayaq.

Sən də incimə, qardaş,
Bir az da sirr saxlayaq!

Aha!..
Onsuz da bildim,
Avam qoca, yerini!
Sayıb-samballayaram,
Qorxma, cevizlərini!

Azca əlim yorular,
Bundan asan nə varmış?!
Nənə göz vurdu mənə,
Yaxşı ki, nənə varmış?!

Bir şeyə ki, dadandın,
Əldən çətin qoyarsan.
Qoz da qozdu, deyim, ha,
Birin yedin, doyarsan!

Gecəni səhər etdim
Güclə – dura-otura.
Gün günorta olanda,
Sıçrayıb qalxdım: “Ura!”...

Babam getdi tarlaya,
Güllətək çıxdım evdən.
İlk sərçə yuvasına
Əlimi quyladım mən.

“Vay!” dediyimi gördüm,
Pətək əlimdə gəldi.
Dalıyca, Allah-Allah!
Tüstü-duman dikəldi.

Mənə sarı buruldu,
Bürüdü üz-gözümü,
Çaşıb yerə oturdum,
İtirmişdim özümü!

Yanağımı elə bil
Qarsıyırdı od-alov,
Arı “vızz” elədikcə,
Bir onu deyirdim:
–Off!..

Hərə bir dişdəm alıb,
Burnunu sallayırdı.

Qabaqdan qovduqlarım,
Arxadan nallayırdı.

Başa düşmürdüm niyə
Hey didirdilər məni.
Bəlkə ələk düzəltmək
İstəyirdilər məni?!

Arılarmı yoruldu,
İnsafa gəldi yoxsa?!
İndi dur gözüyaşlı,
Otur, yaraları say!

Nənəm palçıq yaxırdı
Şişlərə –
“Can-can!” deyə.
Babam vermirdi ara
Pıqqa-pıqla gülməyə.

–Ay kişi, qoymazmısan
Ağrımızı unudaq?!
–Ay Əkil, vallah, sənə
Az görürəm bunu da!

Amma qozdan kalansan.
Mənə “sağ ol!” deyərsən!
Üzün-gözün qoz tamam,
Saxla, qışda yeyərsən!

Anlayarsan... ötüşər…
Keçib, fikrini çəkmə!
Yayda ziyandı çeviz,
Arısı var pətəklə!

Bir də ki, ay gic bala,
Yuvada da qoz olar?!
Yer-yerdən gülüşdülər
Sərhədçilər o ki, var!..

Kimsə dindi:
– Ay Bəkil,
Bir şeir de, eşidək.
Vaxt yetişir, bir azdan
Gedəcəyik keşiyə!

*V*ətən – yəni biz...

*B*öldüm hecaya
“Vətən”i – “Və”, “tən”.
Nə deməkdi “Və”,
Nə deməkdi “tən”?

Bağlayıcıdır “və” –
Dərslikdə var,–
Min fikri, sözü
Açar, bağlayar.

Bəs “tən”?
“Tən – bədən”...
“Tən – düz”...
“Tən – yarı”...
Hansı uyardı
Bu mənaları!?

Əlbəttə “yarı”...
“Yarı”, yəni... “tən”,
Eyləsə onda
Nədir bəs “Vətən”?!





“Və”dən qabağa
Onlar, sən və mən!
“Və”dən arxada
Qalan yarı – “tən”...

Topla bu ayrı
“Yarı”ları sən,
Bax, bu birlikdən
Yaranıb Vətən.

Vətən, yəni biz –
Bir qəlbdə canı...
Şimallı,
Cənublu
Azərbaycanım.

*Q*arğadan ötəyəm mən

*P*oçtalyon yol gəlirdi,
Çantası dolu yüklə.
Sıravi, zabit, hətta
Gözləyirdi “böyüklər”.

Bilirdi hörmətini,
Yerini dostum yaman.
Əl qulağın dibində,
Dil işdə:
– A-maan... A-man!

Qarğadan ötəyəm mən,
Arılı pətəyəm mən,
Payımı verməyənin
Belinə kötəyəm mən!..
Aa-ma-nn... aman-aman...

Keçib alaqapıdan,
Zastavaya gircəyin.
Kəsdilər qabağını:
–Aç görək “Xəbərciyin”!

“Xəbərcik”, yəni çanta,
İçi də dolu yüklə...
Gözləyirdi səhərdən
Sıravilər, “böyüklər”...

–Xəbərçiyəm, əzizim,
Heç nə yox, söz-sov allam.
Şirinlik verməyənin
Nənəsini girov allam.

Plov – talış dostumun,
Məni salmasın vaya.
Şad xəbərlə gəlmişəm,
Qonaq eyləyin çaya.

– Bəs kimindi şad xəbər?!
–Ağlı olan hər kəsin.
Qol çırmayıb,
İş görən nər kəsin!

Bəkil güldü:
–Üyüt, tök!
Qamarlamaq qağanda.

Dolağ,
Molağ
Gəlmə, ha,
Qoymarıq it baxandan!

Xəbərin ürəyimcə
Oldu – əladır işin.
Üç öynə – hesabıma
Bişmişin!..

– Qarın-marın işim yox,
Təzə eşqə düşmüşəm.
Dünən özümə baxıb
Güzgüdə, –
Büzüşmüşəm.

Heç belə də baş olar,
Üstündə bir qılı yox?!
Baxan necə deməsin –
İçində ağılı yox?!

– Çarəsi məndə,
Kəkil qoyaram lap azına.

– Haçan?
– Haçanı yoxdu,
Qoy tük gəlsin dazına!

– Atı salma daşlığa,
Nə var razılaşmağa?!

Amma deyim onu da,
Deyim,
Özün də bil də.
Belə ciddi şad xəbər
Gəlmir hər gələn ildə.

– Sənin köhnə peşəndir
Az verib, çox götürmək.
Yaxşıdır, götürdüyünü
Gözləri tox götürmək.

– Ha... ha...
Oyunun olsun,
Mən təslim...
–Hə-ə?!
Onda al!

Şəxsən təbrik eləyir
Səni yoldaş General!

Hər casus bacarmayır
Yad ölkəyə soxulsun.
Hər əsgər bacarmayır
Vətənə oğul olsun!

Amma sən,
Sən bacardın!
Lap üzünə deyirəm!
Nə gizlədim, əzizim,
Şirinlik istəyirəm.

– Kəkilin...
–Öz yerində!
Bu gün çayla yu görək!
Sonra marş...
Polkovnikin
Yanına buyur, görək!

Polkovnik ciddiləşib,
Dedi:

–Bir yaxına gəl!
Dostum, təbrik eləyim
Səni hamıdan əvvəl!

Güldü Bəkil utancaq:
–Bir buna da baxın siz, –
Teleqramı göstərdi, –
Buna nə deyirsiniz?!

–Poçtalyon qabaqlayıb
Məni...
Geçikdim...
Əfsus!
Bəs buna nə ad verək?!
–Necə-ə?!
–"Qırmızı Ulduz"[126]?!

– Deyəsən, özüdür, var,
Zarafat-zad deyil, yox!
Hər əsgərə bu şərəf
Qismət olmur,
Deyim, yox!

[126] ***Orden***

Bu da Ali Sovetin[127]
Fərmanıdır, yaxşı bax!
Necə də göz oxşayır
Naxışı, bax!..

Polkovnik ata kimi
Qucaqladı Bəkili:
– Oğlum, uğurlu gəlsin,
Hər gələn ilin!

İndi...
Marş!..
Qazarmaya!
Xəbər veriləcəkdir.
Generalın özü də
Bir azdan gələcəkdir!

[127] ***Ali Sovet – İndiki Milli Məclis.***

Buyur, ata min görək

Buyur, ata min, görək,
Düş atdan,
Maşına marş!...
Sərhədçi oldun, gərək
Dözümün ola, qardaş!

Dözüm də ki, sən deyən
Alınası mal deyil.
Bərkə-boşa düşmədin,
Dözümün olan deyil!

İşə öyrəncəliydi Bəkil –
Körpə çağından.
Keçirtmişdi ömrünü
Çətinlik qucağında.

Evlərinin ən böyük
Varı – ehtiyac idi.
Bir qarına tapanda,
Bir qarına – ac idi.

Nahara bir baş soğan,
Yarım təndir çörəyi.
Söz yox idi buna heç,
Dözümlüydü ürəyi!..

Dözüm?!
Dözümlüyük biz –
Aclığa, yoxsulluğa.
Təki dartıb aparsın
Mərkəz[128] bizi qulluğa.

Biz də söküb dağıdaq
Yurdumuzun varını.
Xalq dözər, qoy doyuraq
Düşmən qarınlarını.

Pambığımız daşınır
Mərkəzə…
Kolu bizim.
Neftimiz axıb gedir
Mərkəzə…
Yolu bizim.

[128] ***Mərkəz – Sovet İttifaqının paytaxtı Moskva nəzərdə tutulur.***

Qızıl balıq tuturuq,
Bilməyirik dadını.
İpəyimiz, yunumuz
Yad cibiycün satılır.

Sonra da ki, ehtiyac
Açır bizə qucunu.
Sonra da Sosializmin
Cəbhə boyu hücumu!..

Amma dözüm, əzizim,
O gəlir əlimizdən.
Moskva da bilir ki,
Şikayət çıxmayacaq
Dilimizdən!

Nahara bir baş soğan,
Yarım təndir çörəyi.
Söz yox idi, Bəkilin
Dözümlüydü ürəyi.

Buyur, ata min, görək,
Düş atdan,

Maşına marş!...
Sərhədçi oldun, gərək,
Dözümün ola, qardaş!

Mal güdəndə, neçə yol
Doluya düşmüşdü o.
Ağzıqara canavarla
Bir yol döyüşmüşdü o.

Çomağıyla öyünər:
– Budur qurdu xışlayan!
Gərək mən bunu, dostlar,
Muzeyə bağışlayam!

Kimin ki, şübhəsi var,
Ağıldan kəmdir hələ!
Görsün ki, Cavanşirin
Nəsli möhkəmdir hələ!

Qış qarının şaxtası
İliyə işləyəndə.
Yulğun şələsi altda
Bəkil dönərdi kəndə.

Evə toxtamağıyla,
Dönməyi bir olardı.
Hər işinin baş ucu
Səbir olardı.

Yüz ölçüb-bir biçməsə,
Girişməzdi bir işə.
Onu buyurardılar
Odur ki, minbir işə!

– Talaşa doğra, gətir,
Samovara od salaq.
–Döndər atın başını,
Yük altdadır qazalaq.[129]

–İnəyi sür örüşə,
Çal-çəpərə girməsin!
– Çamışdan muğayat ol,
Əmizdirməsin!

Buyur, ata min, görək,
Düş atdan,

[129] ***Qazalaq – təkatlı ikitəkərli araba.***

Maşına marş!...
Sərhədçi oldun, gərək,
Dözümün ola, qardaş!

Bəkil dözdü çətinə,
Dözümlü əsgər oldu.
Axtarışa, döyüşə,
Hazır – səfərbər oldu.

Saatlarla yol gedər,
Gedər, yorulmazdı heç,
Yağış döyər başına,
Zökəm də olmazdı heç!

Gecələr yol azanda,
Sirli kompası vardı.
Ayı bürcləri ilə
İtən yolu tapardı.

Min adamın içində
Tanıyar yağını o.
Bir otunu da qıymaz
Vətən torpağının o.

– Torpaq ki var, kişinin
Namusudur, – deyiblər.
Onu nahaqmı bizə
Vəsiyyət etməyiblər!

Bəli, Vətən, əzizim,
Bir cüt gözə sığınıb…
Bacarsaydı, dəmirdən
Elərdi yastığını.

Səksəkəylə yatar o,
Sərhəddədir qulağı.
Deyər:
– Biz göz yumanda,
Gözünü açır yağı.

Sərhəddi bu, ay canım,
Deyil ki, yağlı kökə!
İşimiz zastavasa,
Xidmətimizdir – ölkə.

Buyur, ata min, görək,
Düş atdan,

Maşına marş!...
Sərhədçi oldun, gərək,
Dözümün ola, qardaş!

Torpaq ki var,
kişinin namusudur…

Əncir ağaclarında
Quşlar oturmuşdular.
Əsgərlər cərgə-cərgə
Səf çəkib, durmuşdular.

Yaxşı bəzəmişdilər
Alaqapını rənglə.
Təzə ağartmışdılar
Dam-divarı əhənglə.

Nəriman Nərimanov
Sonsuz ürək varıyla,
Qarşıdan boylanırdı
Ciddi baxışlarıyla.

Dahi Vətən oğlunun
Əzəmətli heykəli…
Burda da məyusdur o, –
Qoynundadır sağ əli!

Zastavanın önündə
Gəlib, bir “Volqa” durdu.
General düşdü,
Zəhmi
Adamı qorxudurdu.

Bir cüt nişanı vardı
Taqanroq döyüşündən –
Bir çapıq yanağında,
Bir ulduz sol döşündə.

Əl tutuşdu hamıyla,
Gülümsədi mehriban.
Polkovnikin üzündə
Nəzər saxladı bir an:

–Məncə, sizin igidin
 Bəkildir adı?!
– Bəli, yoldaş general,
Burda – ön sıradadı...

Əsgəri təzim etdi
Əkil-Bəkil bu ara:

–Salam, yoldaş general,
Əmrinizə hazıram.

– “Dədə Qorqud”la yəqin
Tanışsan, yoldaş əsgər?!
Mən ordan oxumuşam,
Yanılmıramsa əgər.

Bir Bəkilimiz olub
Min illər əvvəl bizim.
Sərhəd gözətçisiymiş
Oğuz ellərimizin.

Yəqin Oğuz elləri –
Böyük Türk birliyindən,
Danışmısan dostlara. –
Oxuyub-bildiyindən.

İndi sərhədçi olmaq,
Oğlum,
Deyildir asan!
Özün ki, iki ildir
Əldə silah durmusan!

Xidmətin yetir başa,
Düşünmüşük bu haqda.
Ayrı peşə arama
Özünə, gəl, nahaqdan!

Bax, bu uğurları da
Sən öz taleyinə yaz –
Vətəni qorumaqdan
Ali peşə tapılmaz!

Toyunu da elərik,
Yollarıq, təhsil də al.
Ayıqsan, dözümlüsən,
Oxu, qulluq et, ucal!...

***

Bu gün toy-bayram idi
Bəkilin həyatında.
Bəlkə də illər ötər,
Silinməzdi yadından...

Məktub verdilər ona,
Sevdiyindəndi – gördü.

Azı on yol oxuyub,
Gözlərinə köçürtdü.

Gəlmişdi atası da,
İşıqlaşan vədə dan.
Sərhədçilər də vardı
Qonşu zastavalardan.

Qısaca söz söylədi
General – coşqun, mətin.
Oxudu fərmanını
Sonra Ali Sovetin.

Alıb ordeni taxdı
Bəkilin sol döşünə,
Dedi:
– Hazır ol, igid,
Cəsurluq döyüşünə!

Bax, beləcə layiq ol
Vətənə – oğul kimi...
Bəkilə söz verdilər,
Qızarmışdı pul kimi:

– Yoldaş general, düzü,
Ağır olsa da bu yük,
Sərhədçi peşəsinə
Bağlanıram ömürlük.

“Torpaq ki var kişinin
Namusudur” deyiblər.
Onu candan da artıq
İstəyiblər!

Dünənəcən bir idim,
İndisə minbirəm mən!
Anam doğma Vətənə
Xidmət eləyirəm mən!

*M*ən ki, sazam çənədən

“*S*alam, sərhədçi qardaş!
Bizi unutdun nədən?!
Sən bilirsən, maşallah,
Mən ki, sazam çənədən!

Orden-morden alırsan,
Başım çıxmaz bu işdən.
Vallah, iki torba var
Ondan bizim Məmişdə!

Neyləк, lazımdı yəqin,
Düşmən görüb lal olsun!
Bizim yetirməmizsən,
Halal olsun!

Amma aləmə batsan,
Mən deyiblər mənə də,
Sən bilirsən,
Maşallah,
Mən ki, sazam çənədən!

Bir ordu əsgər gətir –
Bir də mən olum barı!
Salım çənəmin altda,
Şil-küt edim onları!

Əlhəmdüllah!
Görürsən,
Nə yorulur, çaşıram!
Min danışanlar ölər,
İki min danışıram!

Hitlerə can vermədim
Dördcə illik davada.
Gəlim, qızardım səni,
Deyirsən, zastavada?!

Balam, belə soyuqluq
Kimdən keçibdir sənə?!
Düz deyirlər, çəkmisən,
Vallah, baban Həsənə!

Mənim şagirdlərimin
Yolda qalıbdır gözü.

Düşməyir dillərindən
Bir an söhbətin-sözün.

Sənlə fəxr edirik
Yeddipara kənddə biz.
Adına bir ağac da
Əkmişik həyətdə biz!

Hətta bu il gül açıb,
Barı var üstündə bil.
Sən isə unutmusan,
Dostum, dogma məktəbi!

Səbr-filan qalmayıb,
Sən bizi azca, gəl yor!
Gözləyirik,
Xudahafiz!
*İmza – **Qoca Direktor**»*

Bəkil əlində məktub,
Susub, çatdı qaşını.
Xatırladı məktəbi,
Nəçə yar-yoldaşını.

“Üçcə günlük də olsa,
Məzuniyyət alıb mən, –
Gərəkdir ki, özümü,
Tez kəndə çatdırım mən!

Bu gün qoyum yoluna
Xırda-para işi də...
Yoxsa çətin qurtarar
Yaxam “dördgöz” kişidən![130]

[130] ***Dördgöz – eynəkli direktor nəzərdə tutulur.***

Şirvanlı deyilsiniz

*H*arda olursa olsun,
Türkiyədə, ya Çində,
Hamı gülüb-sevinsin,
Biz də onun içində.

Gəlmişəm, qonaq edim
Sizi öz sevincimə!
Şirvanlı deyilsiniz,
Güc verməyin him-cimə!

Kürdün sözü olmasın,
Həvsələni bas, görüm!
Ay İvan, baş aparma,
Sən Həzrət Abbas, görüm!..

–Kto takoy Qazrat Abbas[131]?!
–Şəkk eləmə, qurumsaq!
Vallah, ağzın əyilər
Durduğun yerdəcə – sağ!..

[131] ***Həzrət Abbas kimdi?***

Gəlmişəm, qonaq edim
Sizi öz sevinçimə.
Yox, məhəbbət-zad deyil,
Dəm verməyin him-cimə!

Məktəbə çağırıblar,
Kəndimizə görüşə.
Bu kiçik şadlığımdan
Onlara da pay düşə!

Sabah sübhdən gedirəm,
Nə gətirim sizə mən?!
Bizim Araz boyunun
Barından-bəhərindən?!

–Sağ get, salamat qayıt,
Rahatsız,
Ac olmusan!
Kəməri boşalt bir az,
Quruyub, qaxac olmusan!

Vur çaydan, iştaha gəl,
Döşə çığırtmaplov.

Kökəlib qayıtmasan,
Deyil kov!

–Böyüklərim sağ olsun,
İşləyib,
Qazanıb var.
Yetim qarnı doyuran
Anamın qazanı var.

Qazan deyil, İlahi,
Möcüzədi, şübhəsiz!
Bax, onun hesabına
Caydaq böyümüşük biz.

Anam dolmalar bükər,
Fındıq boyda irisi.
Dilinin üstünə qoy, –
Ərisin.

Qoy qırım barmağımı, –
Şaraq-şaq...
Gözə gətirərsiniz
Arvadı, candan iraq!

Aha, şappa-şup gəlir,
Dodaq kiminkidir, hə?!
Bay səni, birdi bayaq,
İndisə ikidir, hə?!

Yazıqlar, şişərsiniz,
Bataram günaha mən!
Yaxşısı düşüb yola,
Çıxıb gedim daha mən!

Dalımca ağlamağın
Fikrini başdan atın,
Məzuniyyətdən əziz
Günü olmaz soldatın.

Bu ki, bir girəvədir,
“Hop!..” –
Düşür əlimizə!
Axı gopa basmağa
Meydan gərəkdir bizə.

Görüb bildiyimizdən
Dar günə əyləyərik,

Koroğlu etməyəndən
Eyləyərik!

Bəs nə?!
Neçə casusu
Dirigözlü tutmuşuq!
Hətta generalı da
Fara-ğat “qurutmuşuq”!

Hər əsgər çatmayır ki,
Belə şana-şərəfə.
Quş da quşluğuyla heç
Geçəmmir biz tərəfə!

Güllə ürəyimizi
Deşsə də, diriyik biz!
Balam, zarafat deyil,
Vətən əsgəriyik biz!

Köksümüzə baxsana,
Bizə şöhrətdi, şandı.
Saymaqla saya gəlməz,
Sinə dolu nişandı!

Yan-yana qoymaq olmaz
Qalib əsgəri şahla…
Matdım-matdım baxacaq
Ağzımıza uşaqlar.

Harda olursa olsun,
Türkiyədə, ya Çində –
Hamı gülüb-sevinsin,
Biz də onun içində!

*A*y sağsağan – xeyġrxəbər

*A*y sağsağan, – xeyirxəbər,
Uç, yerini dəyiş, görüm!
Ay sağsağan, – xeyirxəbər,
Uç, yerini dəyiş, görüm!

Yuvana yağəppək qoyaram!
Uç, yerini dəyiş, görüm!
Kimdən xəbər gətirmisən,
Mən neyləyim,
Nə iş görüm?!

Ay sağsağan, – xeyirxəbər,
Uç, yerini dəyiş, görüm...

Bir həftəydi sağsağan
Qırt-qırt qırtıldayırdı.
Bir həftəydi ki, ana
Rahatlıq tapmayırdı!

Əldən düşmüşdü arvad,
Bu son günləri daha:

–Dilim-ağzım qurusun,
Balam kefsizləyər, a?!

Yox-yox!
Bəs bu sağsağan?!
Xeyirxəbər quşdu ki!
Bədniyyət – ala qarğa,
Kor olmuş bayquşdu ki!

Ana yağəppək atdı,
Sağsağan uçdu birdən.
Haray-həşir qopartdı
Qoca köpək zəncirdə!

Arvad çevrildi, baxdı,
Yanına düşdü qolu:
–Bıy!..
Əkil balamdı ki!..
Bıy!..
Sənə qurban olum! –

Qucaqlayıb oxşadı,–
Dərdin puç olsun haqdan!

Bilirdim ki, sağsağan
Qırıldamır nahaqdan!

Sən ki, məni şad etdin,
Ay bala, şad olasan!
Uzaq yoldan gəlmisən,
Yuyun, rahat olasan! –

Ay kişi, eşiyə çıx,
Ay kişi, gör kim gəlib?!
Ata çıxdı tövlədən:
–Bah, balam,
Əkil gəlib!

Ata-oğul mehriban
Əl tutub görüşdülər...
–Qucaqlaşıb öpüşün!..
Gülüşdülər!

Kişi tələm-tələsik
Açdı ayğırı döşdən,
Minib, qurbanlıq qoçu
Tez gətirdi örüşdən.

Dolandırıb başına
Bəkilin,
Yerə yıxdı...
Əsgər gəlmişdi kəndə,
Toy-bayram olacaqdı!

*G*əlib vətən əsgəri

*B*əkil döydü qapını,
Cavab gəldi:
– Buyurun!
Girdi...
Qoca direktor,
Gördü, fikirli durub.

–Nə var, İsa müəllim,
Gəmilərin qərq olub?!
Yoxsa yazdığın “beş”lər
Suya düşüb, tərg olub?!

Gəlib Vətən əsgəri
Qulluğuna, əmr elə!..
Güldü direktor:
– Əhsən!
Vermədin ömrü yelə!

Yoxsa bizim Tümük tək[132],
Uzaq Şərqdə – şaxtada,

[132] ***Tümük – “qısa boylu” mənasında.***

İki ilin birini
Yatdı qauputvaxtada![133]

“Orden-morden alırsan,
Başım çıxmaz bu işdən?!
Vallah, iki torba var
Ondan bizim Məmişdə!..”

Xatırlayıb məktubu,
Gülüşdülər o ki, var...
–Deyirəm, ey,
Ay Bəkil,
Getsin, gəlməsin dava!

Gözlər olsun, görməsin,
Nələr çəkdik biz onda,
Bir tikə qalmamışdı
Qardaş, səbrimiz onda!

Yediyimiz çörək – daş,
İçdiyimiz su – zəydi[134].

---

[133] ***Müvəqqəti hərbi təcridxana. “Qubbax” adıyla məşhurdu.***
[134] ***Burda suyu durultmaq üçün istifadə edilən maddə***

Axşama sağ çıxmağın
Özü lap möcüzəydi!

İndi qulluq eyləmək,
Maşallah, nədi, qardaş?!
Amma gizləməyək ki,
Sərhəd – sərhəddi, qardaş!

Orda elan olunmamış
Dava gedir bu gün də!
Dava gedir gizlicə
Yerin,
Göyün üzündə!

Düşmən quş qanadıyla,
Qurd ləpiriylə gəlir.
Ürəyinin kiniylə,
Məkriylə gəlir!

Əhsən, oğul, min əhsən,
Vermədin ömrü yelə!
Sərhəd şərəfimizdi,
Qulluq elə!

Yoxsa bizim Tümüktək
Uzaq ġərqdə – şaxtada,
İki ilin birini
Yatdı qauputvaxtada!

Hə-ə...
Ağzımız qızışdı,
Vaxtı verdik yelə biz.
Şagirdlərlə görüşə
Getməliyik hələ biz!

*X*iyarı tər yeyərlər

–*A*na qurban,
Hardasan,
Açından öldün ki, lap?!
Nədir – qoltuğundakı,
Ay bala, yenə kitab?!

– Məktəbdəydim, anacan,
Uşaqlarla görüşdüm.
Qayıdan başı yolum
Kitabxanaya düşdü.

Bunları da götürdüm –
“Qarabağnamələr” di.
Qoy oxuyub, öyrənim,
Vətənin nədi dərdi?!

–Bəsdi, üzdün özünü,
Ələ bir yol düşür can!
Gözlərinə yazığın
Gəlsin bir, ana qurban!

Səhərdən gözləyirik,
Çörək də yeməmişik.
İnanmazsan,
Ay Əkil,
Girib-çıxır, boylanır
Yoluna Məstan pişik!

İntizarda qoymusan,
Bala, neçə adamı.
Gəlir…
Gedir…
Oturmur,–
Səni soruşur hamı!

Qoca Şıxalı müəllim
Üç dəfə gəlib azı.
Tay-tuşların, day demə,
Yüz yol açıb doqqazı!

–Hamısıyla görüşdüm,
Şıxalı əmiylə həm!
Şəkil də çəkdirmişik
Xəlsə bağında bahəm!

–Əminoğlu dalınca
Yollanıb qardaşınla.
Xalan da durub gəlib
Mollakəntdən – maşınla.

–Xalam… hanı?!
–Evdədi,
Plovu çəkir qaba.
Sən isə,
Ana qurban,
Qurşanmısan kitaba!

Əl-üzyuyan doludu,
Yuyun, tez gir di, evə!
Bəkil yuyundu,
Qalxdı
Yuxarı – girdi evə.

– Gözəl xalam xoş gəlib,
Nə var, nə yox, necəsiz?!
– Xala qurban!
Canına
Dua eləyirik biz!

Gəl bəri, öpüm sənin,
Girəvədi, üzündən.
Nə qədər ki,
Uzağam,
Sadıq bəyin gözündən!

Görsə,
Qurtardı getdi,
Vallah, bir il deyəcək:
“Cavan oğlanı, arvad,
Şirin öpürsən əcəb?!

Üzüm üz deyil axı,
Bir qəzilli[135] dəridi!
Day necə deməsinlər –
Bu Sadıq nə ər idi?!”

–Doğrudan da, ay xala,
Sadıq dayı hanı bəs?!
–Bıy!
Xəbərin yoxdumu,
Boşayıb xalanı bəs?!

[135] ***Qəzil – keçi qılı***

–Boşayar da, ay xala,
Ürəyini vurmusan.
Nehrəyə tay,
Cəhrəyə
Yar-yoldaş oturmusan!

–Sən gələndən, deyinir:
“Qurtardım Bəkillə mən!
Qoy gəlib,
Xalasını
Aparsın – gecə ikən!

Qırışmalı[136] görürsən,
Gəlib…
Yoluxmur məni?!
Dayan, xalası göyçək,
Ağladaram nənəni!»

– Xeyr, hünəri çatmaz!
Açıb baxsın Quranı!
O kimə lazımdı day,
Bir atı var, bir canı?!

[136] ***Qırışmal – “qaraçı” deməkdi, yüngül söyüş kimi işlənir.***

–Can da nə can – qupquru,
Üstəlik də – ələngə![137]
–Özü demiş, hələ də
Verməkdi işi əngə?[138]

–Yox, daha hazırlaşır
Təqaüdə gedəcək!
–Doğrudan tək buraxıb,
Kişi səni nə əcəb?!

– Mən Nəsiblə gəlmişəm,
Özü gələcək atla.
–Görmədik də, bir dəfə
Yola çıxa arvadla!

– Ay Əkil, ey,
Anana
Yazığın gəlmir, bala?!
Day nəyi gözləyirsən,
Evlən...
–O çatmır, xala!

[137] ***Ələngə – sümük. Burda "arığ" mənasında.***
[138] ***Əngə vermək – uzun-uzadı danışmaq.***

Ağzı bala batıbdır,
Odur,–
Evlənənlərin!
Arvada – qara quldu,
Boynu sınmasın ərin!

–Xala qurban,
İndidən,
Buyur, qolunu çırma!
Ev-eşik qur,
Ağzının
Ləzzətini qaçırtma!

Xiyarı tər yeyərlər,
Balı səhər yeyərlər.
Gülü gül butasında
Dərərlər, iyləyərlər!

Yemiş dəyər,–
Qoonuyar[139],
Hayıf, deyil, bala, yar?!

[139] ***Qoonumaq – dəyib, yetişib, ötmək***

Sinə qabırğasında
İki əlcəcik əti –
Onu görən istəməz,
Vallah-billah, cənnəti!

*D*eyəsən, qocalmışam

*İ*t basdı…
At kişnədi…
Ana çıxdı eşiyə:
–Bəkil, Sadıq dayındı,
Dur,
Kömək et kişiyə!

–Xoş gördük, Sadıq dayı!
–Bahoo!
Xoş gördük, əsgər!
–Qoy kömək edim.
–Kömək?!
Nəəə… qocalmışam məyər?!

–Amma...
Maşallah de, ha,
Göz götürməyirəm mən!
Xırda bir eybim də var –
Hərdən…
Görməyirəm mən!

–Kimi, yəni xalamı?!
–Yavaş, birdən eşidər!
Tanımırsan onu sən,
Leytək tükümü didər!

Daha Sadıq Sadıqov
Sən görən deyil, kişi!
Daha diş-miş vurmayır,
Diri udur bişmişi!

Plovun qazmağına
Lap tamarzı qalmışam.
Vallah, şübhələnirəm,
Deyəsən, qocalmışam?!

Eh, nə isə...
Horradan,
Morradan
Döşəyirəm.
Çörəyi heç olmasa
İsladıb, gövşəyirəm[140].

[140] ***Yemi mədədən qaytararaq yenidən ağızda çeynəmək (inək, camış kimi).***

Zülmə tabedi,
Oğlum,
Bu dünyada insan ki...
Amma dərsimə söz yox,
Başım maşındı sanki.

Bax, əmək kitabçama,
Bircə əmr görərsən.
Çənə döyürəm, bala,
31 ildir ki, mən.

Təqaüdə qovurdu
Direktor hər ay məni.
Qızımızı alandan
Burunnamır day məni!

Əjdəri deyirəm də,
Gülbənizin ərini.
Qoçaqdı indi gəlsin,
Göstərsin hünərini!

Eh, canımda su vardı,
Atmışdım on il dala,

Amma belimi əydi
Əfqanıstan, ay bala!

Görüm lənətə gəlsin
Brejnevi![141]
Tanrı verən həyata
Kor qoydu min-min evi.

Mənim də Qacarımın
Taleyini o qırdı.
Qocalı Balışı da
Oğul dərdi apardı.

Qacarımla Coşqunu
Birgə getdi davaya.
Biz də, işə bax, oğul,
Birgə oturduq vaya!

Axı niyə pozaq biz
Dincliyini qonşunun.
Nə işi vardı orda
Balam, bizim qoşunun?!

[141] ***Sovet İttifaqının rəhbəri***

On minlərlə məzlumu
Məhv elədi ordumuz.
Mən başa düşmürəm ki,
Nə qazandı yurdumuz?![142]

Öldü balalarımız,
Abırımız töküldü.
Neçə-neçə körpənin
Gül boynu büküldü.

Nəydi axı günahı,
Qardaş,
Məzlum əfqanın?!
Kim verəcək hesabın
Orda tökülən qanın?!

Xatırla,–
Sovetlərin
Ölkəyə gəlişini.
Bəzi “xadimlərimiz”
Bilməyirdi işini.

---

[142] Vaxtı ilə Azərbaycanın da tərkibində olduğu Sovet İttifaqı nəzərdə tutulur.

Kobud Şərq siyasəti
Özünü göstərəndə.
Nərimanov çəkilib,
Dayanmayırdı gendə.

Deyirdi:
“Azadlığı
Boğmayın qanlarla, – O,–
Deyirdi, – ehtiyatlı
Olun əfqanlarla”. – O!

Bəli, Lenin onunla
Hesablaşırdı ancaq.
Bilirdi, Nərimanov
Tək – Şərqi qurtaracaq!

70-ci illərin
«Görkəmli xadimləri» –
Ayaqladı xalqları,
Adətləri, dinləri!

Nəydi axı günahı,
Qardaş, məzlum Əfqanın?!

Kim verəcək hesabın
Orda tökülən qanın?!

Lap qoyaq Brejnevin
Boynuna min günahı!
Qazax,
Gürcü[143] qırğını,
Yaxşı, kimin günahı?!

Bəs Bakı[144] faciəsi?!
O kimin əməlidi?!
Bu işləri törədən,
Qardaş, düşmən əlidi!

İki ildi erməni
Pozub dincliyimizi.
Qoymur evimizdə də
Rahat oturaq bizi!

Moskva neyləyir bəs?!
Qərar qərar dalınca…

---

[143] Qazax, Gürcü qırğını – orda rusların törətdiyi qanlı faciələr.
[144] Bakı faciəsi – rusların törətdiyi 20 Yanvar qırğını.

Əzizim, başımızı,
Demək,
Qoyur balınca!

Niyə hərbi vəziyyət
Qəfil elan edilsin?!
Tankların tırtılları
Altda – xalq bunu bilsin?!

Bir gecənin içində,
Dünyanın düz çağında,
Yüzlərlə övladımız
Batsın qan qucağında?!

Sonra da üstümüzə
Atılan böhtana bax!
Guya İslam dövləti
Qurmaq istəyirdi xalq!

Bəlkə budur ədalət,
Çatmayır savadımız?!
Dünyanın qulağına
Yetişməyir dadımız?!

Qardaş, kişi qızıymış
Elmira xanım[145], demə!
Min rəhmət oxuyuram
Atasına gündə mən!

Boğulan səsimizi
Yaydı bütün ərzə o!
Bu dar gündə,
Ay bala,
Ürək verdi bizə o!

Şeyxülislam[146] özü də,
Az iş görmədi, inan!..
Ürəyim parçalandı,
Cavanların, görəndə,
Sinəsini qızıl qan!

Ana çıxdı eşiyə:
–Ay balam, belə olar?!
Başa düşə bilmirik,
Nə gizli sirriniz var?!

---

[145] ***Elmira Qafarova – Azərbaycan Ali Sovetinin rəyasət heyətinin sədri və onun məşhur bəyanatı.***
[146] ***Allahşükür Paşazadə nəzərdə tutulur.***

Yapışıb qopmursunuz
Yeznəli baldızoğlu.
Vallah, elə bil Sadıq
Gəlməyib on verst yolu!

Ay Sadıq, arvad gəlir
Əlində isti kəfkir!
–De gəlməsin,
Gəlirəm,
Sən Allah, tez evə gir!

*M*ənim göyərçinlərim...

Bəlkə də yanılırsan,
Bir şirin xəyaldı bu.
Zastavada toy?!
Düzü,
Görünməmiş haldı bu!

Bu toy kimindi onda,
Bu çal-çağır kimindi?!
Kim olacaqmış, balam,
Kim – Əkil-Bəkilindi?!

«Toyunu da elərik!»
Söyləmişdi general.
Bu sözə bəndmiş Bəkil,
Nişan yolladı dərhal.

Köhnə arvaddı nənə,
Bilirdi öz işini.
Gözaltı eləmişdi –
Kəndin
Halal südəmmişini!

Bəkil sataşdı:
–Arvad,
Vaxt daralıb, dur barı!
Gətir, tök ortalığa
Kişidən qalanları!

Hacmayıl bəydən qalmayıb,
Yəni bir küp də daş-qaş?!
Nənə güldü:
–Sən deyən
Olaydı, ay bala, kaş!

Biz görmüşük babadan
Qızıl qalıb, var qalıb.
Sənինkindən,
Ay Əkil,
Vallah, arvadlar qalıb!

Biri – özünə yoldaş,
Birinə də peyğəmbər.
Biri də – halal-hümbət
Mənəm –
lüt oğlu Qəmbər!..

Təzəcə girib Bəkil
İyirmi bir yaşına.
İndi də toy vurdurur,
El yığılıb başına!

«Şah İsmayıl» sovxozu
Bağçadan nübar dərib,
Yeddi təndir çörəklə
Zastavaya göndərib.

Bir çüt qoç da yollayıb
Təzəbəyin adına.
Bəkilin toyu düşüb
Ömrün xoş saatına.

Bu toy kimindi onda,
Bu çal-çağır kimindi?!
Kim olacaqmış, balam,
Kim – Əkil-Bəkilindi?!

Nağara da bu yandan
«Yandım... yandım!»
Deyirdi.

Atılıb növbətçi də
Rəqs etmək istəyirdi.

Bəlkə də sərhədpozan
Unutmuşdu adını.
Yaxırdı, yandırırdı
Zurna qol-qanadını!

Balaban xırda-xırda
Doğrayırdı,
Tökürdü.
Nəzilirdi haqq kimi,
Ürəyə qəm çökürdü.

Tüstü kimi adamlar
Yığışmışdı o taya.
Çəpik çalır, oynayır,
Boylanırdılar toya.

Gələ bilməyirdilər
Beş addımlıq mənzilə.
Zurnaçı hey çəkirdi
Qara zurnanı zilə.

Zurna töyşüyür, susur,
Bu dəfə ney dinirdi.
Toy bu üzün toyuydu,
O üz[147] də sevinirdi.

Bizik,– dözüb-durmuşuq,
Əriyərdi, Vallah, daş!
Heç kimin belə dərdi
Yoxdu dünyada, qardaş!

Parçalayıb-bölüblər
İkiyə – bir Vətəni.
Minnətə bax, – ağ günə
Çıxarmışıq biz səni!..

Bəs nədi, verdiyini
Niyə demirsən hələ?!
Mənə adət-ənənə,
Dil də vermisən hələ!

Öz halal dilimi də
Unutmuşam, bundan de!

[147] ***Araz çayının cənub hissəsi – Cənubi Azərbaycan.***

Vətənimin başına
Açdığın oyundan de:

“Arazdan az danışın,
İran bizdən inciyər!
Novruzdan az danışın,
Dövran bizdən inciyər!”

Bizik, – dözüb-durmuşuq,
Əriyərdi, Vallah, daş!
Heç kimin belə dərdi
Yoxdu dünyada, qardaş!

Balaban xırda-xırda
Doğrayırdı, tökürdü.
Nəzilirdi haqq kimi,
Ürəyə qəm çökürdü.

Kimsə dilləndi birdən:
– Bəyi çəkin araya!
Bu sözə bəndmiş
Əhməd, –
Təpildi nağaraya!

Bəy oynasın...
Deməli,
Bir məna vardı bunda,–
Bolluq olar, deyiblər,
Bəy oynasa toyunda.

General vədəsində
Çatdı bu xoş saata.
Ortaya çəkdi onu
Tezcə də xoşbəxt ata...

«Vağzalı» üstündəcə
Deyə-gülə,
Sevinə, –
Alıb bəyi apardılar
Birbaş ata evinə!

Qoşalülə açıldı [148] gecə,
Məlumdur atan.
Ana fərəhlə güldü,
Azca qımışdı ata!

[148] ***Bəzi bölgələrimizdə toyun uğurlu sonluğu kimi gecə – bəylə gəlinin görüşündən sonra havaya güllə atıb, el-obaya şad xəbər verirlər.***

Xəstə nənə dikəlib,
Çəkdi dərindən bir «ah»:
– Mənim göyərçinlərim
Xoşbəxt olsunlar, Allah!

*X*udahafiz

*A*dım – Əkil-Bəkildi,
Tanımayan az – məni.
Vallah-Billah, olsa da,
Görsə unutmaz məni!

Unutmaq yaxşı şeydi,
Tənbəlliyi, yalanı.
Nəyi unutmalısan,
Gəl, bəri başdan tanı!

Bəlkə vidalaşaq, hə,
Söyləməyə sözüm yox?!
Görürəm ki, sizdə də
Dinləməyə dözüm yox!

Adımı da bildiniz,
İş-gücümü də – şəksiz!
Mən susum, siz danışın,
Sağ-salamat...
Xudahafiz!

O ki, var döşəmişəm,
Qardaş canı, özümdən,
Bir söz də yayınmayıb
Ağlımın gözündən.

Sizə nağıl söyləyib,
Şeir də demişəm mən.
Tikanlı məftilləri
Göstərmişəm mən!

Sübhə yeri qalmadı
Canı ölmüş Vətən, –
Farsın,
Rusun əliylə
İki bölünmüş Vətən!

O fars – dünənki farsdı,
Yuyağın günahını!
O rus — dünənki rusdu,
Yuyağın günahını –

Yuyağın günahını,
Yağının günahını!

Yaxşıca tanış olduq,
Olduq nədi, oldunuz!
«Çıx!» deməklə, əzizim,
Darıdan çıxmaz donuz!

Töküb-töküşdürməyə
Ürəyi – söz gərəkdi!
Söz də sevmir soyuqluq,
İçində köz gərəkdi.

Düzdü, çox danışmışam,
Ağzım-gözüm yorulub.
Bəlkə də, Allah bilir,
Elə sözüm yorulub?!

Nigaranam – söhbətim
Yaxşımı oldu, ya pis?!
Day susdum, siz danışın,
Sağ-salamat…
Xudahafiz!

Bakı, 1983-1990

Naram takdi



Yumorla ciddiliyin vəhdəti

Qəşəm İsabəylinin yaradıcılığında xüsusi yer tutan əsərlərindən biri "Nənəm təkdir" poemasıdır. Bu poemada şair cəmiyyətin ciddi problemlərindən ilıq bir yumorla bəhs edir. Bu səviyyəyə çatmaq üçün isə xeyli yaradıcılıq təcrübəsi toplamaq lazım idi. Bunu başa düşən şair yumorla şölələnən bir sıra lirik şeirlər qələmə almışdır.

Bu şeirlərdə uşaq valideynləri ilə elə şəkildə söhbət edir ki, sanki onlar yaşlı insanlar deyil, bu körpənin öz yaşıdlarıdır. Bu cür yanaşma şeirdə bir təbəssüm yaradır. Bu təbəssüm şeirin mahiyyətini təşkil edir.

–Ay ana, hey, mübarək!
–Ay bala, nə?
–Başmağın.

–Ay nənə, hey, mübarək!
–Ay bala, nə?
–Yaşmağın!

–Ay baba, hey, mübarək!
–Ay bala, nə?
–Coşmağın!

Qəşəm bir sıra kitablar yazıb. Onlardan bir neçəsini xatırlamaq yerinə düşər. "Əkil-Bəkil", "Nənəm təkdi", "Üüü...","Şamaxı – Şam nağılı", "Bu şəhər mənə göz dağı olub", "İii... aaa...", "Leyləyin intiqamı","Avropa

dəbi, dar şalvarlar və qızlarımızın monqol ayaqları", "Bir qəlbin məhəbbət etirafları", "Boz cücələrlə məşhur oğrubaşı Qara pişiyin ölüm-dirim savaşı" və s.

Sözün mahiyyətini öyrətmək üçün onu müxtəlif çalarlarda işlətmək bacarığı Qəşəm İsabəyli yaradıcılığı üçün xarakterik haldır. Məsələn, bir şeirində o, çörəyin dəyərini, onun ağır zəhmət hesabına başa gəldiyini anlatmaq üçün bu sözü "torpağı çöyürüb əkmək" kimi anladır.

Kəli yedəklə, görüm,
Kotanı təklə, görüm.

Qəşəm dilimizin az qala arxaikləşməkdə olan sözlərindən – xalq leksikasına uyğun obrazlı ifadələrdən bəhrələnir, az işlənən kəlmələri ölməyə qoymur. "Kəli yedəklə", "sür yeri" (yeri ək – Z.X), "çöyür yeri", "yerə bərəkət ensin", "təndirin tüstülənsin" kimi xalq leksikasına mənsub olan obrazlı ifadələr "kəltən", "yerin təki" sözləri məqamında elə işlədir ki, söz və ifadələrin mənası uşaq üçün aydın olur.

Çörək sözünün torpağı çöyürüb əkmək mənasını verməklə əslində bu nemətin ağır zəhmət bahasına başa gəldiyini izah edir. "Kotanı təklə, görüm" kimi ifadələrlə çörəyin qədrini bilməyin zəruriliyini ümumi sözlərlə deyil, konkret detallarla izah edir.

Qəşəm Isabəylinin yaratdığı obrazlar hər şeyi bilməyə çalışan uşaqlardır. Onun poeziyası formasına görə yox, məzmununa görə modern ədəbiyyat nümunəsi hesab oluna bilər. Məslən, 10 illərlə ədəbi düşüncədə "təklik fa-

ciədir" fəlsəfəsini tam alt-üst edən "Nənəm təkdi" poeması bu mövzuya modern yanaşmağın nümunəsidir. Bu əsər sanki, "təklik faciə deyil, insanın düşdüyü mühitdə özünü yenidən kəşf etmək üçün bir fürsətdir" deyir. Çünki tarixin elə məqamları olur ki, cavanlar müxtəlif səbəblərdən evlərini tərk edir, qocaları öz ömrü ilə tək buraxmaq məcburiyyətində qalır. Belə anlarda qocaların gənclərlə birlikdə köçüb getmələri vacibdirmi?! Axı, hamı doğma kəndi qoyub şəhərlərə köçsə, kəndlər boşalmazmı?!

Ədəbiyyat daim kəndi təbliğ etməklə nəyə nail olmaq istəyir? İnkişafda olan, elm dalınca gedən gənci zorla kənddə saxlamaq olarmı?! Əgər tərsinə etsək, kənddə elmi mühit yaratsaq, oranı intelektin təcrübə meydanına çevirə bilsək, gənclər təbliğatsız da doğma kəndlərindən möhkəm yapışarlar. Doğrudur, "Nənəm təkdir" poemasında problem bu cür qoyulmayıb. Sadəcə olaraq uşaqlar kənddən şəhərə köçür, nənə isə kənddə tək qalır. Amma bu təklik ocağın sönməsinə yox, daha da alovlanmasına səbəb olur. Nənə özünü və düşdüyü mühitini məğlub kimi görmək istəmir:

Nənəm obaşdan durub,
Deyinir öz-özünə:
–Səni doğan arvadın
Külü qoyum gözünə!

Pəhə-pəhlə bəsləyir
Yeddi ildi canı bəs!
"Gəlin ocağa gələr!"
Söyləyirlər, hanı bəs?!

Nənə yanır, amma külə dönmür. Onun odu az qala şəhərdə yaşayan nəvələri də yandırır.

Nənənin alovu külə dönəcək yanğı deyil, o enerji mənbəyidir. Bu ocağın alovu kənddə tək qalanlar üçün bir həyandır, bir gücdür.

Nənənin həyatı milli ruhun, mənsub olduğu bir mühitin rəmzinə çevrilir. Nənə ağlamır, sızlamır, gileylənmir – mübarizə aparır. Mübarizəsi onu məğlub edib ölümə sürükləmək istəyən tənhalıqladır. Qalib gəlmək üçün nənə bir tonqala çevrilir, oxucu başa düşür ki, belə nənə məğlub ola bilməz.

Qırılıbdır ağzımın
Kirişi, vallah, gəlin.
Çaşdırmışam dünyada
Hər işi, vallah, gəlin!..

Bəzən bu ocaq öləziyir, adama elə gəlir ki, o, yanıb sona çatacaq. Amma, şair həmin ocağı söndürüb İosif Brodski kimi "odun çəkdiyini küldən soruş" – demir. Yox, bu məğlubiyyət yoludur. Od sönən kimi enerji mənbəyi yox olacaq. Buna görə də onu söndürmək olmaz, əksinə, köhnə (ənənəvi düşüncəyə malik) nəsillə yeni nəslin gözəgörünməz mübarizəsi poemanın sonuna qədər davam edir. Ənənəni saxlayan nənənin düşüncələrindəki pedaqoji anlayışlar da maraqlıdır.

"Hərəkət həyatdır" fəlsəfəsini özü başa düşdüyü kimi yozan nənə şəhər uşaqlarının doyunca oynamaq, hərəkət etmək imkanlarını belə izah edir.

Vallah, lap ürəyimin
Başı söküldü dünən, –
Gördüm uşaq boylanır,
Küçəyə pəncərədən.

Gərək bunlar ağnasın
Batdağa camış kimi.
Sübh səhərdən oyansın,
Qızım, xortlamış kimi.

Şehə batıb bulansın
Kənddə yollu-yoldaşlı,
Sərçəni də tanımır
Bunlar əməlli-başlı.

Ayaqları bilməyir,
Torpağın ləzzətini,
İt - pişik tək didirlər
Bir-birinin ətini.

Bu əsərin sujeti təkcə ailə münasibətləri üstündə qurulmayıb. Burada cəmiyyətin inkişaf tempində baş verən mübarizələrin mahiyyəti və çözülməsi kimi fəlsəfi bir fikir dayanır. Həyat inkişaf edir, amma bu inkişafı nəsillər eyni cür qəbul etmir.

Qəşəm İsabəyli bu gün də öz mövzularına və ifadə tərzinə sədaqətlə yazıb yaradır. Öz səhifələrində uşaq ədəbiyyatına səxavətlə yer verən "Ədəbiyyat", "Ədalət" kimi qəzetlərdə onun gözəl şeir və hekayələri, esseləri çap olu-

nur. Bu göstərir ki, Qəşəm İsabəylinin yaratdığı təkcə nənə obrazının deyil, onun özünün də enerjisi hələ tükənməyib.

Zahid Xəlil
filologiya elmlər doktoru, professor

Faciəvi şəkildə –
maşın qəzasında
həlak olmuş qardaşım
Abdulbağı İsa oğlunun
və
əmim nəvəsi
Həmiyyət Bahadır oğlunun
əziz xatirəsinə ithaf edirəm!
Qəbirləri nurla dolsun!

*S*alam

Bu söz də bəxşiş olsun,
Sən də qat öz varına, –
Qəşəm İsabəylidən
Balaca dostlarına.

İnanmağım gəlməyir,
Düzü gözümə, Vallah!
Bu, sənmisən?!
Əlində...
Kitabmıdır?!
Maşallah!

Oxumaq istəyirsən,
Yavaş de, yalan olar?!
Aramıza, yazığam,
Söz-söhbət salan olar!

Zəhmət çəkib almısan,
“Nənəm təkdi”ni sən,
Qardaş canı, sevincək
Eyləmisən məni sən!

Bəlkə rəsmlərinə
Baxmaq istəyirsən, hə?!
Nahaq...
Elə kitablar
Bizdə dəb deyil hələ!

Bəlkə o söz... –
Qiyməti
Səni maraqlandırır?!
Necəəə?!
Lap kitab özü
Yəni – maraqlandırır?!

Qardaş, sevincək etdin,
Canım haqqı məni sən.
Onda nə dayanmısan,
Aç görüm, "Nənə"ni sən!

Əvvəlcə düyməni bas,
Söndür televizoru.
Çox da yox, saat yarım
Hədər baxmaqdan yorul.

Başla, görüm, başından:
"Xoş gördük, ay Məhsəti..."

Bir az da səbrin olsun,
Bir az da fikrin qəti.

Dalı asan gələcək,
Yoğurmuşam,
Yapmışam.
Ağzına şirin gələn
Dadlı sözlər tapmışam.

Az deyil tikanlısı,
Acısı, zəqqumu[149] var.
Diri-diri udma, ha,
Tumu var.

Sonra, iraq canından,
Çeçiyərsən, amandı.
Duymazsan ləzzətini,
Sanarsan ki, samandı.

Hə, qoçağım, durma, ha,
Ay əllərin var olsun!
Həmişə aldıqların
Nübar kitablar olsun!

[149] ***Zəqqum – Cəhənnəmdə bitib acı, zəhərli meyvəsi olan ağac.***

İnanmağım gəlməyir,
Düzü gözümə, Vallah!
Bu, sənmisən?!
Əlində...
Kitabmıdır?!
Maşallah!

Maşallah kamalına,
A hünərli, a səyli!
Bu kitab,
Bu da ki, sən,
Bu da mən – İsabəyli.

*X*oş gördük

*X*oş gördük, ay Məhsəti,
Ay Anar,
Qəşəm, Zərən[150]!
Vallah, sizdən ötəri
Yaman darıxmışam mən!

Yazı yazanlar bilir,
İlham cığal quşdu bir,
O adam xoşbəxtdi ki,
Çiyninə qonmuşdu bir.

Qırx gündü,
Vallah-billah,
Sözdü yeyəcəyim var,
Yəqin anladınız,
Sizə deyəcəyim var.

Nə yaxşı qoymadınız
Yolda mənim gözümü,
Bir az da səbr eləyin,
Açıb töküm özümü.

[150] ***Poema yazılanda Qəşəmlə Zərənin ata-anası uşaq idi.***

Haçandı sarınırdım
Özümə yumaq kimi,
Pıqqapıq qaynayırdım,
Bişirdim quymaq kimi.

Axır ki, dilə gəldim
“Hə”dən,
“Yox”dan,
“Bəli”dən,
Salamlar olsun sizə
Qəşəm İsabəylidən!

–Qəşəm kimdi?
–Mənəm də!
Tanımırsınız bəyəm?!
Vallah, elə özüm də
Özümə bilməcəyəm!

Elə cavan deyiləm,
Qırxüçümə girmişəm,
İndi baxıb görürəm,
Cılxaca fikirmişəm.

Qan təzyiqim aşağı,
Qanım da az...

Deyirəm,
Çırtma vur – qızım-çıxım,
Hər sözü yeməyirəm!

Torpağım isti düşüb,
Adı Xəlsədi, Xəlsə,
Elə cah-cəlalı yox,
Adi Xəlsədi Xəlsə.

Vaxtı ilə şeir də
Toxumuşdum adına,
Bir ağlını qurtcala,
Bəlkə düşə yadına:

"Kürün sol sahilində
Kiçik bir kənddi Xəlsə,
Çoxu elə bilir ki,
"Xəlçə"[151] deməkdi "Xəlsə".

Qanbay əmi söylədi,
Saxlamışam yadımda –
Bir babamız olubdur
Qəhirman bəy adında.

[151] *Xəlçə – "xalça" mənasında.*

Bir də ki, bir kənd olub,–
Qəhirmanbəyli kəndi.
Bir yanı Kür,
Üç yanı –
Meşədi, çöl-çəməndi.

Yuxarı başda bəylik,
Aşağı başda tarla, –
Əkinçi, əkin yeri,
Xış...[152]
Kotan...[153]
Öküz...
Mala...[154]

Əkinçi nə, bir hovur
Durub-dayanmaq hara?!
Bəylər "xəlsə" deyərmiş
Burda yaşayanlara.

Varlıya yetişərmiş
Yığşırılan bar-bəhər...
–"Xəlsə" nədi, ay əmi?

[152] ***Xış – yer şumlamaq üçün ibtidai kənd təsərrüfatı aləti.***
[153] ***Kotan – yer şumlamaq aləti.***
[154] ***Mala – şumlanmış yerin daş-kəsəklərini əzib yumşaldan alət.***

–“Xəlsə”mi?!
“Xəlsə – rəncbər”...

–Bəs “rəncbər” nədi?
–Rəncbər
“Əkinçi”di, “muzdur”du,
Harda çörəyi çıxsa,
Ora olardı yurdu.

Böyüdü, yaşa doldu,
Qalxdı, ucaldı Xəlsə.
“Bəylik”dən meşə qaldı,
“Rəncbər”dən qaldı Xəlsə.

Məndən ötrü dünyada
Ondan əziz yer hanı?!
Qışda – dizdən palçığı,
Yayda – qara şoranı...

Yolu?!
Qoy oturmuşuq,
Anlayıb-duyan olar,
Birdən
Çar Nikolaya
“Rəhmət” oxuyan olar.

Bəli, tarixi yoldu, –
Dəli keçib, səy keçib,
Qaradovoy,[155] kəndxuda,
Nökər keçib, bəy keçib.

Burdan Həccə gediblər,
"Hac" olublar, ol əmin.
İndi də biz gedirik
Kommunizmə[156] – yol həmin.

Sözdən aralı düşdük,
Dananı qurda verdik,
Başımızı qatdılar,
Atı – axurda verdik...

Bəli, bərk sarınırdım
Özümə yumaq kimi,
Pıqqa-pıq qaynayırdım,
Bişirdim quymaq kimi.

Axır ki, dilə gəldim
"Hə"dən,

[155] ***Qaradovoy – Çar dövründə aşağı rütbəli polis nəfəri.***
[156] ***Kommunizm – Sovet dövrü insanlarının gələcəkdə yaşayacağı əfsanəvi dövlət quruluşu.***

“Yox”dan,
“Bəli”dən,
Salamlar olsun sizə
Qəşəm İsabəylidən!

–Qəşəm kimdi?
–Dedim ki!
Unutdunuzmu bəyəm?!
Vallah,
Elə özüm də
Özümə bilməcəyəm!

Elə cavan deyiləm,
Qırxüçümə girmişəm,
İndi baxıb görürəm,
Cılxaca fikirmişəm.

Yazdım “Əkil-Bəkil”i,
Çap etdim –
Oxuyasan.
Bir az da sözlərimin
Qoxusunu duyasan.

Vallah, elə bilirdim,
Boşalmışam...

Dolmaram,
Mənə olan olubdur,
Mən daha mən olmaram!

Amma bir səhər durub,
Gördüm qələm “gəl” deyir,
Keç masanın dalına,
Yaz məni, –
Dincəl deyir.

Duydum əsir düşmüşəm,
Çətindi, bildim, bala,
Yazdım...
Susdum...
Danışdım...
Öldüm, dirildim, bala!

Xoş gördük, ay Məhsəti,
Ay Anar,
Qəşəm, Zərən!
Vallah, sizdən ötəri
Yaman darıxmışam mən!

Yazı yazanlar bilir,
İlham cığal quşdu bir,

O adam xoşbəxtdi ki,
Çiyninə qonmuşdu bir.

Qırx gündü,
Vallah-billah,
Sözdü yeyəcəyim var,
Yəqin ki, anladınız,
Sizə deyəcəyim var.

Fikir fikiri çəkdi,
Tükü tutdum tükə mən,
Şirin söz deyim, deyə,
Qəlbi verdim yükə mən.

Başımı əllərimlə
Çox saldım məngənəyə,
Bir vərəq də çevirin,
Salam verin nənəyə.

Bu nənə nənə deyil,
Anadır,
Duyan olsa.
Ömründən saat yarım
Kəsib, –
Oxuyan olsa!

Allahın ümidinə
Qoyub gəlmişik onu,
Bir cüt yol çəkən gözü,
Bir əli,
Bir qoyunu...

Tanrı onu bəxş edib
Bizə –
Canı yanandı,
Bu gün mənim anamsa,
Sabah sənin anandı!

*N*ənəm təkdi

*N*ənəm təkdi Xəlsədə,
Üçcə göz otaqda – tək,
Qapısında təndiri,
Süfrəsində duz-çörək.

Bir hektar həyəti var,
On ildi qac[157] görməyir,
Keçəlləyib çəpəri,
Ağac-uğac görməyir.

Şahtutu aşıb düşüb,
Çəkilləri gərləşib[158].
Kəl sürtünüb damına,
Dam əyilib –
Gərnəşib.

Əfqanlarla döyüşdən
Çıxıbdır hini sanki.
Toyuq-cücələrinin
Aclıqdır dini sanki.

---

[157] *Qac – yeri qaclamaq, belləmək – altını üstünə çevirmək.*
[158] *Gərləşmək – ağacların budanmayıb, daranmayanı.*

Nənəm təkdi Xəlsədə,
Üçcə göz otaqda – tək,
Qapısında təndiri,
Süfrəsində duz-çörək.

Atam deyir:
– Ay ana,
Nəfsim-zadım toxunar,
İt başı sanc çəpərə,
Göz dəyməsin var-yoxuna.

–Oğul,
İndi bilmişəm,
Var-yox övladmış, – deyir.
Oğul,
İndi bilmişəm,
Övlad da yadmış, – deyir. –

Allah məni oxşadıb
Özünə son çağımda,
O da Təkdi, mən də tək –
Dünyanın qucağında.

Yolunuza baxmaqdan
Gözüm alacalanmış.

Ay oğul, oğulunku
Arvad alanacanmış!

Doğub yığdım dam altda,
Sevincimdən uçurdum,
Ev qaldı,
Mən qalmışam, –
Pərvazladıb uçurtdum.

Cəftəsindən dartıram,
Dalımca gəlmir qapı.
Didik-didik eləyib
Əlimi dəhrə sapı.

Ot qalxıb çal-çəpərdə,
Boy vermir adama day.
Qeyrət boğur,
Hünərim
Çatmayır da day.

Şaqqalanıb –
Bölünüb
Dəryazımın tiyəsi...
Anan öləydi sənin,
Ay bu evin yiyəsi!

Doğub yığdım dam altda,
Sevincimdən uçurdum,
Ev qaldı,
Mən qalmışam, –
Pərvazladıb uçurtdum.

İynəmi saplayanım,
Qabımı yuyanım yox,
Başım aldansın deyə,
Kitab oxuyanım yox.

Nə yaxşı ki, deyirəm,
Sərçə-mərçə də varmış.
Qonub məhəccərimə
Sübhü-şam oxuyarmış!

Yol çəkir gözlərim hey,
Nə düşmür xəyalıma?!
Gündüzüm belə keçir,
Vay gecəmin halına!

Gün batır, qaş qaralır,
Toplayıb şax-şəvəl mən,
Əl-ayaq ki, çəkilir,
Çəkilirəm evə mən!

Fikrim-zikrim qarışıb,
Saçlarım kilkəşikdi,
Qapımı açan olsa,
Vallah...
O da pişikdi.

Bacılığam camışla,
Ayrılmayaq barı biz.
Məstan – süfrə yoldaşım,
Başdayaq yatarıq biz.

İtim var – itliyi yox,
Gecəm var – həmsöhbəti...
Çörəyim var, ay bala,
Yoxdur ağız ləzzəti!

Ağac adama gəlir
Gecə – Əjdaha kimi.
Qorxa-qorxa yatıram,
Oğul, sabaha kimi!

Oruc-namaz bilmirəm
Bu yaşımda, bala, mən,
Gecə yatammayanda
Zikr edim Allaha mən!

Day gələr də acığı
Adamdan Allahın da,
Siz məndən hörmətlisiz
O Kişinin yanında!

Mənə etdiyin edib,
Bilən olsam özümü,
Qarğa-quzğunmu Allah,
Oyub tökə gözümü?!

Oruc-namaz bilmirəm
Bu yaşımda, bala, mən,
Yuxum aparmayanda,
Zikr edim Allaha mən!

Mal-qara gündüz yeyib,
Gecə vurur gövşəyi,
Vallah, qızdırmaq olmur,
Oğul, yorğan-döşəyi!

Neylirəm ki,
Yediyim
Axşam-sabah aş oldu...
Xana əyilməyən Gilas,
Pişiyə yoldaş oldu!

Köçür qonum-qonşular,
Gimgələrim[159] dağılır,
Kirələmək istəyir
Tanrı can otağımı!

Nənəm təkdi Xəlsədə,
Üçcə göz otaqda – tək,
Qapısında təndiri,
Süfrəsində duz-çörək.

–Allaha oxşamışam –
Deyir ki, – son çağımda,
O da Təkdi, mən də tək –
Dünyanın qucağında.

[159] **Gimgə –** ***bir yerə yığılmış adamlar. Burda ürək dostları, qonum-qonşular.***

*N*ənəm deyir

*N*ənəm deyir:
– Yayın da
Belə dəydim dalından,
Bir azdan payızın da
Tutaram saqqalından.

Onda gəlib kefimi
Soruşarsan, can bala!
Öldürüb eləməsə
Məni həyəcan, bala!

Buxarım[160] qurum[161] tutub,
Tüstüləyir pilətəm.
Dananı xeyirləşib,
Gərək verəydim ətə.

Vallah, çənə-boğazsız,
Dinməz üçyüzü vardı,
Heç olmasa puluna
Yalavaclıq[162] alardım.

---

[160] ***Buxarı – divar içində hörülmüş ocaq.***
[161] ***Qurum – tüstünün his halında ocağın borusunun yoluna çökməsi.***

Əzətin qızlarının
Əyni-başı yalındı,
Əri evcanlı deyil,
Bakılıdı... –
Qalındı.

Qaloşlarım su verir,
Salıb məni çətinə.
Bircə alverçidə var,
O da od qiymətinə.

Kolxoz ətə mal gəzir,
Düşüb plan dalına,
Kənd soveti dananı
Aparsa, – vay halıma!

Pensiyamı bu ay da
Müdir salıb it-bata,
Deyirəm, belə olmaz,
Məni az incit, atam!

Ötən ayı yerimə
Qol çəkib, götürmüsən.

---

[162] ***Yalavaclıq – ehtiyac, lazımi şey.***

Qənd talonum[163] əlimdə
Qalıbdı,
Görmürmüsən?!

Hər ay bir göy üçlüyüm
Sənindi,
Halal xoşun!
Rüşvəti var, yolu var,
Dərəsi... var yoxuşu.

Deyir:
– Bəsdi, ay arvad,
Sən Allahın,
Kiri, di!..
Kəndçinin nəyi yoxsa,
Səbri Allah səbridi!

Yıxılmışam, ay bala,
Əlim sərpib biləkdən,
Həkim –
Vaqifdi –
Dərdə,
Gəlməyir bilərəkdən.

[163] ***Qənd, ət və s. ərzaq icazəylə - talonla satılırdı hərdən.***

Duyub ki, şor verəcəm,
Bircə manatdı kinə[164],
Hanı mənim Leninim[165],
Qoyum onun cibinə?!

Qurban olum, yayın da
Belə dəydim dalından,
Bir azdan payızın da
Tutaram saqqalından.

Onda gəlib kefimi
Soruşarsan, can bala!
Öldürüb eləməsə
Məni həyəcan, bala!

Xəlsə - Bakı arası
Bu il çox tələsimişəm.
Nə təndir odunum var,
Nə də gərmə[166] kəsmişəm!

Evimin orta tiri
Belim kimi əyilib,

---

[164] *Kinə – həb şəklində dərman.*
[165] *Leninim – məşhur qırmızı Sovetı 10 manatı.*
[166] *Mal peyinindən kündə kimi hazırlanan yanma materialı.*

Dal divar qarınnaşıb,
Qabaq adama gəlir.

Ağaclar keçəlləşir,
Xəzəl basır izləri,
Kalafa[167] tək açılır
Çəpərimin gəzləri[168].

Otlaq-örüş olacaq
Bir azdan həyət-bacam.
Qonşu yazıq neyləsin,
Hirslənib, savaşacam.

Nənəm deyir:
–Yayın da
Belə dəydim dalından,
Bir azdan payızın da
Tutaram saqqalından.

Onda gəlib kefimi
Soruşarsan, can bala!
Öldürüb eləməsə
Məni həyəcan, bala!

[167] ***Kalafa – iri oyuq, çuxur, deşik.***
[168] ***Gəz – kol-kosdan olan çəpərin it-pişik keçə bilən yeri.***

*N*ənəm çörək göndərib...

*N*ənəm çörək göndərib
Bir dəstərxan[169] arası,
Bir də əl boyda kağız,
Hər sözün – "can!" arası:

"Bu ilki zəmidəndi,
Biçinçilər pay verib,
Nənən də borclu qalmayıb,
Ənbiz[170] üstə çay verib.

Allaha şükür, bala,
Dənlidi sünbülümüz,
Payız başı yanaqda
Açılacaq gülümüz!

Dırmıqlayıb bir taya
Zəmidən ot yığmışam,
Canı üçün,
Qış boyu
Kef verəcəm camışa!

---

[169] ***Dəstərxan – süfrə.***
[170] ***Ənbiz – piramida şəklində yığılmış buğda, meyvə topaları.***

Qəzet oxutdurmuşam
Ötən ili yazığa.
Altını atmamışam,
Batıb,
Bulanıb zığa.

Sərçə ənbizə düşmür,
Çöldə yeyib-yağlanıb,
Siçan yuvaya dartır
Sünbülün ən sağlamın...”

Nənəm çörək göndərib
Bir dəstərxan arası,
Bir də əl boyda kağız,
Hər sözün – “can!” arası:

“Lap çıxmışdı yadımdan,
Can bala, bunu deyim.
Əl daşında çəkmişəm,
Dəyirman unu deyil.

Nənəniz Bəyimxanım
Qaynanama deyərmiş –
Atası Qəhirmanbəy
Daş çörəyi yeyərmiş.

Axşama da plovmuş
Süfrəsinin xörəyi.
Kür qırağı, saf hava
Yüz il yaşadıb bəyi...

Təndirim qocallayıb,
Çörəyi narah düşür.
Quba gildə yapmışam,
Ona görə rah düşüb.

Bir ildi yalvarıram
Qohuma-qardaşacan,
Mənə təndir palçığı
Tökən tapılmır ancaq.

Tək sizin xətrinizə
Təndirə girdim, oğul,
Güclə yeddi kündəni
Yapıb, – bişirdim, oğul.

Bir kəndin çörəyini
Yapardım bir gündə mən,
Çörəkçilik edərdim,
Qardaş,
Toy-düyündə mən.

Qan təzyiqi tapmışam
Tofiqimin yasından.
Üç gündü yatammıram
Başımın ağrısından...”.

Nənəm çörək göndərib
Bir dəstərxan arası,
Bir də əl boyda kağız,
Hər sözün –“can!” arası:

“Allaha şükür, bala,
Dənlidi sünbülümüz,
Payız başı yanaqda
Açılacaq gülümüz!”

*N*ənəm atıb evini...

*N*ənəm atıb evini,
Gəlib bizə dəyməyə.
Deyirəm:
–Biz gələrdik!
Deyir:
–Ölmüşəm bəyəm?!

Bakıya çox gəlmişəm
Atanızın dalıyca
Dilimə dolamıram,
Ay bala, halalıyca!

Qırx qurbanla tapmışam,
Canım qurban canına!
İldə bir gəlməz adam
Qocasının yanına?!

Barı bir yol qapımı
Açıb girsə nə olar?!
Qoy görsünlər mənim də
Oğlum var –
Hayanım var!

Qaraçı Müzəffərə
Tay olub getmişəm day!
Kamançam çatmır, çalıb,
Oxuyam:
– Dalay-dalay!

Su üzündə gəmitək
Xəlsədə tək qalmışam,
Ağanın[171] cəddi haqqı,
Ay bala, qocalmışam!

Başım üstümdə durmur,
Qol-qıçım mənim deyil!
Baxırsan, –
Bədənimdi,
Amma...
Bədənim deyil!

Atanız bilməsin, ha,
Fikirçildi, –
Darıxar.
Allahımdan razıyam,
Səsi var, sədası var...

---

[171] ***Kürdəmirin Qocalı kəndində yaşamış seyyid Məşədi Mirqayıb Ağa nəzərdə tutulur.***

Nənəm atıb evini,
Gəlib bizə dəyməyə.
Deyirəm:
–Biz gələrdik!
Deyir:
–Ölmüşəm bəyəm?!

*N*ənəm obaşdan durub...

*N*ənəm obaşdan durub,
Deyinir öz-özünə:
– Səni doğan arvadın
Külü qoyum gözünə!

Pəhəpəhlə bəsləyir
Yeddi ildi canı bəs,
"Gəlin ocağa gələr"–
Söyləyərlər,
Hanı bəs?!

Nə qazı alışdırıb,
Nə də çayı dəmdədi,
Xamırgöz Əhməd qızı
Yuxuyla çəm-xəmdədi!

Gomuşu[172] sağıb-soğub,
Örüşə sürməyəcək,
Pal-palçıq kündələyib,
Təndir götürməyəcək!

---

[172] Gomuş – Bizim Şirvan ərazilərində camışa verilən ad. Hətta Sabirabadda "Gomuşçu" kəndi də var.

Gərmə kəsməyəcək ki,
Qalaq vursun pəyədə!
Süpürgəyə baş əyib,
Düşməcək ki, həyətə!

Buzov qoyub belinə
Quyruğunu, – götrülə,
Bu da düşə dalıyca...
Onda qədrimi bilər!

Yuxusu şirin olsun,
Qaçaqaçdı?!
Duracaq,
Döşəmədi, əsgidi,
Şirələyib vuracaq!

Gəlin gələndə, dedim:
–Daşı tök ətəyindən,
Ay oğul,
Beş ay bunu
Ver saxlayım kənddə mən!

Sən get işlə şəhərdə,
Borcu qalmayıb sənə!

Oğlum razıydı, amma...
Razıydımı xansənəm[173]!

Beli verib əlinə,
Basacaqdım kolxoza,
Barmağının ucuna
Xına qoyardı qoza[174].

Bilərdi pambıq yığıb,
Bala saxlamaq da var,
Malı sürüb örüşə,
Balağ[175] bağlamaq da var.

Çatı[176] da var, –
Sürüşsə,
Vay əlinin halına!
Odun da var meşədə,
Almalısan dalına!

İnək də var, şıllağa
Qalxanda, qısnayardım:

---

[173] ***Xansənəm –iş-güc görməyən, sənəmlərin (qadınların) xanı.***
[174] ***Qoza – pambıq qozası. Ucu iynə kimi iti olur.***
[175] ***Balağ – camışın balası.***
[176] ***Çatı – qıldan hörülmüş qalın kəndir.***

– Tez gir altına, görüm,
Tez... bir... iki... –
Sayardım!

Onda yaxşı bilərdi
Mənim əziyyətimi,
Bala yolunda necə
Tökmüşəm can ətimi!

Yuxusu şirin olsun,
Qaçaqaçdı, duracaq?!
Döşəmədi, əsgidi,
Şirələyib vuracaq!

Nənəm obaşdan durub,
Deyinir öz-özünə:
– Səni doğan arvadın
Külü qoyum gözünə!

Pəhə-pəhlə bəsləyir
Yeddi ildi canı bəs,
"Gəlin ocağa gələr"
Söyləyərlər,
Hanı bəs?!

Nə qazı alışdırıb,
Nə də çayı dəmdədi,
Xamırgöz Əhməd qızı
Yuxuyla çəm-xəmdədi!

–Ay ana, nə atmısan
Səsini hə,
Başına?!
Oğlun ət göndəribdir,
Nə asım axşamına?

–Qırılıbdır ağzımın
Kirişi[177], Vallah, gəlin!
Çaşdırmışam dünyada
Hər işi, Vallah, gəlin!

Ay gözümün işığı,
Ay bəy oğlumun yarı,
Niyə hörükləmisiz
Evə bu yazıqları?!

İndi quş quşluğuynan
Yuvasından gen gəzir,

[177] ***Kiriş – cəhrənin topuyla iyi birləşdirib hərəkətə gətirən ip.***

Qapının it-pişiyi
Çöl gəzir, çəmən gəzir!

Yazıqdı bu uşaqlar,
Bir həyətə düşürün,
Bunların yeri kənddi,
Ay qızım, bir düşünün!

Vallah,
Lap ürəyimin
Başı söküldü dünən,
Gördüm uşaq boylanır
Küçəyə pəncərədən!

Səhərdən toyuq kimi
Qovub salırsız hinə,
İldə bir yol bunların
Günəş dəymir belinə!

Gərək bunlar ağnasın
Batdağa camış kimi,
Sübh səhərdən oyansın,
Qızım,
Xortdamış kimi!

Şehə batıb-bulansın
Kənddə –
Yollu-yoldaşlı,
Sərçəni də tanımır
Bunlar əməlli-başlı!

Ayaqları bilməyir
Torpağın ləzzətini,
İt-pişiktək didirlər
Bir-birinin ətini!

Cücəli toyuq kimi
Yığıb yan-yörənizə,
Maşalla, birini də
Qıymayırsınız bizə!

Bunların atasını
Məgər doğmayıb Gilas?!
İndi naməhrəm oldum,
Bəsdi, sən Həzrət Abbas?!

Alovxar[178] gomuşu da,
Vallah, bağlamıram mən,

[178] ***Alovxar –acgöz, onun-bunun həyətinə basıb keçən.***

Fal atan toyuğu da
Belə saxlamıram mən!

Fağır deyilmi bunlar,
Ürəkləri bişdi ki?!
Bu nədi,
Yedikləri
Elə hey bişmişdi ki?!

Mer-meyvəmi qonşular
Dartan-dartana salıb,
Qoyun-quzu da yemir,
Tökülüb yerdə qalıb!

Narım açıb ağzını,
Bir saz dişə tamarzı...
Bir yekə hinduşkam var,
Yekə şişə tamarzı.

Dayımqızı pay verib,
İki qoz uddurmuşam.
Şəfdəliyə bağlayıb,
Düyüyə
Tutdurmuşam!

Ay gəlin,– anam-bacım,
Ay bəy oğlumun yarı,
Niyə hörükləmisiz
Evə bu yazıqları?!

–Qırılıbdır ağzımın
Kirişi, Vallah, gəlin!
Çaşdırmışam dünyada
Hər işi, Vallah, gəlin!

Sonra da asta-asta
Deyinir öz-özünə:
– Səni doğan arvadın
Külü qoyum gözünə!

Pəhəpəhlə bəsləyir
Yeddi ildi canı bəs,
“Gəlin ocağa gələr”
Söyləyərlər, hanı bəs?!

Nə qazı alışdırıb,
Nə də çayı dəmdədi,
Xəmirgöz Əhməd qızı
Yuxuyla çəm-xəmdədi!

*N*ənəm yır-yığış etdi...

*N*ənəm yır-yığış etdi,
Sığal verdi telinə.
Zənbilini iç-içə
Qoyub, aldı əlinə.

Qucaqlaşıb öpüşdük,
Ayrıldıq gözüyaşlı:
–Nənə qurban, getməyim,
Neylim mən başıdaşlı?!

Allahın ümidinə
Qoyub gəlmişəm, bala,
Dam-daşı, ev-eşiyi,
Qapı-bacanı, Vallah!

Qonşunun nə taxsırı,
İnək görmür, kordu ki?!
Çəpərim çəpər deyil,
Balıq yırtmış tordu ki!

Allah rəhmət eləsin,
Düzəltmişdi, – ərimə! –

Donuzu hıssasaydın,[179]
Girməzdi çəpərimə!

İndi burdan yel vurur,
Yengələr oynayır, ha.
Tum sancıram,
Yığışıb,
Qarğalar qoymayır, ha!

Ay sənə qurban canım,
Bir yol gəlib baxsana,
Tutumu sərçə yeyir,
Armudumu sağsağan.

Sığırçının babası
Ortaq imiş,
Sən demə,
Əncir ağaclarıma,
Söz veribmiş dədəmə.

Guya kişi tək yığıb,
Gəlməzmiş öhdəsindən.
Heç elə də əncirin
Deyilmiş həvəsində.

[179] ***Hıssamaq –itələyib, zorla hərəkətə gətirmək.***

Odur ki,
Kölgəsidir
Mənimki – oturmuşam,
Day demirlər, sulayıb,
Qulluğunda durmuşam.

Şahtutu gözüm ki,
Qoruyuram hər il mən, –
Deyirəm, atan gələr,
Gəlmir, –
Yeməyirəm mən.

Narına göz oluram
Ağacda –
Yağışacan,
İydəsini yığıram,
Saxlayıram qışacan.

Atan niyə gəlməyir
Dəyməyə anasına?!
Qurd yağımı[180] vurublar
Mənimlə arasına?!

---

[180] ***Qurd yağı** – Burda qurd qəbrin içində insan bədənini yeyən qurdlardı. Qurd yağı ölü yağıdır. Belə deyirlər, qurd yağı ayrılıq salır, insanı dəli edir, şikəst edir, hətta öldürə bilir.*

Ertəykən gedim, bala,
Azaram yolu birdən,
Orda da xeyli yoldu, –
Xəlsəyə Kürdəmirdən.

Allahın ümidinə
Qoyub gəlmişəm, bala,
Dam-daşı, ev-eşiyi,
Qapı-bacanı,
Vallah!

Var-yoxdan bir gomuşdu –
Gəlinliyim-qızlığım.
İtər-batar, yazığam,
Kəsilər damazlığım[181].

Nobata da az qalır,
Gecikərəm, – ayıbdı.
Sizə motal tutmuşam,
Siçan deşər, – hayıfdı!

Qayıdıb gələcəyəm,
Ürəyini sıxma, heç!

[181] ***Damazlıq – nəsil artırmaq üçün cins heyvan.***

Özüm liftlə düşərəm,
Sən eşiyə çıxma, heç!

Nənəm yır-yığış etdi,
Sığal verdi telinə.
Zənbilini iç-içə
Qoyub, aldı əlinə.

Qucaqlaşıb öpüşdük,
Ayrıldıq gözüyaşlı:
–Nənə qurban,
Getməyim,
Neylim mən başıdaşlı?!

*N*ənəmgilə gəlmişəm...

*N*ənəmgilə gəlmişəm,
Yaman sevinir arvad,
Deyir, ay gül-bənövşə,
Siz də açın qol-qanad!

Nəvəm gəlib Bakıdan,
Özü də oğlan nəvəm!
Day gecə səksəkəylə
Yatmayacam evdə mən!

Nənən yazıq neyləsin,
Təklik yamandır, oğul?!
Bir yandan da gecələr
Bu qorxu – andır, oğul!

Qiyməkeşi görürsən,
Sağ yanımdan asmışam,
Paslı bel tiyəsiylə
Burdaca dostlaşmışam!

Qapının arxasına
Kötük qoyuram gecə,

Əlaltda saxlayıram
Paslı şişi gizlicə!

Nənən yazıq neyləsin,
Təklik yamandır, oğul?!
Bir yandan da gecələr
Bu qorxu – andır, oğul!

Bir bəri dur, can bala,
Yastığımı götür, bax,
Altında gördüklərin
Dua olacaq ancaq!

Qorxu dualarıdı,
Hacı Hacoğlan yazıb,
Allah minbudaq etsin,
Bu da onun bayazı![182]

Atan bir
Quran alsın,
Bağışlasın ona qoy.
Xəlsənin müstəqillik
Mollasıdır o!

[182] ***Bayaz – burda mərsiyə dəftərçəsi.***

Rus sataşdı İslama,
Din-zad bəhanə idi...
Molla Sərxan öləndən
İşimiz fəna idi.

Meyiti də rusbabı
Götürürdük, bala, biz,
Dönüb dəyişdi dövran,
Şükr etdik Allaha biz...

Nənəmgilə gəlmişəm,
Yaman sevinir arvad,
Deyir,
Ay gül-bənövşə,
Siz də açın qol-qanad!

Nəvəm gəlib Bakıdan,
Özü də oğlan nəvəm!
Day gecə səksəkəylə
Yatmayacam evdə mən!

Axşam açıb-buraxıb,
İtimə yal verəcək!
Süpürləsə pişiyi,
Çəkib, öyüd verəcək!

Səhər hamıdan erkən
Çıxacaqdır xam döşə[183],
Hacalı babasıyla
Mal sürəcək örüşə!

Daha toyuq-cücəmin
Naharı
Qalmaz şama,
Siçan bəy xəlvətləyib
Sırıq çəkməz xaşama![184]

İzimi də basammaz
Qara qıllı qaban da!
Çığıraram üstünə:
– Get gəbər xarabanda!

Nənəm deyir:
– Ay bala,
Əllərim işdən qalıb!
Qocalmışam –
Getmişəm,
Ayağım köçdən qalıb.

---

[183] *Xam döş – burda otu yeyilməmiş yamac.*

[184] *Sırıq çəkməz xaşama – xaşa – iri kisə. Sırıq – paltara, xaşa və s. atılan iri, möhkəm tikiş. Burda "tikiş kimi kəsmək" mənasında.*

Halal südəmmişlərin
Birini alım sənə,
Evimi-eşiyimi bəxş edim,
Zalım, sənə!

Bir bu qoca yaşımda
Mən də toy-düyün görüm,
Sonra köçüm Bakıya,
Beş gün ömür-gün görüm!

Deyirəm ki, ay arvad,
Hələ üçə gedəcəm!
Deyir ki, sən "hə!" denən,
Nə var ki,
Səbr edəcəm!

Nənəmgilə gəlmişəm,
Yaman sevinir arvad,
Deyir, ay gül-bənövşə,
Siz də açın qol-qanad!

Nəvəm gəlib Bakıdan,
Özü də oğlan nəvəm!
Day gecə səksəkəylə
Yatmayacam evdə mən!

*N*ənəm mət[185] hazırlayıb...

*N*ənəm mət hazırlayıb,
Umac[186] ovur bayaqdan:
– Ay bala, Allah günü
Görməyib nənən haqdan!

Qızlarım yarımadı,
Yarımadım gəlindən.
Oruc-namaz bilmirəm,
Çıxmışam,
Vallah, dindən!

Lay divar oğlum öldü,
Ağzın yansın, ay əcəl!
Sirlidi-soraqlıdı
Ölümü indiyəcən!

Sonra da ərim öldü,
Ölümüm düşdü yada,
Sonra da anam öldü,
Tək qaldım bu dünyada!

---

[185] ***Umac ovmaq üçün suya şəkər tozu töküb qaynadılan maye.***
[186] ***Umac – halva bişirmək üçün unu suyla ovub yumrulamaq.***

Nənəm mət hazırlayıb,
Umac ovur bayaqdan:
– Ay bala, Allah günü
Görməyib nənən haqdan!

Sabah cümə günüdü,
Bu gün cümə axşamı,
Qəbir üstə yollanır
İndi müsəlman hamı.

Bir ildi
Vaxt tapmıram,
Qəbristana gedim mən,
Əziz ölənlərimi
Bir ziyarət edim mən!

Qərib qəbirləritək,
Bala, görkəmi acı...
Çöküb sinə torpağı,
Əyilib baş ağacı!

Matəm günü əməlli
Təzyəsinə[187] durmuram,

[187] ***Təzyə – təziyə, yas, matəm, kədər.***

Ayda-ildə bir dəfə
Quran oxutdurmuram!

Gecə yuxuda görsəm,
Yer tapmıram özümə.
Ağlayıb-sıtqayıram,
Baxmırlar da üzümə!

Dirilərin dərdindən
Nə gecə-gündüz mənə,
Məndən küsüblər, bala,
Haqları var küsməyə!

Gözləri qalıb evdə,
Biş-düşümdə, –
Aşımda...
Halva çalım,
Get çağır,
Əmin gəlsin maşında.

Bəsdi,
Daha, deyərsən,
Günü satdıq günə biz!
Mollanı da götürsün,
Gedək qəbr üstünə biz.

***

Kəndin lap ayağında
Balaca qəbiristanlıq,
Molla fatihə verdi,
Sükut etdik bir anlıq:

“Bismillahir-rəhmanir-rəhim
Əlhəmdu lillahi rəbbil-aləmin
Ərrəhmanir-rəhim.
Maliki yəumiddin
İyyakə nəbudu və
İyyakə nəstəin
İhdinəs siratəl-müstəqim.
Siratəl-ləzinə ənəmtə ələyhim
Ğəyril-məğzubi ələyhim vələzzalin.
Bismillahir-rəhmanir-rəhim
Qulhuvəllahu əhəd
Əllahus-səməd
Ləm yəlid və ləm yuləd
Və ləm yəkun
Ləhu kufuvən əhəd.”

Salavat çevirdilər,
Qəbristana girdilər.
Yeriyib addım-addım,
Dayandıq yan-yana biz.

Nənəm bir nalə çəkdi,
Qaldıq yana-yana biz.

Qol açıb, məzarları
Bir-bir qucaqlayırdı.
Üz sürtür,
Sığallayır,
Oxşayıb ağlayırdı:

“Ay nakam balam Oqtay[188]!
Alınmaz qalam Oqtay!
Sinəmi parçalayır,
Dözmürəm, nalam, Oqtay!

Bu nə ağır yatışdı,
Anan qurbanın olsun?!
Ötüşən yaydı-qışdı,
Anan qurbanın olsun!
Səni tutan nə qarğışdı,
Anan qurbanın olsun?!

Dur bax qardaşlarına,
Boynu bükülü durub!

[188] Doğum kağızında və qəbri üstə “Tofiq İsa oğlu”du.

Axan göz yaşlarına,
Boynu bükülü durub!
Dönüb baş daşlarına,
Boynu bükülü durub!

Anan ölsün, ay bala,
Məndən küsmüsən,
Deyən?!
Bir aydı yuxuma da
Girməyirsən gecə sən!

Ay nakam balam Oqtay!
Alınmaz qalam Oqtay!
Sinəmi parçalayır,
Dözmürəm, nalam, Oqtay!

Ay İsa, oyyy, ay İsa,
Ay dədəmin əzizi,
Özün ölüb gedəli,
Yandırıb-yaxdın bizi!

Hər günorta gələrdin,
Evdə elərdin nahar,
Yolunu gözləyirəm
İndi də günortalar!

Sənin tay-tuşlarının
Nəvə tutur əlini,
Qulluğunda dayanır
Kürəkəni, gəlini.

Sevinclə gözləyirdin
Pensiyanı, ay yazıq!
Neyləyək ki, gün yazan
Sənə belə gün yazıb?!

Ay İsa, oyyy, ay İsa,
Ay dədəmin əzizi,
Özün ölüb gedəli,
Yandırıb-yaxdın bizi!

Ay ana, vay, ay ana,
Ay Tanrı gün sınmayan!
Ay canını nəvəyə,
Qıza qızırğanmayan!

Başdaşında adın yox,
Sanın yox, ünvanın yox,
Nəvəyə-nəticəyə
Qurban eləməyə canın yox!

Yayı – biçinçi anam,
Qışı – sağıcı anam,
Gecə sabbaha qədər
Anam, zarıncı anam!

Ay Allahın fağırdan
Fağır, yazıq bəndəsi,
Ay balası yolunda
Ərinin şərməndəsi![189]

Oğul doğub – "Boyuna
Qurban", deməyən yazıq!
Ərli olub, ərindən
Çörək yeməyən yazıq!

Ay Allahın fağırdan
Fağır,
Yazıq bəndəsi,
Ay balası yolunda
Ərinin şərməndəsi...

Ay nakam balam Oqtay!
Alınmaz qalam Oqtay!

[189] ***Şərməndə – utanan, xəcalətli olan.***

Bu nə ağır yatışdı,
Anan qurbanın olsun?!
Ötüşən yaydı-qışdı,
Anan qurbanın olsun!
Səni tutan nə qarğışdı,
Anan qurbanın olsun?!

Ay İsa, oyyy, ay İsa,
Ay dədəmin əzizi,
Özün ölüb gedəli
Yandırıb-yaxdın bizi!

Ay ana, vay, ay ana,
Ay Tanrı gün sınmayan!
Ay canını nəvəyə,
Qıza qızırğanmayan!

Nənəm nalə çəkirdi,
Qalmışdıq yana-yana.
Gah “oğul!”,
Gah “ər!” deyir,
Gah da “ay yazıq ana!”

Ağlayıb-oxşadıqca
Qəbirləri bir-bir o.

Dönüb olmuşdu axır
Bir yaralı qəbir o!

O qədər ağladı ki,
Qan-yaş gəldi gözündən.
Yoruldu...
Nitqi batdı...
Düşüb getdi özündən.

*N*ənəm məktub yollayıb...

*N*ənəm məktub yollayıb
Abdul əmidən bizə!
Bilmirəm şikayətdi,
Vallah, yoxsa ərizə?!

Atam deyir:
– Qurandı,
Tapmışam bu "salam"dan.
Təfsirini[190] soruşaq
Gərək Şeyxülislamdan...

Ata-bala bir günə
Çıxammadıq axıra,
Çoxlu "gəl-get",
"Unutma",
"Təkəm" və ilaxıra!

Gah bir sözün ortası,
Gah da sonu yoxudu.
İki gün heccələyib,
Üçüncü gün oxuduq:

[190] ***Təfsir – izah etmə, şərh etmə.***

“Hər gün qazan asıram,
Hər gün xörəyim bişir,
Üç nəfərik, ay bala –
Bir – Mən,
Bir – İt,
Bir – Pişik.

Səhərdən axşamacan
Samovarım dəmdədi,
Gözlərim bütün günü
Hey gəlib-gedəndədi.

İt hürür, tez tərpənib,
Eşiyə çıxıram mən.
Kim salacaqmış yada,
Elə darıxıram mən?!

Tamaşadan nə küsüm,
Gün ağladı özünə?!
Üç-üç yekə kişinin
Biri baxmır gözünə!

Hərdən Qudyal gələrdi,
Day görsənməyir,
Bala!

Çaynik xoruldayınca,
Töküb, içir-içirəm,
Yanğım sönməyir, bala!

Üç nəfərlik asıram
Xörəyi, nənə qurban!
Tək keçmir boğazımdam
Yediyim, sənə qurban!

Mööləli[191] deyiləm ki,
Bozbaşı verim suya,
Qarnımı Kürdəmirdən
Götrüm, gedim Ağsuya!

Beçə bişirirəm mən
Allahın deyən günü,
Ay oğul, pişik küsür
Budu yeməyən günü!

Gözünün ucuyla da
Baxmır siçana zalım,
Görürəm ki, düşmənə
Meyli yaman azalıb.

[191] ***Xəlsədə yaşayanların xeylisi, Cənubi Azərbaycandan gələn Mööləli nəslinin törəmələridir.***

Görəcəyim var imiş, –
İt sümükdən yan gəzir.
Məni qınama, qardaş,
Gözləri qazan gəzir.

Onlara yedirdirəm,
Vallah, ətin ağını,
Gəlməsələr,
Açmıram
Qazanın qapağını.

Xörəyi qovuranda
Bilmərəm nədir dadı,
Əlbəsöyün[192] olublar, –
Gözləri ağzımdadı!

Bir öynəyə bir çörək,
Bala, görməyir bizi.
Ha özümü qısıram,
Vallah, görməyir bizi.

Üç nəfərlik asıram
Xörəyi, nənə qurban!

[192] ***Əlbəsöyün – acgöz, görməmiş.***

Tək keçmir boğazımdan
Yediyim,
Sənə qurban!

O qədər ürəyimlə
Danışmışam, day şişib,
Gorun çatlasın sənin
Ölən yerdə, ay kişi!

Şam kimi əriyirəm,
Hara çəkilirəm mən,
İl gecəni gözümdən
Dara çəkilirəm mən!

Gah oğrudan qorxuram,
Gah da qorxudur əcəl.
Bircə mənəm lampası
Kənddə yanan sübhəcən!

Dözə bilmirəm daha
Kənd-kəsəkdə, can bala!
Qulağına qurğuşun[193], –
Evi satacam, bala!

[193] ***Qulağına qurğuşun – xalq ifadəsidir, "yəni qulağı eşitməsin, fikir eləyər" mənasında.***

Hər gün qazan asıram,
Hər gün xörəyim bişir,
Üç nəfərik,
Ay bala –
Bir – Mən,
Bir – İt,
Bir – Pişik.”



Nənəm satıb evini...

Nənəm satıb evini,
Gəlib şəhərli olub.
Bibim deyir ki, anam,
Bax, indi fərli olub!

Yay-qış yazıq arvadın
Balağı batdaq idi,
Əlləri qabar-qabar,
Dabanı çartdaq idi.

Dörd əmcəyindən üçü
Kor – bir camışı vardı,
İki günə bir kasa
Südü güclə olardı!

Çəpərini mal basar,
Qonşuyla sözləşərdi.
Balaca uşaq kimi
Hey səbirsizləşərdi!

Daha nə "ho-ha" deyir,
Nə "cip-cip" deyir daha.

Nə nobata gecikir,
Ota gecikir daha!

Həkim – başının üstdə,
Dava-dərman – əl altda.
Əyri bitmişdi beli
Yazığın – şələ altda!

Nənəm satıb evini,
Gəlib şəhərli olub.
Bibim deyir ki, anam,
Bax indi fərli olub!

Təndirin od-alovu
Qarsımayır day onu,
Bircə yağ növbəsində
Görərdin hər ay onu!

Alıb şəkər tozunu,
Qəndini qabaqcadan,
Ağappağ kisələrdə
Düyüb[194],
Asıb taxçadan.

[194] ***Düyüb – büküb, bağlayıb.***

Mağazadan ət almır:
–Bəlkə xaçpərəst kəsib?!
Mən müsəlmanam,
Oğlum,
Bəlkə kəsən tərs kəsib!

Nə vermişdim Tehmirin
Danasının ətinə?!
Ləzzət verərdi, Vallah,
Ağzımın ləzzətinə!

Zalım oğlu zalımın
Əlinin dadı vardı...
Hər işin,
Hər əməlin
Bir xoş saatı vardı!

Hər ay gəlib-gedəndən
Soruşuram kəndi mən,
Gomuşum qurudubmuş
Satdığım həftə, demə!

Qurd yırtıbmış keçimi,
Axtarıblar çox yeri,

Kövşənlikdə tapıblar
Buynuzunu səhəri!

Qoyunum mələr qalıb,
Götürmür quzusunu,
Allah necə kəsərmiş
Ağzımın ruzusunu.

Ev qurmaq həvəsini
Oynadıb adamın da,
Yuva qoymuşdu leylək
Evimizin damında!

Hər yaz uçub gələndə
Nə durar,
Nə ərinər,
Beş yol dövrə vurardı
Evin həndəvərinə!

Bu bahar qayıdanda
Gözü gəzəcək məni,
Axtarıb tapmayanda,
Görən,
Neyləcək,
Məni?!

İndi el iş-gücdədi,
Suçular şuma girir,
Kənd çıxmır xəyalımdan –
Gecə yuxuma girir.

Baban qəbirdən deyir:
–Gəlməzsən ha, yanıma!
Niyə sahib elədin
Yadı xanımanıma?!

Rəhmətlik sağlığında
Deyərdi dilbədil, ha:
– Evi satsan, sən məndən
Şuğluzümməsən[195],
Bil, ha!

Qəbir qorxutmur məni,
And içirəm canına.
Nə üzlə gedəcəyəm
Mən kişinin yanına?!

Bala, çoxdan almışam
Kəfənimi, ağımı!

[195] ***Şuğluzümmə – başqasının pul-malını mənimsəyib günah etmə.***

Ölsəm, Xəlsədə götürün,
Püstə desin ağımı!

Qulaqlarına xeyir,
Yasın yaraşığıdı.
Ölən, ay bala, sanki
Gözünün işığıdı!

Cavan, nakam oğlumun
Yanında öz yerim var,
Qurban olum, qəbrimi
Atan orda qazdırar.

Bakıda dəfn etməyin,
Burda haqlasa əcəl,
Vallah, qəbrim od tutub,
Yanar qiyamətəcən!

Gündə azı yüz dəfə
Kənd düşür xəyalıma,
Eh, ölüb-dirilirəm,
Yanan yoxdu halıma!

Qardaş, burnumun ucu
Göynəyir Xurma üçün!

Qonşularla yığışıb,
Axşam oturmaq üçün!

Ay dədə, qeybətin də
Öz yeri varmış, demə! –
Adam eldən aralı
Yetim olarmış, demə!

“Cip-cip” edib, yığardım
Cücələri yanıma,
Onlar yeyər, yağ kimi
Yayılardı canıma!

Doqqazım əlim üçün
Darıxıb, deyirəm bəs...
Hər şeyim var yeməyə,
Amma qəm yeyirəm bəs!

Yəqin ağaclarım da
Fikirdən gec göyərib!
Özüm burda qəribəm,
İtim də kənddə qərib!

*X*udahafiz

*X*uda – Allah...
Xudahafiz –
Allah səni saxlasın,
Ay bala, düşmənini
Qara yer qucaqlasın!

Vallah,
Arvad qarğışı
Heç yatmayır döşümə,
Mən bunu deyərmidim,
Düşmən olsaydı düşmən?!

Düşmən,
Yəni Cavanşir,
Həzrət Əli –
Mərd adam,
Yoxsa ki, cəmdəyi fil,
Özü də namərd adam!

Küt təbəssüm...
Qəlbi də
Qəlp verib həyat ona,

Yad tutub,
Yad bələyib,
Layla deyib yad ona.

Düşmən budursa,
Qardaş,
Dinlə bir, –
Bizdən deyim!
Biz Türk övladlarıyıq,
Beləsi bizdən deyil.

Qonşunu sirdaş bilib,
“Qardaş” söylərik yada.
Öz balamız olsa da,
Haqqı vermərik bada!

Dedim,
Türk övladıyıq,
Allahın dinc bəndəsi!
Birdi dil əzbərimiz,
O da ki, haqqın səsi...

“Haqq nazilər, üzülməz”,
Yağının üzü gülməz.

Nahaq görən gözləri
Tökülməz ki, tökülməz!

Xuda – Allah...
Xudahafiz –
Allah səni saxlasın,
Ay bala, düşmənini
Qara yer qucaqlasın!

Göyünə doğsun Günəş,
Yoluna şeh çilənsin!
Səni istəməyənin
Gözünə yaş bələnsin!

Gəl,
Daha vidalaşaq,
Vaxtın dar çağıdır day!
Vallah, sözüm qalmayıb,
Uzatsam...
Vay mənə, vay!

Pulu misra hesabı
Verirlər şairlərə,
Kitabının həcminə
Haqqını alır hərə!

İşdi, görsən ki, birdən
Uzunçuluq etmişəm,
Onda yapış yaxamdan:
–Bu nədir, cənab Qəşəm?!

Yaxşısı budur, susum,
Qızarmayım yanında!
Baxma sözümdə su var,
Su qalmayıb canımda!

Xuda – Allah...
Xudahafiz –
Allah səni saxlasın,
Ay bala, düşmənini
Qara yer qucaqlasın!

Bakı, 19.07- 30.08.1990

KİTABIN İÇİNDƏKİLƏR

Balaca dünyanın böyük həqiqətləri (G.Qarayeva).....3

ŞEİRLƏR

Küləyi eşidirsən, baba

Gül.....23
Tək.....23
Sərçə.....23
Küncüt.....23
At.....23
Bacım.....24
Əsmə, külək.....24
Qoyun... dəvə.....24
Yağış.....24
Payız.....24
Şax-şax.....25
40.....25
Aida.....25
Qış.....25
Bülbül.....25
Atlı Qəşəmşəm.....26
Payız.....26
Ağaclar.....26
Qış.....26
Çöl.....26

Qartopu……27
Atam……27
Beçə……27
Günəş……27
Kor... kar……27
Quzu... köşək……28
Sərçə……28
Qorxu……28
Ay quş……28
Ay qar……29
Dəh-dəh……29
Dəcəl yuxu……29
Su……29
Külək – daraq……29
Ac gəzirəm……30
Yay……30
Soyuq……30
Ağaclar……30
Nə olsun……31
Sərçə və qış……31
Abdul……31
Biz kimik……32
Baxma ki……32
Pişik balaları……32
Cığal yuxu……33
Çaydan……33

Fərari……33
Ərköyün……34
Alver……34
Zeynəb və çaqqallar……34
Babamın üzü……35
Ay qış……35
Tülkü……35
Siçan... pişik……36
Baba……36
Üç söz……36
Nənəm……37
Cığal Günəş……37
Ay pişik……37
Xoş gördük……38
Külək və qurd……38
Birdən……38
Qar……39
Nəzakət……39
Ay baba……39
Ay ata……40
Dərs……40
Daşlar……40
Hərdən……41
Dəcəl……41
Pinti maşın……41
Ay qış……42

Xəstə.....42
Eylədim.....42
Qış.....43
Günəş.....43
Qar – süd.....43
Çərkəz babam.....44
Mən.....44
Allah.....44
Mən.....45
Ulağın səsi.....45
Quzu.....45
Ay qış.....46
Əlin üsyanı.....46
Bəs.....46
Kişilər.....47
Dana.....47
Mənim dostlarım.....47
Babamın şapıları.....48
Bulud.....48
Yaşma.....48
Dostum.....49
Bəs.....49
Baaa.....49
Cığa.....50
Bibim.....50
Baba, qaç.....50

Ay baba.....51
Ay qar.....51
Dəniz.....51
Bahar.....52
Biz də.....52
Ay babalı.....52
Qar... külək... ağaclar.....53
Quş.....53
Bu nədi.....53
Qış.....54
Tənbəl.....54
Hesab dərsi.....54
Anam.....55
Dovşan.....55
Küləyi eşidirsən, baba.....55
Saat.....56
Şəmşəmin evi.....56
Bala sərçə.....56
Biz niyə kasıbıq.....57
İki qohum.....57
Budağ və külək.....58
Mən.....58
Şirni-quş.....59
Üç dost.....59
Hanı.....60
Nə xəbərdi.....60

Babamın dünyası……61
Zəif……61
Botanika bağında……61
Nənəm……62
Yaz gəlir……62
Əllərimiz……63
Zeynəbin şikayəti……63
Sərçənin arzusu……64
Vedrə və ayı……64
Ay ata……65
Toplan və sərçə……65
Yuxu……66
Pəncərədən baxıram……66
Gəzir……66
Çiskin……67
Mübarək……67
Zeynəb və milçəklər……68
Əl dedi……68
Qarışqa……68
Gecə……69
Qonaq……69
Leyləklər……69
İldırım……70
Sanki……70
Zeynəb……70

Babam-nənəm, atam-anam, bir də mən

Babamın yaşı……73
Qoy Allahdan soruşsun……74
Babamın evi……..75
Babamın varı……76
Dostumun babası……77
Yoxsa……79
Babam cinlərin toyunda……80
Nənəmlə dost olmuşam……84
"Qızıl"……86
Babamın ölümünə……91
Sən gəl……94
Gözün aydın……95
Ay nənəli……97
Nənə, mübarək olsun……98
Nənəyə məktub……100
Nənəmin cavabı……103
Bülbül – oyuncaq……105
Mənimdir nənə……107
Nənəm……109
İnanma……110
Nənəmgilə gəlmişəm……112
A çil xoruz……114
Nənəmin əlləri……115
Anam……116

Ot çalır atam.....117
Əmim qızı.....119
Bir az insafın olsun.....121
Şaxqulaq.....123
Hamı getdi gəzməyə.....125
Uşağam-nəyəm.....127
Avtobusda.....130

Yatmaq deyil Şəmşəminki

Yatmaq deyil Şəmşəminki.....133
Qonşumuz.....135
Samur at minir.....136
Tərləmə ha, tərləmə.....138
O.....140
Nərmin.....141
Qarınqulu.....142
Ortaq.....143
Toplan.....144
Zeynəb cığalçılıq edir.....145
Kimi çox istəyirsən.....146
Məni yıxana bir bax.....147
Söhbətcil.....148
Yel baba.....149
Qur... qur.. qur.....150
Niyə bəs.....151
Şəhərli oğlan.....155

Ərköyün……156
Eldar……158
Yavan çörək……159
Bizim küçük……160
Konsert……162
Küsə-küs……164
Uy... daaad……165
Nə yaxşı……166
Arılarla dəyib aram……167
Bizim it……168
Balaca müəllim……169
Küçük və çaqqal……171
Babamın qarğışı……173
Ən böyük canlı……175
Bəs……176
Bibim oğlu Muuhamməd……177
Ən ağır söz……178
Bu ki, “Azadlıq!” demir……179
Mənim dostum……181
İki……182
Cumbulu……183
Cəmilə……184

Balaca-bapbalaca

Balaca-bapbalaca……187
Atlı Vüqar……188

Cıdırda……190
Lamiyə……192
Nağara……194
Mənim toyuqlarım……196
Lay-lay……197
Mırtda - yumurtda……199
Üç kişiyik biz……200

Anarın sualları

Daş……203
Fəsillər……204
Yağış……205
Ağac və Anar……206
Ay külək……207
Arzu……208
Əminə……210
Zooparkda……212
Atlı Anar……213
Abdul əmi……214
Mənim bağım……215
Anam deyir……218
Can, gülüm, can-can……220
Hamıyla dalaşmışam……221
Oyundan sonra……224
Üç yoldaş……226
Məktub……229

Köpək gəzir ayaqyalın.....232
Yalan.....234
Döyüşçü.....235
Ovçu.....237

Çörək haqqında nəğmələr

Bərəkət.....241
Taxıl.....242
Zəmi.....243
Biçin.....244
Başaq.....246
Çö-ör... çöy - rək.....248
Sarıbuğda.....250
Anam çörək yapanda.....251
Çörək və Anar.....253
Ərištə.....254

Coğrafiya dərsi

Abşeron.....259
Kürdəmir.....262
Xaçmaz.....264
Səngəçal.....266
Xəlsə kəndi.....267
Gilavar.....269
Quru çay.....271
Sığırlı.....273

Vətən

Vətən……277
Azərbaycan……278
Vətən – yəni biz……279
Ey Türkün övladları……280
İntiqam……281
Niyə bəs……282
Məlik Məmməd öldürdüyü
əjdaha dirilibmiş……283
Şəhid uşaqlarımız……285
Sülhü neyləyirik biz……286
Şəhid balaları……288
Dron……289
Şir kimi vuruşuram……290
Şikəst atam……291
Biz vətəndaş deyilik……293
Aldıq Şuşanı da biz……295
Bu iki parça……297
Bayraq nədi, gerb nədi……299
Rusun qayda-qanunu……301
Güclü-gücsüz……302
Məktəblinin intiqamı……304
Babəkin nəvələri……306
Qardaş nədi, qonşu nə……308
Qəşəmşəm girir döyüşə……311

Təbiət gündəliyi

Torağaylar……315
Sərçələr……316
Quşlara məktub……317
Yaz……318
Qaranquşlar……320
Toyuq……323
A quşlarım……324
Qarı-qarı-qarışqa……325
Zağca……327
Aslan və quşlar……328
Keçi……329
Cücələr……330
Yağış……331
Yazıq qar……333
Çoban-bayatı……334
Pişik və sərçə……337
Toyuq... yumurta... cücə……339

Oxşamalar

Otlar……340
Kəndimiz……341
Hələ……342
Bağban……343
Əkinçi……344

Gəldim Xəlsə kəndinə

Gəldim Xəlsə kəndinə.....347
Kəndimiz.....349
Qonaq gəlin Xəlsəyə.....351
Kəndimizin nəğməsi.....355
Kəndimizin yayı.....356
Kəndimizin payızı.....357
Kəndimizin qışı.....359
Bostan oğruları.....361

POEMALAR

Şamaxı – Şam nağılı..... 363

Əkil-Bəkil

“İlhamın ifadə imkanları”(M. İsmayıl) 385
Adım – Əkil-Bəkildi
Salam.....393
Halaya gəl, halaya.....398
Boynu sınsın Hitlerin.....406
Papağına bax bunun.....417
İgidlik nədir, canım.....422
Onda ki, qıl – qılıncdı.....428
Zarafat sanmayın, ha.....441
Yox, belə yemək olmaz.....448
Kişi ona deyərəm.....454

Ey, körpə, axarsan, a.....460
Dur, tədarük gör yola.....466
Yoldaş, hərbi komissar.....471
Keşikdə
Burda əzilib otlar.....475
İki məncəydi zalım.....482
Bu iki parça olan,
sənin köksündür, Vətən.....487
Məndə elə vaxt hanı.....494
Şah İsmayil bu xalqin oğludur.....498
Sultan Səlimin
Şah İsmayıl Xətaiyə məktubu.....513
Yəni uşaqdı Bəkil.....520
Vətən – yəni biz.....529
Qarğadan ötəyəm mən.....531
Buyur, ata min görək.....538
Torpaq ki, var,
kişinin namusudur.....546
Mən ki, sazam çənədən.....552
Şirvanlı deyilsiniz.....556
Ay sağsağan – xeyġrxəbər.....562
Gəlib vətən əsgəri.....566
Xiyarı tər yeyərlər.....570
Deyəsən, qocalmışam.....578
Mənim göyərçinlərim.....588
Xudahafiz..... 596

Nənəm təkdi

Yumorla ciddiliyin vəhdəti (Z.Xəlil).....601
*S*alam.....608
*X*oş gördük.....612
Nənəm təkdi.....628
Nənəm deyir.....629
Nənəm çörək göndərib.....634
Nənəm atıb evini.....638
Nənəm obaşdan durub.....641
Nənəm yır-yığış etdi.....650
Nənəmgilə gəlmişəm.....655
Nənəm mət hazırlayıb.....660
Nənəm məktub yollayıb.....670
Nənəm satıb evini.....676
Xudahafiz.....683

Çapa imzalanıb **02.02.2022**
Hesab-nəşr vərəqi **44 ç.v.**
Formatı **60x90 1/16**
Sayı **300**

Qəşəm İsabəyli

(Qəşəm İsa oğlu İsabəyli)

ƏSƏRLƏRİ TOPLUSU

(Uşaqlar və yeniyetmələr üçün)

2 cilddə

I cild

(şeirlər və poemalar)

Bakı-Şirvannəşr-2022



1 cild

QƏŞƏM İSABƏYLİ